1993-cü ilin iyununda Azərbaycanın çətin dönəmlərində rəhbərlik sükanı arxasına yenidən qayıdan Heydər Əliyev ölkəmizin dünya siyasi arenasında layiqli yerini qazanması üçün doğru xarici siyasət kursu müəyyənləşdirmişdir. Və bu istiqamətdə Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycanın xüsusən İslam ölkələri ilə əlaqələrinin yenidən qurulması və inkişaf etirilməsi prioritet vəzifə olaraq seçilmişdir. Dini bağlarımız olan islam ölkələrindən Pakistanla isə tarixən yaxın, isti əlaqələr mövcud olmuşdur və bu münasibətlərin strateji tərəfdaşlıq xarakteri almasında dahi lider Heydər Əliyevin rolu danılmazdır.

Yaxın tariximizdən məlumdur ki, 1996-cı ilin aprelində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Pakistan İslam Respublikasının Prezidenti Fərrux Əhməd Xan Leqarinin dəvətilə bu ölkəyə rəsmi səfəri iki dövlət arasında münasibətlərin inkişafında əvəzsiz rol oynamışdır. O zaman Heydər Əliyev iki ölkə arasında münasibətləri belə səciyyələndirmişdir: "Pakistan ilə Azərbaycan arasında çox yaxşı əlaqələr, dostluq əlaqələri var. Bu əlaqələr keçmiş tarixi ənənələrimiz üzərində qurulur. Təsadüfi deyil ki, Azərbaycan müstəqilliyi haqqında bəyənat verdikdən sonra Pakistan ölkəmizin müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir".

Həmin tarixi səfər çərçivəsində Azərbaycan və Pakistan arasında dostluq və əməkdaşlıq haqqında müqavilə, ticarət, vergi, səhiyyə, turizm sahəsində mühüm sazişlər imzalanmışdır.

Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan xarici siyasət kursu bu gün də onun davamçısı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Heydər Əliyevin uzaqgörənliyi, müdrik siyasəti ilə qurulmuş bu xarici siyasi kursun bəhrəsini dövlət olaraq hiss edirik. Həqiqətən, yüksələn xətt üzrə inkişaf edən əlaqələr, geniş spektrli

əməkdaşlıq hər iki dövlət və xalq üçün öz töhfələrini verir. Bu sırada Heydər Əliyev Fondu tərəfindən 2005-ci ildən başlayaraq Pakistanda məktəb tikintisi, Talassemiya Mərkəzinin yaradılması, su təchizatı sisteminin quraşdırılması və bu kimi bir çox layihələri sadalamaq olar. Və bu gün Pakistan-Azərbaycan əlaqələri dünya müstəvisində qardaşlıq və güvənli tərəfdaşlıq nümunəsi olaraq tanınır.

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN ETNOQRAFİYASI ELMİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Fəzail Vəliyev**
*AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu, t.e.d., professor*
*fazailveli@mail.ru*

1. Dövlət Müstəqilliyinin bərpasından keçən qısa zaman kəsiyində Azərbaycan elmi bir sıra nailiyyətlər qazanmışdır ki, bu nailiyyətlərin ilk onillikdə əldə edilməsində Ümummilli lider, Müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı, azərbaycançılıq milli dövlət ideologiyasının banisi, milli-mənəvi və maddi dəyərlərimizin qoruyucusu və böyük təbliğatçısı Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur.

2. Böyük şəxsiyyət, türk dünyasının fenomen liderlərindən biri olan Heydər Əliyev ixtisasca tarixçi olduğuna görə xalqımızın möhtəşəm tarixinə, bu elmin köməkçi sahələrinə, xüsusilə də xalqımızın milli-mənəvi və maddi dəyərlərini öyrənən elm sahələrinə həmişə qayğıkeşliklə yanaşmış, onlara öz qayğı və məsləhətlərini əsirgəməmişdir.

3. Heydər Əliyev cənablarının böyük qayğıkeşliklə yanaşdığı, daim elmi nailiyyətlərinə dəstək göstərdiyi elm sahələrindən biri də etnoqrafiya elmidir. Heydər Əliyev cənabları öz çıxış və nitqlərində həmişə azərbaycançılıq milli ideologiyasının əsas tərkib hissəsi kimi etnoqrafiya elminin öyrənmə predmeti olan milli-mənəvi dəyərlərimizə vətəndaşlıq mövqeyindən yanaşmış, onların həqiqi elmi qiymətini vermişdir.

4. Milli-mənəvi və maddi dəyərlərimizi elmi əsaslarla öyrəndiyinə görə Heydər Əliyev cənabları Azərbaycan etnoqrafiyası elminin nailiyyətləri ilə qürur hissi keçirmiş, onun inkişafını daim diqqətdə saxlamışdır. 1993-cü ildə H.Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 iyun tarixli 386 saylı qərarı ilə Arxeologiya və Etnoqrafiya Sektorunun bazasında müstəqil elmi-tədqiqat müəssisəsi kimi AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu təsis edilmişdir.

5. Bu gün Müstəqil Azərbaycanın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun sərbəst elmi-tədqiqat müəssisəsi kimi fəaliyyəti məhz Ümummilli liderin adı və fəaliyyəti ilə bağlıdır. 1993-cü ildə xalqımızın böyük oğlu Heydər Əliyev yenidən Azərbaycanda hakimiyyətə gəlmiş və Müstəqil Azərbaycan Respublikasının gələcək inkişaf strategiyasının bütün istiqamətlərini dəqiq müəyyənləşdirmişdir. Bu strategiyaya uyğun olaraq Azərbaycan etnoqrafiyası elmi də inkişaf edir, burada dünya etnoqrafiyası elminə inteqrasiyanı həyata keçirə biləcək elmi fəaliyyət formalaşdırılır.

6. Ulu öndər həmişə öz çıxış və tövsiyələrində deyirdi ki, “Ümumi çətinliklər nə qədər olsa da, biz elmə, təhsilə daim qayğı göstərməliyik və elmin inkişafı üçün mövcud imkanlardan daha çox istifadə etməliyik”. Respublika rəhbərinin böyük qayğısından ilhamlanan İnstitutun elmi əməkdaşları çoxcildliklər, monoqrafiyalar, dissertasiyalar və sanballı məqalələrlə H.Əliyev cənablarının tövsiyələrinə əməl edir, etnoqrafiya elminin bu gün də öz fəaliyyətini səmərəli şəkildə davam etdirməsi, elmdə yeni-yeni nailiyyətlərə imza atması naminə bilik və bacarıqlarını əsirgəmirlər.

# İBRAHİM YUSİFOĞLUNUN “O, GÜNƏŞ ÖMRÜDÜ, SÖNMƏYƏCƏKDİR” POEMASINDA HEYDƏR ƏLİYEVİN BƏDİİ OBRAZI HAQQINDA

**Salidə Şərifova**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*filologiya elmləri doktoru, professor,*
*Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü*

Heydər Əliyev haqqında nəzm, nəzr və dram əsərləri janr müxtəlifliyi və mövzu rəngarəngliyi ilə fərqlənir. Xalq yazıçısı Elmira Axundovanın “Heydər Əliyev: şəxsiyyət və Zaman” altı cilddən ibarət olan roman-tədqiqatında, Xalq yazıçısı Anarın “Unudulmaz görüşlər” publisist-romanında, Xalq yazıçısı Elçinin “Dünya axirət əkini” essesində, Hüseynbala Mirələmovun “Heydər Əliyev” kitabında, Hidayətin “Burdan min atlı keçdi”, Adil Babayevin “Koroğlunun Çənlibelə qayıdışı”, Aqşin Babayevin “Xilaskar”, İftixar Piriyevin “Qurtuluş dastanı” kimi pyes və tamaşalarda, Cabir Novruzun “İxtiyarım olsa idi”, Nəbi Xəzrinin “İnam”, Rəfiq Zəka Xəndanın “Heydər baba”, Zəlimxan Yaqubun “Xalqın ehtiyacı var” poemalarında və bu kimi digər əsərlərdə Heydər Əliyevin tam, dolğun bədii obrazı yaradılmışdır. Bu bədii nümunələrdə Heydər Əliyevin siyasi xadim, lider, ədəbiyyatın, mədəniyyət və incəsənətin hamisi obrazı canlı şəkildə tərənnüm və təsvir edilmişdir.

İbrahim Yusifoğlunun “O, günəş ömrüdü, sönməyəcəkdir” poemasında öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxartmağı bacarmış Heydər Əliyevin tarixi şəxsiyyət olması bədii dillə təbliğ edilir.

Poemada hadisələr təhkiyə üsulu ilə təsvir olunur və təsvir olunan hadisələrin gedişində lirik lövhələrə geniş yer verilir. Poemadakı hadisələrin epik təsviri ilə lirik tərənnüm üzvü surətdə birləşir. Poemada qəhrəmanın - Heydər Əliyevin həyəcanları, onunla bağlı təqdim edilən hadisələrin təsviri və onların doğurduğu hiss və duyğular yer alır. Heydər Əliyevin dövlət xadimi olması, çoxəsrlik dövlətçilik ənənələri poemanın problematikasında əksini tapır. “O, günəş ömrüdü, sönməyəcəkdir” poemasında dövlət xadimi Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinin əks etdirilməsini İbrahim Yusifoğlu bir müəllif kimi vurğulayır:

Bir insan ömründən söz açıram mən,
O, günəş ömrüdü, sönməyəcəkdir.
Səadət verdiyi milyonlar qəlbən,
Onun haqq yolundan dönməyəcəkdir.

İbrahim Yusifoğlunun “O, günəş ömrüdü, sönməyəcəkdir” poemasında Heydər Əliyevin siyasi fəaliyyətinin, xidmətlərinin bədii şəkildə təqdim edilməsi təqdirəlayiqdir. “O, günəş ömrüdü, sönməyəcəkdir” poeması Heydər Əliyevin bir tarixi şəxsiyyət kimi rəhbərlik etdiyi dövlətin azadlığı və dirçəlişi yolunda apardığı mübarizəni bədii dillə tərənnüm edir. İbrahim Yusifoğlu “O, günəş ömrüdü, sönməyəcəkdir” poemasında Heydər Əliyevin keçdiyi şərəfli, həmçinin keşməkeşli həyat yolunun asan və hamar olmadığını açıqlayır. Müəllif zaman kəsiyində mürəkkəb, ziddiyyətli dövrün içindən müdrikliklə, qalibiyyətlə keçib gələn Heydər Əliyevin obrazını canlandırır.

# ÇİN-AZƏRBAYCAN ƏLAQƏLƏRİNİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN MÜSTƏSNA ROLU

**Zenfira Şıxəlibəyli**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu,*
*Asiya-Sakit okean regionu ölkələri*
*şöbəsinin müdiri, f.ü.f.d.*
*zenfira.sh@gmail.com*

Artıq 30 ilə yaxındır ki, Heydər Əliyevin irsi minlərlə tədqiqat işinin obyektinə çevrilmişdir. Onun bütün fəaliyyəti Azərbaycan xalqının taleyüklü məsələləri ilə sıx bağlı olmuşdur. Heydər Əliyev xalqımızın ən ağır günlərində mübarizə sükanını cəsarətlə idarə etməyi bacaran, mücadilə hərəkatını ilhamlandıran irimiqyaslı tarixi şəxsiyyətdir. Atdığı hər bir addım düşünülmüş və uzaq hədəfləri nəzərdə tutan məqsədyönlü strategiyanın bir hissəsi olmuşdur. Müasir Azərbaycanın uğurları məhz onun uzaqgörən siyasətinin bəhrəsidir.

Heydər Əliyev Çin Xalq Respublikası ilə əlaqələri çox yüksək qiymətləndirilmişdi. 1991-ci ilin dekabr ayının 18-də dövlət müstəqilliyinin bərpasını elan edən Azərbaycan Respublikası artıq həmin ilin 27 dekabr tarixində Çin Xalq Respublikası tərəfindən müstəqil dövlət kimi tanındı. Çin Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olmuşdur. Azərbaycanla Çin Xalq Respublikası arasında səfirlik 1992-ci ilin əvvəllərində açılmışdır. Ölkələrimiz arasında əməkdaşlıq müstəqilliyimizin ilk illərindən mümkün olmuşdu. Heydər Əliyev ölkənin Çinlə münasibətlərin qurulmasını diplomatiyamızın vacib məsələlərindən biri hesab edirdi. Çinlə Azərbaycan arasında əməli əməkdaşlığın başlanması Heydər Əliyevin prezident seçilməsindən sonra baş tutdu.

Uzaqgörən siyasətçi, təcrübəli dövlət rəhbəri Heydər Əliyev anlayırdı ki, siyasi arenada uğur qazanmağın yolu iqtisadi və maliyyə maraqlarından keçməmiş deyil. Bu baxımdan, Azərbaycanı beynəlxalq aləmin gərəkli subyektinə çevirmək üçün, ilk növbədə, ölkənin iqtisadi potensialını digər dövlətlərin maliyyə maraqlarına yönəltmək və siyasi-iqtisadi dividentlər əldə etmək lazımdır. Azərbaycan öz geosiyasi mövqeyinə görə Avropa, Qara dəniz, Qafqaz, Xəzər və Mərkəzi Asiya ticarət yollarının kəsişiyində yerləşir. Ağıllı siyasət bu cür imkanları regionun iqtisadi inkişafına çevirə bilərdi ki, onu da Azərbaycan bacardı. XX əsrin sonlarında – XXI əsrin əvvəllərində Çin-Xəzər hövzəsinə olan marağı daha güclü idi.

Azərbaycan xalqının lideri Heydər Əliyev Çin Xalq Respublikası ilə əlaqələri yüksək qiymətləndirilmişdi.

# TÜRKDİLLİ XALQLARIN BİRLİYİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

**Hüsniyyə Çobanova**
*Heydər Əliyev adına Hərbi İnstitut,*
*f.ü.f.d., dosent*
*cobanovahusniyye@gmail.com*

Türk dünyasının fəxri olan Ulu öndər Heydər Əliyev XX əsrdə Azərbaycan xalqının yetirdiyi ən böyük siyasi xadimlərdəndir. Ümummilli lider Heydər Əliyev şöhrəti bir xalq, bir ölkə, bir qitə çərçivəsinə sığmayıb, bütün dünyaya yayılmışdır. Onun təşəbbüskarı və müəllifi olduğu regional layihələr türk xalqlarının yaşadığı geniş coğrafiyada uzunmüddətli inkişaf və əməkdaşlığa meydan açdı.

Dərin tarixi köklərə malik bağların yeni şəraitdə daha effektiv müstəviyə çıxarılmasında, Beynəlxalq Türk Mədəniyyət Təşkilatının – **TÜRKSOY-un** formalaşması, bu formatda bir çox layihələrin reallaşması Azərbaycanın – Heydər Əliyevin aktiv rolu sayəsində mümkün olub.

Təşkilatın əsası 1992-ci ilin yazında İstanbul şəhərində qoyulmuş, idarəetmə orqanlarının strukturu və fəaliyyət mexanizmləri 1992-ci ilin dekabrında Bakıda keçirilən ikinci toplantısında formalaşdırılmışdır. “TÜRKSOY-un yaradılması və fəaliyyət prinsipləri haqqında Müqavilə” sənədi 12 iyul 1993-cü ildə Almatı şəhərində altı təsisçi dövlət və təşkilatın daimi üzvləri – Azərbaycan, Qazaxıstan, Türkiyə, Türkmənistan, Qırğızıstan və Özbəkistan Respublikaları tərəfindən imzalanmışdır.

1996-cı il may ayının 27-də “Özbəkistan Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə”nin imzalanması 1997-ci ildə Qırğızıstan Respublikası ilə iki ölkə arasında əməkdaşlığa dair sazişin, 1997-ci ilin iyun ayında Qazaxıstan Respublikası ilə, 1994-cü ilin oktyabr ayında Türkmənistan Respublikası ilə münasibətlərin təməli qoyuldu və münasibətlərdə dönüş yaratdı.

Türk dövlətləri arasında münasibətlərin inkişaf etdirilməsinin vacibliyindən danışarkən Heydər Əliyev deyirdi: “Mən türkdilli dövlətlərin birliyinə daxil olan Azərbaycan Respublikası adından onu demək istəyirəm ki, bu birlik lazımdır. Biz bu birliyi yaşatmalıyıq. Birliyin əsas məqsədi iqtisadi, mənəvi, elmi, mədəni sahələrdə, tarixi köklərimizin, dinimizin, dilimizin bir olduğuna və başqa məsələlərə görə biz bir-birimizlə daha da yaxınlaşaq, qovuşaq. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır”.

Ulu öndər Heydər Əliyevin məqsədi türk dövlətlərinin müstəqilliyinin müdafiəsi, türk dünyasının birliyinin təmin olunması, türk dünyasının beynəlxalq nüfuzunun daha da gücləndirilməsi idi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev siyasi və dövlətçilik fəaliyyəti dövründə Azərbaycanın və digər türk dövlətlərinin hərtərəfli inkişafı, müstəqilliyin möhkəmləndirilməsi, dünya birliyində layiqli yerini tutması üçün yorulmadan və əzmlə çalışmış və buna nail olmuşdur.

# HEYDƏR ƏLİYEVİN DÖVLƏT QURUCULUĞU STRATEGİYASINDA DİL MƏSƏLƏSİ

**Lalə Əhmədova**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Mərkəzi Asiya ölkələri şöbəsi, f.ü.e.d., professor*

Hər bir xalqın tarixində, inkişafında və tərəqqisində müstəsna xidmətlər göstərmiş şəxsiyyətlər var. Ulu öndər Heydər Əliyev xalqımızın yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Azərbaycan üçün göstərdiyi misilsiz xidmətlər Heydər Əliyevi Ümummilli lider zirvəsinə yüksəldib. Bu xidmətlərin nəticəsidir ki, hər il 10 may tarixi xalqımız tərəfindən milli bayram səviyyəsində qeyd olunur. Məlum olduğu kimi, bu il 100 illik yubileyini qeyd edəcəyimiz Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycan xalqının tərəqqi və inkişaf dövrü başladı. Ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, tariximizin düzgün istiqamətdə öyrənilməsi, ana dilimizin rolunun artırılması, xalqın azadlıq istəyinin təcəssümü kimi ortaya çıxan ədəbi-bədii nümunələrin hücumlardan qorunması yönündə apardığı məqsədyönlü siyasət cəmiyyətdə milli ruhun oyanışına təkan verdi.

Ümummilli liderin ideyalarını layiqincə yerinə yetirən Azərbaycan Prezidenti İlham Əliyev doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır.

Ümummilli liderin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev də dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. Qətiyyətlə deyə bilərik ki, bu gün dilimizin inkişafının əsas qarantı da məhz ölkə Prezidentinin özüdür. Azərbaycan ədəbiyyatını, azərbaycanlı düşüncəsini əks etdirən sanballı əsərlərin latın qrafikasında yenidən nəşr edilməsi cənab İlham Əliyevin təşəbbüsü ilə reallaşıb. Ölkə rəhbərinin hələ 18 il öncə, 2004-cü il yanvarın 12-də "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"kı sərəncamı əlifba ilə bağlı problemləri aradan qaldırdı. Dövlət başçısının sonrakı sərəncamlarında isə 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirdi. Bu sahədə mühüm və uğurlu tədbirlərdən biri də ölkə rəhbərinin 18 il bundan əvvəl imzaladığı "Azərbaycan milli ensiklopediyasının nəşri haqqında"kı sərəncamı oldu. Bu sərəncamların nəticəsində qiymətli kitabların çapı mənəvi xəzinəmizin zənginləşməsində mühüm rol oynadı.

Beləliklə, minilliklər boyu formalaşan və bu günümüzə gəlib çatan Azərbaycan dili xalqımızın qədimliyinin simvolu, qürur mənbəyidir. Bu gün müstəqil bir dövlətimizin mövcudluğu dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması baxımından vacib tarixi imkandır. Məhz Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dil siyasəti bu sahədə əldə etdiyimizi uğurların əsasını təşkil edir.

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ ƏRƏB DÜNYASI

**Lalə Bayramova**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Təhsil şöbəsinin müdiri, YAP Yasamal Rayon Təşkilatının AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda partiya təşkilatının sədri, f.ü.f.d, dosent*
*bayramova78@hotmail.com, mob: 0507355182*

Azərbaycan XX əsrin 90-cı illərində ikinci dəfə dövlət müstəqilliyini əldə etdikdən sonra onun qarşısında dayanan bir çox mühüm vəzifələrdən biri də müstəqil Azərbaycan Respublikasının dünyaya tanıdılması idi.

Ümummilli Lider Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra bütün istiqamətlərdə olduğu kimi, xarici siyasət sahəsində, xüsusilə ərəb ölkələri ilə əlaqələr istiqamətində dövrün tələblərinə uyğun şəkildə addımlar atmağa başladı. Bu baxımdan 1994-cü ildə müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi Ümummilli Lider Heydər Əliyevin Səudiyyə Ərəbistanına səfəri xüsusi əhəmiyyət kəsb edir. Heydər Əliyev ərəb ölkələrinə ilk rəsmi səfəri zamanı Müqəddəs Ocağın Xadimi Kral Fəhd ilə danışıqlar aparmaqla bərabər, müqəddəs Kəbəni də ziyarət etmişdir. Daha sonra Azərbaycanın və İordaniyanın ali rəhbərləri 1994-cu ilin dekabrında İKT-nin Kasablanka zirvə toplantısında təkbətək görüş keçirmişlər. 2000-ci ilin yanvar ayında isə Davos Ümumdünya İqtisadi Forumunda ikitərəfli münasibətlərin inkişafı məsələlərini geniş müzakirə etmişlər. Eləcə də Heydər Əliyevin sayəsində Azərbaycanla Küveyt arasında diplomatik əlaqələr 10 oktyabr 1994-cü ildə yaradılıb.

Azərbaycanla Misir arasındakı güclü diplomatik əlaqələrin mövcudluğu da məhz Heydər Əliyevin adı ilə bağlıdır. Misirin Qəlyubiyyə vilayətində bu ölkənin tarixində ilk dəfə olaraq Misir-Azərbaycan dostluğu parkı salınmış və Heydər Əliyevin abidəsi ucaldılmışdır.

Misir universitetləri ilə təcrübə mübadiləsi, tələbə və müəllim heyətinin doktorantura və magistratura pillələri üzrə təhsil imkanları mövcuddur.

Azərbaycandan bir çox tələbələr Misirin Qahirə, əl-Əzhər universitetlərində təhsil alırlar. Bu universitetlərdə yüzə yaxın misirli tələbə Azərbaycan dili və ədəbiyyatı fənnini öyrənir. Bu əlaqələrin inkişafında Bakıdakı *Misir Mədəniyyət Mərkəzi*nin də əhəmiyyətli rolu vardır. Burada bir sıra maraqlı tədbirlərin həyata keçirilməsi, ərəb dili kurslarının təşkil olunması, iki xalq arasında mədəni əlaqələrin inkişafına təsirsiz ötüşmür. Bu sətirlərin müəllifi də Mərkəzdə ərəb dili təhsili aldığından belə mədəni tədbirlərin bir neçəsində iştirak etmişdir. MƏR-in ölkəmizlə dostluq əlaqələrini Ümummilli Lider **Heydər Əliyev** yüksək qiymətləndiriərək demişdi: *"Mən məmuniyyətlə qeyd etmək istəyirəm ki, beynəlxalq təşkilatlarda MƏR Azərbaycana həmişə dəstək vermişdir".*

Bir sözlə, hal-hazırda da dünyanın 20 dən çox ərəb ölkəsindən MƏR, Suriya, Küveyt və s. kimi bir neçəsi ilə iqtisadi-siyasi, ədəbi-mədəni əlaqələr davamlı şəkildə Ümummilli Lider H.Əliyevin layiqli davamçısı cənab İlham Əliyev tərəfindən inkişaf etdirilməkdədir.

# UŞAQ ƏDƏBİYYATINDA AZƏRBAYCANÇILIQ MƏFKURƏSİ

**İlhamə Ağazadə**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*Uşaq ədəbiyyatı şöbəsi, f.ü.f.d.*
*iahmadova@inbox.ru*

Son illərdə ədəbiyyatda azərbaycançılıq məfkurəsinin müxtəlif aspektlərdən araşdırma obyektinə çevrilməsi, maraqlı elmi qənaətlərin yaranmasına səbəb olmuşdur. Azərbaycançılıq dünyagörüşünün təşəkkülü özünü ictimai təfəkkürün müxtəlif sahələrində göstərmişdir. Xalqı Vətən, dövlət, bayraq və milli ideya ətrafında birləşdirən vahid ideologiya haqqında vaxtilə Ulu öndər Heydər Əliyev deyirdi: "Biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq". Uşaq folklorunda, qədim və orta dövrə aid uşaq oxusu nümunələrində azərbaycançılığın ilk ünsürlərinin bəşəri məzmun, humanizm prinsipləri konteksində təzahürü, XIX əsrin sonu, XX əsrin əvvəllərində maarifçilik dalğası, ilk oxu kitabları, ana dilli dərsliklərin və uşaq mətbuatının meydana gəlməsi, Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli özünüdərk və vətənpərvərlik ideyasının təşəkkülü, sovet dövründə Azərbaycan mövzusunun ön plana çəkilməsi, milli-mənəvi dəyərlərə əsaslanan özünüdərk və istiqlalçılıq mərhələsində ənənə ilə müasir ədəbi prosesin dialektik əlaqəsi uşaq poeziyasında azərbaycançılığın dərkedilmə forma və mənbələrini, mahiyyətini aydınlaşdırır. Uşaq ədəbiyyatının əsas məqsədi kiçik yaşlı oxucuda humanizm, insanpərvərlik, vətənə sədaqət və sevgi motivləri təlqin etməkdir. Bütün dövrlərdə bu ruhda yaranmış nümunələr milli mənlik şüur və məfkurəsinin formalaşmasına təkan vermiş, milli birliyə, mədəni yüksəlişə ruhlandırmışdır. Vətən və millətin taleyini düşünərək özünüdərk edən mütəfəkkirlərin dəyərli irsi bu fikirləri deməyə əsas verir. Vətənə sevgini - vətənpərvərliyi kiçik yaşlardan uşaqların qəlbində alovlandırmaq lazımdır ki, müəyyən yaşdan sonra bu qisas yanğısına çevrilsin. Torpaqlarımızın azadlığı, bütövlüyü uğrunda şəhid olan oğullarımızı tanıtdırmaq, onların göstərdiyi qəhrəmanlığı təbliğ etmək ədəbiyyatımızın aktual mövzularından olmalı, bu barədə mümkün qədər çox yazılmalıdır. 44 günlük II Qarabağ müharibəsi zamanı misilsiz qəhrəmanlıqlar göstərmiş, qələbəni qanı ilə yazmış Vətən oğullarının döyüş ruhu, şücaəti, psixoloji durumu, yaşadıqları yaddaşlara həkk olunmalıdır.

Ədəbiyyat estetik zövq aşılamaqla işini bitmiş hesab etməməli, oxucudan - uşaqdan düşmənin kim olduğunu gizlətməməli, hər zaman ayıq-sayıq olmağı, ən əsas da unutqanlığın ağır nəticələrini göstərməlidir. Qorxmaz, vətənsevər müasir gəncliyi formalaşdırmaq, onlarda dövrə uyğun ruh yaratmaq ailə və məktəblə bərabər yazarların qarşısına da böyük məsuliyyət qoyur.

Ədəbiyyatımızda türkçülüyün - azərbaycançılığın təcəssümünü tapdığı ana dilimizə həsr olunmuş şeirlər çoxdur. Dövlətimizin əsas istiqamətləndirici məfkurəsinə xidmət edən bu şeirlərdə xalqın tarixi ilə birbaşa bağlı olan dilimizin adının mənşəyinə, təşəkkül tapıb formalaşmasına diqqət verilmişdir. Sənətkarlar dilin poetik imkanlarından istifadə edərək xalqın milli xarakterinə, ruhuna, tarixinə uyğun nümunələr yarada bilmişlər. Bütün bunlar onu deməyə əsas verir ki, dilimiz əsrlərin sınağından üzüağ çıxaraq bugünkü milli dil səviyyəsinə çatmış və bundan sonra da xalqımız var olduqca, ona xidmət göstərən ana dili də yaşayacaq, var olacaq. Xalqın dilini bilməyən millətin ruhuna, mənəviyyatına, tarixinə də biganə olar.

# ULU ÖNDƏR VƏ CAVAD HEYƏT

**Günay Verdiyeva**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*İran filologiyası şöbəsinin müdiri,*
*f.ü.f.d., dosent*

"Gərək nəbzin Vətənin nəbzi ilə vursun" – deyirdi Ümummilli lider.

Canı ilə, qanı ilə bu millətə, xalqa bağlı olan Ulu Öndər Heydər Əliyev bütün həyatı boyu xalqın ağır günlərində də vətəndaşlarının yanında, arxasında olub. Bu həm də Cənubi Azərbaycandan olan soydaşlarımıza aiddir. Heydər Əliyev hər zaman Təbriz, Ərdəbildə və digər şəhərlərdə yaşayan azərbaycanlıların vəziyyəti ilə maraqlanırdı.

Onlardan biri mərhum alim, həkim-cərrah, naşir Cavad Heyət idi. Heydər Əliyev Cavad Heyətə xüsusi rəğbət bəsləyirdi. Cavad Heyət çətin şəraitə baxmayaraq, İranda ana dilində "Varlıq" jurnalını çap etdirirdi. Doğrudur, bu jurnalda fars dilində də məqalələr çap olunurdu, amma üstünlük Azərbaycan dilində olan məqalələrə verilirdi. Cavad Heyət də, öz növbəsində, hər zaman Ulu Öndərin ana dilinə olan sevgisini hörmətlə vurğulayırdı.

Cavad Heyət deyirdi: "Xüsusilə qeyd etmək istəyirəm ki, sovetlər birliyi dövründə Azərbaycan dilinin qarşılaşdığı problemlər məni yeniyetmə yaşlarımdan narahat etməyə başlamışdır.

Ümummilli lider Heydər Əliyev birinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra totalitar sovet rejiminin amansız qadağalarına baxmayaraq, ana dilimiz dövlət dili kimi qəbul olundu. Bu, yüzillər boyu həllini gözləyən milli məfkurə məsələsi idi. Hələ rus dilinin hökmran olduğu sovet dövründə ümummilli lider Heydər Əliyevin Azərbaycan dilində saatlarla sərbəst və səlis danışması məni valeh edirdi. Mən həmişə düşünmüşəm ki, ana dilini sevmədən onu dərindən mənimsəmək olmaz.

Heydər Əliyev, sözün əsl mənasında, ana dilimizə tükənməz məhəbbəti ilə hamımıza örnək olmuşdur".

Ulu öndərlə ilk görüşü zamanı Cavad Heyət çox təsirləndiyini bildirmişdi. Heydər Əliyev onu tez-tez Azərbaycana gəlməyə dəvət etmiş və burada tibbi və elmi fəaliyyət ilə məşğul olmağa sövq etmişdir. Bu görüşdə Ulu öndər hətta Cavad Heyətə irad da tutmuşdu. Heydər Əliyev gülümsəyərək qeyd etmişdi: "Cavad bəy, mən bir neçə il idi ki, Naxçıvanda idim, sən niyə mənimlə görüşməyə gəlmədin? Bu iradı gözləmirdim, çox xəcalət çəkdim, açığını deməyi doğru saydım. Dedim ki, möhtərəm Heydər bəy, orada bizlər Sizi əvvəllər əmniyyət generalı və kommunist kimi, sonra da Şuravinin başında duran yüksək şəxslərdən biri kimi tanıyırdıq. Əgər Sizin bu qədər milli, azərbaycançı olduğunuzu, eyni zamanda mənim şəxsimi və fəaliyyətimi bildiyinizi zənn etsəydim, Sizinlə görüşmək üçün Tehrandan Naxçıvana dizin-dizin sürünüb gələrdim". Bu görüşün təfərrüatı haqqında Cavad Heyət sonralar şəxsən o zaman Tehranda diplomatik xidmətdə olan tarixçi-alim Eynulla Mədətliyə danışmışdı.

Heydər Əliyev zəkası, dühası indi də bütün azərbaycanlılar üçün örnəkdir.

# HEYDƏR ƏLİYEV İRSİNƏ TARİXİ BAXIŞ

**Əfşan Şəfiyeva**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq*
*İnstitutunun İran tarixi və iqtisadiyyatı*
*şöbəsinin aparıcı elmi işçisi, t.ü.f.d., dosent*
*afshanshafiyeva@yahoo.com*

XX əsr Azərbaycan tarixində mühüm rol oynamış Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev geniş və çoxşaxəli fəaliyyəti ilə dövlətimizin ictimai-siyasi həyatında əsaslı dönüş yaratmışdır. Heydər Əliyev irsinin tədqiqi, onun elmi-nəzəri təhlili Azərbaycan tarixinin ayrı-ayrı məsələlərinin öyrənilməsi  baxımından çox mühüm elmi və ictimai-siyasi əhəmiyyətə malikdir.

1993-cü ildə Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışından sonra ölkənin bir çox sahələrində aparılan islahatlar elm və təhsil sahəsinə də şamil edilmişdi. Ümummilli liderin geniş siyasi fəaliyyətində diqqət ayırdığı məsələlərdən biri də Azərbaycan tarixinin yenidən tədqiq olunması idi.

Azərbaycan tarixinin yenidən araşdırılması məsələsini Naxçıvan MR Ali Məclisinin Sədri olduğu dövrdə, eləcə də Azərbaycan Prezidenti işlədiyi illərdə qaldıran Ulu Öndər XX əsrin sonunda Azərbaycan ərazisinin Ermənistan tərəfindən zəbt edilməsi, münasibətlər probleminin yeni aspektdən təhlili, onun səbəb və köklərinin dərindən araşdırılması, milli tarixşünaslıqda Ermənistan-Azərbaycan münasibətləri mövzusu aktuallaşdığından Azərbaycan tarixinin bir çox problemlərinin yenidən tədqiq edilməsinə göstəriş vermişdi.

Heydər Əliyevin irsi Azərbaycan tarixini təhlil edən dəyərli fikirlərlə, yeni elmi əsərlər üçün zəmin yaradacaq ideyalarla olduqca zəngindir. Ulu Öndərin Azərbaycan tarixi konsepsiyası, dövlət quruculuğu kontekstində məhz tarixə istinad etməsi onun irsinin əsas meyarlarından biridir. Heydər Əliyevin elmi əsaslara söykənən hər bir çıxışı, bəyanatı, nitqləri, müsahibələri, məruzələri Azərbaycan tarixi üçün həm də elmi qaynaqdır.

Zəngin həyat yolu keçmiş Heydər Əliyevin geniş fəaliyyəti tarixi, sosioloji, politoloji, fəlsəfi elmi yanaşma aspektlərindən geniş təhlil olunmuş, bu barədə çoxsaylı əsərlər qələmə alınmışdır. Bu baxımdan müasir milli ictimai elmi düşüncəmizdə Əliyevşünaslıq xüsusi bir istiqamət olaraq formalaşmışdır.

Heydər Əliyev müasir Azərbaycan dövlətinin memarı olmaqla yanaşı, həm də Azərbaycan tarix elminin böyük nəzəriyyəçisi idi. Heydər Əliyev çoxşaxəli elmi intellektual fəaliyyəti ilə milli tarix elmini zənginləşdirmiş, onun başlıca problemləri və qarşıda duran vəzifələri ilə bağlı konseptual fikirlər irəli sürmüşdür. Hazırda və gələcəkdə Azərbaycan tarix elminə yeni ideyalarla istiqamət verən Heydər Əliyev məktəbi tarixçilər qarşısında geniş imkanlar açır.

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCANIN ƏRƏB ÖLKƏLƏRİ İLƏ DİPLOMATİK MÜNASİBƏTLƏRİ (1993-2003-cü illər arasında)

**Elnur Mustafayev**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu,*
*Din və ictimai fikir şöbəsinin müdiri, fəl.ü.f.d.*
*elnur.mustafayev88@mail.ru*

Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün tarixi fürsət əldə etmiş oldu. Belə bir şəraitdə milli dövlətçilik prinsiplərinə uyğun olaraq yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsi ən vacib məsələ kimi qarşıda dururdu. Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə Dağlıq Qarabağda başlayan erməni separatizmi, eləcə də hərbi təcavüzün genişlənməsi ölkəmizi ciddi siyasi və iqtisadi problemlərlə üz-üzə qoymaqla yanaşı, dövlətimizin xarici siyasət fəaliyyətində də mühüm vəzifələrin yerinə yetirilməsini ön plana çəkdi. Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün qarşısını almaq, onun ağır nəticələrini aradan qaldırmaq, dövlətimizin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünyaya siyasi və iqtisadi inteqrasiya olunmaq zərurəti düşünülmüş, ardıcıl və fəal xarici siyasət tələb edirdi.

1993-cü ilin ikinci yarısında Ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Beləliklə, yenicə müstəqillik qazanmış gənc Azərbaycan dövləti önündə müsəlman dövlətlərinin həmrəyliyi, maddi və mənəvi köməyi üçün ümidverici geniş imkanlar açıldı. İƏT, o cümlədən ərəb dünyasımn nəhəngləri olan Səudiyyə Ərəbistanı, Misir Ərəb Respublikası, İraq, müsəlman dünyasının liderləri olan İndoneziya, Pakistan, Malayziya və başqa dövlətlərlə də qardaşlıq və dostluq əlaqələri qurmaq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri kimi Prezident Heydər Əliyev tərəfindən müəyyənləşdirildi.

# AZƏRBAYCANIN ORTA ƏSR TARİXİ MƏSƏLƏLƏRİ HEYDƏR ƏLİYEV İRSİNDƏ

**Şahlar Şərifov**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Azərbaycanın VII-XIV əsrlər tarixi şöbəsinin aparıcı elmi işçisi, dosent*
*shahlarsharifov@gmail.com*

Azərbaycan tarixinin dərindən araşdırılması, tarixi dəyərlərimizin qorunması, tədqiq olunması, sonrakı nəsillərə çatdırılması Azərbaycan tarix elmində ən aktual məsələlərdən hesab olunur. Çünki tarixi, milli və mənəvi dəyərlərimizin xalqın və milli dövlətçiliyimizin formalaşmasında böyük rolu vardır. Hər bir xalqın və dövlətçiliyin mövcudluğunun əsas amillərindən biri olan tarixi dəyərlər onun ən qiymətli sərvəti hesab olunur.

Tarixi dəyərlərimizi müqəddəs bilərək ona sahib çıxan hər bir azərbaycanlı, qarşıya çıxan bütün çətinliklərə baxmayaraq, onu qoruyaraq günümüzə qədər gətirib çıxara bilmişdir. Bu, eyni zamanda milli ruhun simvolu olaraq tarixi yaddaşın formalaşması deməkdir. Müstəqilliyin yenidən əldə edilməsindən sonra tarixi, dini və milli-mənəvi dəyərlərimizin formalaşması üçün yeni şərait yaranmışdır. Bu baxımdan Heydər Əliyev də Azərbaycan tarixinə, xüsusilə Azərbaycanın orta əsrlər tarixinə diqqət və qayğı ilə yanaşmışdır.

Sovetlər dövründə Azərbaycan tarixinin müəyyən qədər tədqiq edilən dövrü orta əsrlər dövrü olmuşdur. Buna baxmayaraq, tədqiqat əsərlərində bir çox hallarda tarixi həqiqətlər ört-basdır edilirdi. Bunları nəzərə alan Heydər Əliyev qətiyyətlə Azərbaycan tarixinin orta əsrlər dövrünün araşdırılmasını, orta əsrlərə aid tarixi abidələrimizin qorunmasını və sonrakı nəsillərə çatdırılmasını vacib məsələlərdən biri olaraq vurğulayırdı. Heydər Əliyevin sözləri ilə desək, müstəqillik əldə edən dövlət, müstəqil siyasət aparmaq istəyirsə, ilk növbədə, öz tarixindən xəbərdar olmalıdır. Bunu orta əsrlərdə mövcud olan Azərbaycan dövlətləri də sübut etmişdir.

Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə gördüyü mühüm işlərdən biri "Kitabi-Dədə Qorqud" əsərinə göstərdiyi diqqət və qayğı olmuşdur. Məhz onun 1997-ci il aprelin 20-də imzaladığı fərmanla "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi keçirilmişdir. Onun verdiyi bu tarixi qərarla sovetlər dövründə uzun müddət pantürkizm damğası vurularaq qadağan olunmuş "Kitabi-Dədə Qorqud" yenidən azərbaycanlıların istinad etdiyi əsas mənbələrdən birinə çevrilmişdir.

Heydər Əliyev irsində təkcə orta əsr mənbələri deyil, eyni zamanda bu dövrdə yaşamış azərbaycanlı şəxsiyyətlərə də önəm verilirdi. Bu şəxsiyyətlərdən Cavanşiri, Babəki, Qara Yusifi, Cahan Şahı, Qara İsgəndəri, Məhəmməd Cahan Pəhləvanı, Qızıl Arslanı, Nizamini, Uzun Həsəni, Füzulini, Şah İsmayılı, Şah Abbası və s. qeyd edə bilərik. Qeyd etdiklərimizdən məlum olur ki, Azərbaycanda tarix boyu mövcud olan tarixi abidələrin bərpası və qorunaraq sonrakı nəsillərə çatdırılması Heydər Əliyevin irsində önəmli məsələlərdən biri olmuşdur.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFI

**Lalə Mikayılzadə**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu,*
*aparıcı elmi işçi, ped.ü.f.d.*
*lala-mak70@mail.ru*

*Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir.*
*O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır.*
*Heydər Əliyev*

Ulu Öndər Heydər Əliyev təhsil siyasətinə həmişə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşıb. Bu istiqamətdə həyata keçirilən islahatlar təhsilin bütün mərhələlərini, pillələrini və maddi-texniki bazasını əhatə edib. Heydər Əliyevin 70-ci illərdə rəhbərliyi dövründə Azərbaycanda aparılan təhsil islahatları Azərbaycan təhsilinin gələcək inkişafına zəmin yaratdı. Heydər Əliyev hələ 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarların icrası nəticəsində respublikada orta məktəb şəbəkəsi genişləndirildi, əsaslı keyfiyyət dəyişikliyinə nail olundu. Eyni zamanda məktəblərin dərsliklərlə təminatı problemi həll edildi və 1978-ci ildən etibarən şagirdlərə dərsliklərin pulsuz verilməsinə başlanıldı".

70-ci illərdə təhsilin inkişafına xüsusi diqqət məktəblərin tikintisində də özünü göstərirdi. Onun rəhbərliyinin birinci dövründə peşə məktəblərinin də sayı artdı. Həmçinin Ulu Öndərin təhsil siyasətində ali təhsil ocaqlarının fəaliyyətinin daha da yaxşılaşdırılması, həmin təhsil ocaqlarının maddi texniki bazasının möhkəmləndirilməsi əsas yer tuturdu. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982- ci illərdə Azərbaycanda beş yeni ali təhsil ocağı açıldı.

Ulu Öndərin təşəbbüsü sayəsində neçə-neçə gənc SSRİ-nin nüfuzlu ali məktəblərinə oxumağa göndərildi. Həmin gənclər Azərbaycan üçün çox vacib olan ixtisaslar üzrə təhsil alırdılar və respublikamıza bacarıqlı mütəxəssislər kimi qayıdırdılar. Bu da ovaxtkı dövrdə respublikanın milli kadr potensialının daha da təkmilləşməsində, gücləndirilməsində mühüm rol oynadı.

Heydər Əliyev təhsilə həmişə prioritet sahə kimi baxırdı. Azərbaycana rəhbərliyinin ikinci dövründə 1993-2003-cü illərdə də bu sahənin fəaliyyətinin yüksəldilməsinə xüsusi diqqət göstərib. Bu illərdə Azərbaycanın təhsil sistemi təkmilləşdirilib və təhsilimizin dünya təhsil sisteminə inteqrasiyası üçün geniş imkanlar yaradılıb. Çox sayda məktəb binaları tikilərək istifadəyə verilib, yeni dərsliklər hazırlanıb şagird və tələbələrin ixtiyarına verilib. Təhsil üzrə müxtəlif proqram və layihələr hazırlanaraq uğurla həyata keçirilib.

Müdrik dövlət xadimi Heydər Əliyevin parlaq ideyaları bu gün Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirilir. Son illər ölkəmizdə təhsil sahəsində həyata keçirilən dövlət proqramları, islahatlar, layihələr, bu sahəyə böyük töhfələr verib və verir.

# H.ƏLİYEVİN MÜSTƏQİL AZƏRBAYCAN GƏNCLƏRİNƏ QAYĞISI VƏ MÜDRİK TÖVSİYƏSİ

**Bəşarət Bəşirova**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Türkiyənin tarixi və iqtisadiyyatı şöbəsinin böyük elmi işçisi, t.ü.f.d.*

Məqaləmizdə Ulu Öndərimizin mənəvi, milli sərvətlərimizin, sənətkarlığın qayğıkeşi kimi, elmi ixtiraların, bədii inkişafın və bunların yaradıcısı olan ünlü, istər klassik, istərsə də müasir elm adamlarına – gənclərə qayğı və diqqət göstərməklə, özünün bilavasitə mənəvi sərvətlərimizin qoruyucusu və varisi olduğu qənaəti təsdiq edilir.

O, klassiklərdən yalnız öyrənməyi deyil, hər şeydən öncə onların yaradıcılığının gələcək nəsillər üçün saxlanmasını tövsiyə etməkdədir. Bunun üçün klassikləri yalnız nəşr və təbliğ etmək deyil, onun bədii imiclərini yaratmaq məsələlərini araşdırma hədəfinə çevirərək elmi əsərlər yazmağın, çağdaş ədəbiyyatşünaslıq baxımından zəruri olduğunu dönə-dönə qeyd edir. “Əgər bu işlər yerinə yetirilməzsə, onlar tədricən yaddaşlardan silinib gedəcək və beləcə kültürümüzü, tariximizi, dövrün amansız, acımasız təkərləri altına salıb, laqeydliyimiz və biganəliyimiz üzündən undacağıq”, – deyə narahatlıqla qeyd edirdi. Bu məsələlərə böyük diqqət verən Ulu Öndər müstəqil Azərbaycan gənclərinin I Forumunda demişdir: “Gənclərimiz bizim tariximizi, milli dəyərlərimizi, yaxşı bilməlidir, milli adət-ənənələrimizi, gerçək tariximizi yaxşı bilməyən gənc heç bir vəchlə vətənpərvər ola bilməz”.

Məqalədə, eyni zamanda H.Əliyevin, Gənclərin I Forumunda 2 fevral gününü (2 Fevral 1996) Gənclər günü elan etməsindən, II Forumunda (1 Fevral 1997), öz nitqində gənclərin vətənpərvər ruhda tərbiyə edilib yetişməsindən, müstəqil Azərbaycanda müstəqil ordu yaradılmasından bəhs edərək, bütün bu məsələlərin həllini, təşkilini hakimiyyət və müxtəlif dövlət orqanlarının qarşısında günün vacib məsələsi kimi qaldırdığından bəhs edilir.

# VAR MİLLƏTİMİN İMZASI İMZALAR İÇİNDƏ

**Aybəniz Həsənova**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun İran filologiyası şöbəsinin aparıcı elmi işçisi, f.ü.f.d.*

Azərbaycan romantizmin tanınmış nümayəndələrindən biri, Məhəmməd Hadi "Bir əməlim" şeirində "İmzasını qoymuş miləl övraqi-həyatə "Yox millətimin xətti bu imzalar içində" yazmışdır.

Azərbaycan milli tarixində xüsusi yeri olan, müstəqil Azərbaycanın memarı, üzaqgörən, qətiyyətli siyasətçi, iqtisadiyyatın, mədəniyyətin, elmin inkişafında əvəzsiz xidmətləri olan Ulu Öndər gördüyü işlərlə göstərdi ki, var millətimin imzası imzalar içində.

Heydər Əliyevin Azərbaycan xalqına, onun dilinə, adət-ənənəsinə münasibəti sonsuz olmuşdur. Heydər Əliyev Azərbaycan dili haqqında yazırdı: "Millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz". Dövlət dilimiz, ana dilimiz – Azərbaycan dili ölkəmizdə hakim dildir. Nəinki azərbaycanlılar, respublikamıza xaricdən gələn qonaqlarımız, dostlarımız, həmkarlarımız da bu dilə hörmət edirlər, bu dili öyrənmək, bu dildə danışmaq istəyirlər. Bu, çox sevindirici haldır. Bu, eyni zamanda müstəqil respublikamızın əsas atributlarından biri olan Azərbaycan dilinin inkişaf etdiyini göstərir. 12 noyabr 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasına – Azərbaycan dövlətinin Əsas qanununa dövlət dili haqqında ayrıca maddənin daxil edilməsi Heydər Əliyevin uzaqgörənliyinin nəticəsidir Ulu Öndərin öz millətinə, onun dilinə sevgisi əvəzedilməzdir. Onun 2002-ci ildə imzaladığı "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu canlı sübutdur. Bütün göstərilənlərlə yanaşı, Ulu Öndərin öz millətinə, dilinə sevgisi sonsuz olmuş, Azərbaycanın dünya arenasında qüvvətli dövlətə çevrilməsi üçün əlindən gələni etmişdir. H.Əliyev göstərirdi ki, Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan dilini əbədi edibdir və bu gün dilimiz yaşayır və yaşayacaqdır. Qoy Azərbaycan dili müstəqil Azərbaycanda, eləcə də dünyada yaşayan bütün azərbaycanlıların dili olsun! İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu onun müqəddəs vətəndaşlıq borcudur. Bu millət xoşbəxtdir ki, onun Ulu Öndərimiz kimi fenomen yaddaşa, işıqlı təfəkkürə, geniş dünyagörüşünə malik, vətənini, millətini sevən dövlət başçısı olmuşdur. Bu gün də Azərbaycan dövləti etibarlı əllərdədir. Heydər Əliyevin şah əsəri, atasının layiqli davamçısı İlham Əliyev Azərbaycanı ləyaqətlə idarə edir. Ölkənin çiçəklənməsi bütövlüyü uğrunda yorulmadan çalışır. Bu gün qürur hissi ilə hər bir azərbaycanlı deyə bilər ki, "var millətimin imzası imzalar içində".

# HEYDƏR ƏLİYEV FENOMENİ VƏ
# "AZƏRBAYCANÇILIQ FƏLSƏFƏSİ"NİN ELEMENTLƏRİ

**Ələddin Məlikov**
*AMEA Fəlsəfə və Sosiologiya*
*İnstitutunun aparıcı elmi işçisi,*
*fəl.ü.f.d., dosent*
*https://orcid.org/0000-0001-5830-6764*
aladdin.malikov@mail.ru

Fəlsəfəyə tarixən müxtəlif baxışlar olmuşdur. Fəlsəfənin bir elm olaraq öyrənilməsi və öyrədilməsi əsas istiqamət olsa da, bundan daha mühüm sual fəlsəfənin öyrənilməsinin nəyə xidmət etməsidir. Filosofların yekdilliklə verdiyi cavab budur ki, fəlsəfənin öyrənilməsi həqiqətin üzə çıxmasına yardımçı olmalıdır. Bəli, bəs həqiqət haradadır? Bunun cavabında müxtəlif fikirlər mövcuddur. Bəziləri fəlsəfənin nəticə və perspektivini poeziyada görür və qeyd edirlər ki, poeziya fəlsəfənin çiçək açmasıdır. Digərləri fəlsəfəni ilahiyyatın inkişafındakı rolunda görür. Başqa bir qrup da var ki, fəlsəfənin xidmətini dövlətçilik və insan həyatının praktiki işlərində görür. Heydər Əliyev bu baxış bucaqlarına əsaslanaraq "azərbaycançılıq fəlsəfəsi"ni ortaya qoydu. Heydər Əliyevin "azərbaycançılıq fəlsəfəsi" Azərbaycan xalqını birləşdirməyə, müstəqilliyin qorunmasına, respublikaçılıq ənənəsinin inkişafına, hüquqi və sosial dövlətin qurulmasına xidmət etməkdən ibarət idi. Heydər Əliyev 9 noyabr 2001-ci ildə Dünya Azərbaycanlılarının I Qurultayında "azərbaycançılıq fəlsəfəsi"nin prioritet istiqamətlərini belə nəzərə çatdırmışdır:

"Müstəqil Azərbaycan dövlətinin əsas ideyası [fəlsəfəsi] azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" (Heydər Əliyevin 2001-ci ildə Dünya Azərbaycanlılarının I Qurultayındakı çıxışından).

"Azərbaycançılıq fəlsəfəsi" milli birlik və həmrəyliyin möhkəmləndirilməsi, dünya azərbaycanlılarının diaspor şəklində təşkilatlanması və öz maraqlarını, hüquqlarını, azərbaycançılıq ideyallarını beynəlxalq miqyasda müdafiə etmələri üçün strateji proqramdır.

Bu fəlsəfəni ərsəyə gətirən, inkişaf etdirən və bir fəlsəfi hərəkat kimi formalaşdıran məhz Heydər Əliyevdir. Amma bunun gerçəkləşməsi üçün Heydər Əliyevin gördüyü işləri və fəaliyyətini işıqlandırmağı, faktları ortaya qoymağı zəruri hesab edirik.

"Azərbaycançılıq fəlsəfəsi" sahəsində Heydər Əliyevin uzaqgörən strateji fəaliyyətləri həddən ziyadə çoxdur. Onlardan bəziləri aşağıdakılardır:
-Strateji plan olaraq Azərbaycan dili;

-Mədəniyyətin inkişafı;

-Çox sayda memarlıq abidəsinin bərpası;

-Böyük filosoflar, şair və ədiblərin yubileylərinin müntəzəm surətdə qeyd olunması;

-SSRİ dövründə Azərbaycan mədəniyyətinin ümumittifaq miqyasında ön mövqelərə çıxarması;

-Azərbaycanlı alim və incəsənət adamlarına sahib çıxması və onları təbliğ və təqdim etməsi;

-Milli-mənəvi dəyərlərin və adət-ənənələrin qorunub saxlanması;

-Qəhrəmanlıq eposu olan “Kitabi-Dədə Qorqud”-un ərsəyə gətirilməsi və irsinin öyrənilməsi;

-Hüseyn Cavidin xatirəsinin əbədiləşdirilməsi, işgəncələrə məruz qalmış H.Cavidin qərib məzarının uzaq Sibirdən gətirilməsi və məqbərəsinin təntənəli açılışı.

# AZƏRBAYCAN - MİSİR ƏMƏKDAŞLIĞININ BANİSİ

**Xanımzər Kərimova**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu,*
*aparıcı elmi işçi, f.ü.f.d., dosent*
*x.asadova@hotmail.com*

Hər bir xalqın böyüklüyü onun sayı, kəmiyyəti, sərvəti və zənginlikləri ilə deyil, dünya sivilizasiyasına bəxş etdiyi dühalarla ölçülür, məhz Azərbaycan xalqının da dühası unudulmaz şəxsiyyət Heydər Əliyevdir. Onun diplomatik və siyasi fəaliyyəti həm dünənki tariximiz, həm bu günümüz, həm də işıqlı gələcəyimizdir. Onun dünya siyasətindəki mövqeyi, rolu və məharətlə apardığı xarici və daxili siyasəti nəticəsində biz zamanın çətin sınaqlarından çıxa və müstəqilliyimizi, dövlətçiliyimizi qoruya bilmişik. H.Əliyevin hakimiyyətə gəlməsi nəticəsində dövlətimiz bir sıra beynəlxalq təşkilatlara, birlik və ittifaqlara üzv seçildi, sayılan beynəlxalq forumlara dəvətlər aldı, xarici ölkələrlə həm iqtisadi-siyasi əlaqələrimiz, həm də elmi və mədəni əlaqələrimiz günü-gündən inkişaf etməyə başladı. H.Əliyevin bənzərsiz siyasətinin biri də Azərbaycanın Şərq ölkələri ilə qurulan qarşılıqlı diplomatik əlaqələrindən biri olan Azərbaycan-Misir əlaqələridir. Misir ilə Azərbaycan arasındakı əlaqələr dərin tarixi köklərə malikdir. Qeyd edək ki, Misir Ərəb Respublikası ilə əlaqələrimiz Ulu Öndərin 1994-cü ilin sentyabr ayında bu ölkəyə etdiyi səfərlə başlamışdır. Onun 1994-cü ildə Misirə səfəri ilə iki dövlət arasında münasibətlərin yeni səhifəsi açılmış, Azərbaycanla Misir arasında münasibətlərin möhkəmləndirilməsi və əməkdaşlığın yeni perspektivlərinin müəyyənləşdirilməsi istiqamətində çox mühüm məsələlər müzakirə edilmişdir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Misir 1991-ci il dekabrın 26-da ölkəmizin müstəqilliyini tanıyıb və 1993-cü ildə qarşılıqlı diplomatik əlaqələrin yaradılması haqqında protokola əsasən, Misirin Bakıda, 1994-cü ilin yanvarında isə Azərbaycanın Qahirədə səfirlikləri açılıb. Misir Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzi 1999-cu ilin avqustundan Azərbaycanda fəaliyyətə başlayıb. Əsas məqsəd ərəb mədəniyyətinin, ədəbiyyatının bu ölkədə tanıdılması, hər iki dövlət arasında mədəni-elmi əməkdaşlıq yaratmaqdır. Ulu Öndərin bu əlaqələrin inkişafı üçün yürütdüyü siyasətin nəticəsi olaraq 2005-ci il Misirdə Azərbaycan və 2006-cı il Azərbaycanda Misir Mədəniyyəti Günləri keçirilib. Siyasi və iqtisadi münasibətlərlə yanaşı, iki ölkə arasında təhsil, mədəniyyət, turizm sahəsində də əlaqələrin dinamik inkişafı müşahidə olunur. Misir Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzi 1999-cu ilin avqustundan Azərbaycanda fəaliyyətə başlayıb. Bu gün Misirin Qalubiyyə vilayətində Azərbaycan - Misir dostluq parkının yaradılması və Heydər Əliyevin abidəsinin ucaldılması bir daha Ulu Öndərin hər iki dövlət arasında möhkəm əlaqələrinin qurulmasının bənzərsiz siyasətinin nəticəsi olduğunu sübut edir. Təsadüfi deyil ki, Azərbaycan xalqının Ümummilli lideri H.Əliyevi Misir Ərəb Respublikası ilə Azərbaycan Respublikası arasındakı əlaqələrin, əməkdaşlığın banisi adlandırırlar.

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN XALQI ÜÇÜN İRƏLİ SÜRDÜYÜ STRATEGİYA GƏNC NƏSLİN GÖZÜ ÖNÜNDƏ REALLIĞA ÇEVRİLİB

**Günel Məlikli**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun*
*şöbə müdiri, s.ü.f.d., dosent*

Ölkəmizin hazırkı nailiyyətləri, müstəqilliyimizin daha da möhkəmlənməsi Heydər Əliyev kursunun, azərbaycançılıq ideyasının uğurla reallaşdırılmasının bəhrəsidir. Bu gün fəxrlə deyirik ki, təlatümlü bir dövrdə respublikamızı parçalanmaq təhlükəsindən qurtaran, onu inkişaf etdirən, beynəlxalq aləmdə tanıdan, nüfuz qazandıran məhz Ulu öndər Heydər Əliyev olub. Bu gün daha çox Ulu öndər Heydər Əliyevin müstəqillik dövründə Azərbaycan Respublikasına rəhbərliyi zamanı gördüyü işlərdən geniş bəhs edilir. Ancaq unutmaq lazım deyil ki, dövlətçilik tariximizin özünəməxsus bir həlqəsi olan Sovet dövründə də bu böyük siyasətçi və dövlət xadimi, milli inkişafımız baxımından əvəzolunmaz nailiyyətlərə imza atmışdır. Ulu öndər Heydər Əliyev fundamental strateji tədbirlər görməklə davamlı və nizamlı inkişafı təmin etməyi bacardı. Sürətli sənayeləşmə kursu seçildi və qısa zaman kəsiyində sənaye sahəsinin inkişafında mühüm irəliləyişlər qeydə alındı. Ulu öndər Heydər Əliyevin xüsusi diqqət və qayğısının fonunda kadr potensialının formalaşdırılması və təkmilləşdirilməsi istiqamətində azərbaycanlı gənclər SSRİ miqyasında fəaliyyət göstərən ali təhsil müəssisələrinə göndərildilər. 1978-ci ildə Heydər Əliyevin cəhdləri və təşəbbüsü sayəsində Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir" maddəsi daxil edildi. Bu, milli dilimizin mühafizəsi və təbliği baxımından mühüm tarixi hadisə idi. Bunun ardınca "Müasir Azərbaycan dili" və "Azərbaycan dili" dərslikləri hazırlandı.

Müstəqilliyin ilk illərində Azərbaycan çox ciddi problemlərlə üzləşdi və sistematik strategiyanın həyata keçirilməməsi nəticəsində kataklizmlər iqtisadi, siyasi, sosial, hüquqi və digər sahələri iflic etdi, ölkədə vətəndaş müharibəsi, separatizm təhlükəsi artdı. Ulu öndər ölkədə sabitliyi bərpa etdi, sosial-iqtisadi tənəzzülün qarşısını aldı, müstəqilliyin əsaslarını möhkəmləndirmək istiqamətində addımlar atdı. Azərbaycan xalqı, onun qabaqcıl dairələri, ziyalılar, elm, mədəniyyət xadimləri yaranmış böhranlı vəziyyətdən çıxış yolunu, ölkənin etibarlı gələcəyini dünyaşöhrətli dövlət xadimi Heydər Əliyevin simasında görür və bütün ümidlərini bu görkəmli şəxsiyyətlə bağladı.  Milli həmrəylik və bütövlük yarada biləcək ideologiya isə yalnız 1993-cü ildəki siyasi dönümdən sonra müəyyənləşdirildi.

Cənab Prezident İlham Əliyev prezident seçiləndən sonra Heydər Əliyevin siyasi kursunu davam etdirəcəyini və bunu əməli surətdə həyata keçirməsini bəyan etməsi ilə hər bir Azərbaycan vətəndaşının arzusunu reallaşdırdı. Heydər Əliyevin siyasi kursunun davam etdirilməsi isə, ilk növbədə, əldə edilən uğurların daha da çoxalması, dövlətçiliyimizin əbədiliyi deməkdir.

# ULU ÖNDƏRİN HƏMKARLAR İTTİFAQLARINA DÖVLƏT QAYĞISI

**Zeynəddin Şabanov**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, fəl.ü.f.d., dosent*

Ulu öndər Heydər Əliyevin fundamental əsaslara söykənən dövlətçilik siyasəti çox dərin və hərtərəfli olmuşdur. Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin unikal idarəetməsinin əsasında Azərbaycan əhalisinin rifahının yaxşılaşması, iqtisadi və sosial sahədə inkişafın təmin edilməsinə böyük diqqətin yetirilməsi durmuşdur. Dahi şəxsiyyət istər 1969-1982-ci illərdə, istərsə də 1993-2003-cü illərdə Azərbaycanın bütün bölgələrində olarkən, ilk növbədə, sadə əmək adamları ilə görüşür, yerli orqanların, sıravi vətəndaşların həyat tərzi, onların sosial rifahı ilə necə məşğul olmaları ilə dərindən, hərətərfli maraqlanırdı.

Təcrübəli dövlət başçısı həmkarlar ittifaqlarının vətəndaşların ictimai fəallığının artırılmasındakı rolunu çox gözəl bilirdi. H. Əliyev istər sovet rejimində, istərsə də müstəqillik illərdə bütün istedadı və bacarığı ilə xalqına xidmət etmiş, cəmiyyətin ümumi inkişafını özünün «islahatçılıq layihəsinin» başlıca prinsipi saymışdır. Onun Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illər həmkarlar ittifaqları üçün yeni inkişaf mərhələsi olmuşdur. Tanınmış siyasətçi Azərbaycan dövlətçiliyinin ən mühüm sosial institutlardan biri kimi həmkarlar ittifaqlarının cəmiyyətin ictimai-siyasi həyatında, zəhmətkeşlərin əmək hüquqlarının qorunmasında müstəsna rolunu həmişə qeyd etmişdir.

Ulu öndər hakimiyyətinin ilk günlərindən həmkarlar ittifaqlarının fəaliyyətinə xüsusi diqqət yetirmişdir. O, Həmkarlar İttifaqının üzvü olması faktı ilə fəxr etdiyini bildirmişdir. Ulu öndərin sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə Azərbaycan Həmkarılar İttifaqı Şurası, həmkarlar ittifaqlarının respublika komitələri zəhmətkeşlərin maddi-rifah halının yaxşılaşması işində səmərəli fəaliyyət göstərir, iş yerlərində insanların hüquq və mənafelərinin qorunması üçün zəruri tədbirlər həyata keçirir, nəzarəti gücləndirirdilər. Həmin dövrdə zəhmətkeşlərin dincəlməsi və istirahət etməsi üçün kurortların, sanatoriyaların sayı artmış, sağlamlıq obyektləri, yeni xəstəxanalar tikilib istifadəyə verilmişdi.

Ulu öndər ikinci dəfə ölkə rəhbərliyinə qayıtdıqdan sonra da həmkarlar ittifaqlarına qayğı ilə yanaşmışdır. H.Əliyev Həmkarlar ittifaqları orqanlarına kadrların seçilməsi, yerləşdirilməsi və tərbiyə edilməsini işinin yaxşılaşdırılmasını bir vəzifə kimi irəli sürür və bu məsələyə diqqətlə yanaşırdı. Bunun nəticəsində həmkarlar ittifaqı sədri seçilərkən bacarıqlı, nüfuz sahibi olan, kollektivdə hörmət qazanmış, təşkilatçılıq qabiliyyəti yüksək olan işçilərə üstünlük verilməyə başlandı. H.Əliyevin rəhbərliyi altında "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanunu 24 fevral 1994-cü ildə qəbul olunmuşdur. Ulu öndər yeni yaranmış Azərbaycan Həmkarlar İttifaqları Konfedarasiyasının problemləri ilə maraqlanmış, iş fəaliyyətini düzgün qurmaq üçün əməli təkliflər vermiş və bu zaman dövlət qayğısını əsirgəməmişdir. Beləliklə də, həmkarlar ittifaqlarının həyatında yeni mərhələ başlamışdır.

# HEYDƏR ƏLİYEVİN ŞƏRQ-QƏRB MÜNASİBƏTLƏRİ PRİZMASINDAN DİNLƏRARASI DİALOQUN İNKİŞAFININ GERÇƏKLƏŞDİRİLMƏSİNDƏ TARİXİ ROLU

**Ceyhun Ağayev**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu, Şərq-Qərb*
*şöbəsinin böyük elmi işçisi, f.ü.f.d.*
*ceyhun.sakiroglu@mail.ru*

Şərq və Qərb vəhdəti fonunda gedən iqtisadi, siyasi proseslər, xüsusilə bu iki qütb arasında sivilizasiyanın möhkəmlənməsi, dinlərarası dialoqun bərqərar olması vacib bir məsələdir. Əsrlər boyu dünya siyasi sisteminə hakim olan hərbi və iqtisadi təməllər üzərində bina edilən ənənəvi siyasi düşüncə tərzi dövlətlərarası münasibətlərin tənzimlənməsində başlıca struktur olaraq qəbul edilmişdir. Lakin XX əsrin II yarısından etibarən dünya siyasi sistemində ənənəvi strukturlarla yanaşı, yeni təcrübə metodları da ortaya çıxdı. Bu metodlar arasında milli, mənəvi, tarixi, mədəni qaynaqlara əsaslanan "dinlərarası dialoq" strukturu dövlətlərarası münasibətlərin formalaşmasında mühüm yer tutmağa başladı. Siyasi terminologiya kimi siyasi ədəbiyyata son illərdə daxil olsa da, son dövrlərdə dövlətlərarası münasibətlərdə bu vasitələrdən istifadə edilməkdədir.

XX əsrin sonlarında yenidən müstəqilliyini qazanan Azə rbaycanda da bu vasitədən məharətlə istifadə edilməyə başlanmışdır. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıtmasından sonra zəngin enerji qaynaqlarından səmərəli istifadə etməklə, ölkə iqtisadiyyatının bərpası istiqamətində uğurlar əldə edilmişdir. Məlum olduğu kimi, Heydər Əliyevin Şərq-Qərb münasibətləri prizmasından dinlərarası dialoqun inkişafı və ölkəmizdə yaşayan insanların Azərbaycanın bərabərhüquqlu vətəndaşları olduğu həqiqətini dönə-dönə vurğulaması bunun bariz nümunəsidir. Belə ki, Heydər Əliyev çıxışlarının birində: "İslam dini başqa dinlərə qarşı heç vaxt düşmən olmamışdır. Çünki bu dinlərin hamısı Allahdan gəlir. Azərbaycanda müsəlmanlarla yanaşı başqa dinlərə etiqad edən adamlar da yaşayır. Onlar da Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır. Çalışmalıyıq ki, dini, milli mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları eynihüquqlu olsunlar və onların hamısının birliyini, vəhdətini təşkil edək. Bu da Allah-təalanın buyuruğu, bizim yolumuzdur".

Mədəniyyətlərarası və dinlərarası əlaqələrin genişləndirilməsi sahəsində UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun ardıcıl və təqdirəlayiq fəaliyyətinin xüsusi rolu var. Milli-mənəvi dəyərlərimizin qorunmasına, tarixi-mədəni abidələrimizin bərpasına böyük önəm verən Fondun məscid və ziyarətgahları bərpa etməklə yanaşı, bir sıra qeyri-islam

məbədlərinin bərpası və yenidən qurulması istiqamətdə aparılan işlər məqsədyönlü siyasətin nəticəsidir.

Bu məqalədə Heydər Əliyevin Şərq-Qərb münasibətləri prizmasından dinlərarası dialoqun inkişafının gerçəkləşdirilməsində tarixi rolu və istifadə imkanları araşdırılmış, ölkəmizin zəngin mədəni irsinə sahib olması və mühüm geosiyasi mövqedə yerləşməsinin bu istiqamətdə ona  geniş imkanlar yaratdığı vurğulanmışdır.

# QƏRB-ŞƏRQ SİVİLİZASİYALARININ QOVŞAĞINDA YER ALAN AZƏRBAYCAN ELMİNİN HİMAYƏDARI HEYDƏR ƏLİYEV

**Xumar Ələkbərova**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu, f.ü.f.d., dosent*
*uxba@mail.ru*

Tanınmış ictimai-siyasi xadim, dünya iqtisadiyyat tarixinə "Əsrin müaviləsi" kimi nəhəng sənədlə uğurlu Azərbaycan modelini töhfə verən Heydər Əliyev elmin, təhsilin əzəli, əbədi əhəmiyyətini daim öndə tutmuş, elmin himayədarı olmuşdur.

Heydər Əliyev bu gün şərqli-qərbli bütün dünyada zəngin irsi, kəşfləri, nailiyyətləri ilə tanınan Azərbaycan elm tarixinə elm hamisi olaraq öz adını yazmış şəxsiyyətdir.

Azərbaycanın inkişafı, xalqın tükənməz potensialının üzə çıxarılması Heydər Əliyevin ən böyük amalı omuşdur. Heydər Əliyev bütün fəaliyyəti dövründə elm və təhsilin inkişafına xüsusi qayğı ilə yanaşmışdır. Çünki bu uzaqgörən, müdrik şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu xalqın yüksək təhsil almasında, maariflənməsindədir.

Məhz buna görə o, Azərbaycanda hakimiyyət illərində ölkənin iqtisadi cəhətdən gücləndirilməsi, dünya siyasi arenasında mövqeyinin yüksəldilməsi və möhkəmləndirilməsi kursunu daim elm və təhsilin inkişafı ilə paralel aparmışdır. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər Azərbaycan tarixinə elmin və təhsilin, mədəniyyətin tərəqqi dövrü kimi daxil olmuşdur. 70-ci illərdə Azərbaycan Elmlər Akademiyası məhz onun böyük təşkilatçılıq istedadı nəticəsində müasir elmi çağırışlara cavab verən kadr potensialını yaratmış, maddi-texniki bazasını möhkəmləndirmiş, mühüm elmi kəşf, yenilik və nailiyyətlərə imza atmışdır. Və Heydər Əliyevin himayəsi altında 1970–1980-ci illərdə Azərbaycanın elmi potensialı 258 elmlər doktoru, 2677 elmlər namizədi ilə daha da zənginləşmiş, güclənmişdir.

1993-cü ildə xalqın istəyi ilə Azərbaycan rəhbərliyinə yenidən qayıdan Heydər Əliyev 1997-ci il yanvarın 31-də Elmlər Akademiyasının rəhbərliyini və aparıcı alimlər qrupunu qəbul edərək, elm sahəsində islahatların aparılmasının vacibliyini bir daha təsdiqləmiş, Azərbaycanda elmin inkişaf strategiyasının əsas müddəalarını qəti olaraq müəyyənləşdirmişdir.

"Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir. Onu qoruyub saxlamalıyıq", - fikirlərinin müəllifi Heydər Əliyevin elm və təhsil sahəsində atdığı addımlardan ən əsası 15 may 2001-ci il tarixli fərmanıdır. Həmin fərmanla Elmlər Akademiyasına Milli Elmlər Akademiyası adı verilmiş, bununla da akademiyanın elmimizin inkişafındakı rolu rəsmən təsdiqlənmişdir.

Və bu gün bütün dünyanın hesablaşdığı Azərbaycanın nailiyyətlərinin bünövrəsində Heydər Əliyevdən miras qalan elmə, təqəqqiyə dəyər, qayğı durur. İftixar hissi və əminliklə qeyd edə bilərik ki, Heydər Əliyevin bu elm siyasəti onun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin "Müasir dövlətin qurulması elmin inkişafı olmadan mümkün deyildir" proqram xarakterli müdrik fikri regionun hər bir sahədə gücü olan Azərbaycan dövlətinin gələcək tərəqqisi üçün ən böyük təminatdır.

# HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ YAXIN VƏ ORTA ŞƏRQ SİYASƏTİ (1993-2003-cü illər)

**Sübhan Talıblı**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu, Cənubi Azərbaycan şöbəsinin*
*aparıcı elmi işçisi, t.ü.f.d., dosent*
*subhantalibli@gmail.com*

Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətinin əsas istiqamətlərindən biri də Yaxın və Orta Şərq, o cümlədən geosiyasi, milli-mənəvi və tarixi cəhətdən bizə yaxın olan ölkələrlə əlaqələri inkişaf etdirməkdir. Azərbaycan Respublikasının Yaxın və Orta Şərq xarici siyasətin başlıca məqsədi dövlət müstəqilliyinin tanıdılması, diplomatik münasibətlərin qurulması, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli üçün tərəfdarlar qazanmaq, Azərbaycan haqqında həqiqətlərini təbliğ etmək, region ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrin yaradılması, qarşılıqlı faydalı əlaqələr qurmaq, xüsusilə də Yaxın və Orta Şərq ölkələri ilə siyasi-diplomatik, ticari-iqtisadi, elmi-mədəni və humanitar əlaqələri inkişaf etdirmək olmuşdur.

Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan Respublikasının xarici siyasətində Yaxın və Orta Şərq ölkələri arasında siyasi-diplomatik münasibətlərin yaranması, səfirliklərin açılması və fəaliyyəti, dövlət və hökumət başçılarının, dövlət qurumlarının qarşılıqlı səfərləri, parlamentlərarası əlaqələr, eləcə də parlamentlərarası dostluq qrupunun fəaliyyəti, iqtisadi-ticari və enerji sahədə əlaqələr, beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq, mədəni, elm, təhsil və humanitar sahədə əlaqələr, Dövlətlərarası Müştərək Komissiyanın fəaliyyəti və s. məsələlər mühüm yer tutur.

Azərbaycanın xarici siyasətində Yaxın və Orta Şərq ilə ikitərəfli və çoxtərəfli əlaqələr, region ölkələrinin dünya siysətində mühüm yer tutması, zəngin karbohidrogen ehtiyatlara malik olması, bu regionda yaranmış beynəlxalq və regional qurumlarla münasibətlər xüsusi bir istiqamət təşkil edir. Ümummilli lider Heydər Əliyenin Azərbaycan Respublikasının xarici siyasətinin prioritet istiqamətlərindən biri də Yaxın və Orta Şərq ölkələri strategiyasında beynəlxalq və regional təşkilatlar çərçivəsində - BMT, İƏT, ECO, KÖƏŞ, ƏDL, ICESCO, OPEC, İslam İnkişaf Bankı, G20, Qoşulmama Hərəkatı (NAM) və s. əməkdaşlığı şərtləndirən amillərdəndir.

# HEYDƏR ƏLİYEVİN PREZİDENTLİYİ DÖVRÜNDƏ AZƏRBAYCAN-İRAN MÜNASİBƏTLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

**Əlimusa İbrahimov**
*Bakı Dövlət Universiteti,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*
*ialimusa@mail.ru*

Mövzu Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycan və İran arasında ikitərəfli münasibətlərin tədqiqinə həsr olunub.

1991-ci ildə SSRİ-nin süqutundan sonra Cənubi Qafqazda müstəqil dövlətlərin yaranması ilə İran İslam Respublikasına (İİR) xarici yeni istiqamət açıldı.

Postsovet dövründə geosiyasi simasını dəyişən Cənubi Qafqaz İran üçün "risklər və imkanlar məkanı" kimi diqqəti cəlb edib. SSRİ-nin dağılması İranın Rusiya ilə bilavasitə sərhədinin yox olmasına gətirib çıxardı və Sovet İttifaqının yerində Azərbaycan, Gürcüstan və Ermənistan yarandı. İran hakimiyyəti bunu  Cənubi Qafqazla bağlı tarixi iddialarını bir daha ortaya qoymaq üçün fürsət hesab edirdi. İran üçün "müstəqil Azərbaycan problemi" yenidən gündəmə gəldi və bununla əlaqədar olaraq, 1990-cı illərin əvvəllərindən başlayaraq Azərbaycan Respublikası Cənubi Qafqazda İran siyasətinin mərkəzində dayandı.

Beləliklə, Azərbaycan-İran münasibətlərinin tədqiqi İran hakimiyyətinin bütün Cənubi Qafqaz regionu ilə bağlı siyasətini başa düşmək üçün effektiv üsuldur.

Azərbaycan və İran arasında ikitərəfli münasibətlərin xüsusiyyətlərini və xarakterini nəzərə alaraq, bu dövrdə bu əlaqələrin aşağıdakı mərhələlərini ayırmaq olar:

Birinci mərhələ (oktyabr 1991 - oktyabr 1993);

İkinci mərhələ (1994-2000);

Üçüncü mərhələ (2001-2003).

Azərbaycan 1991-ci il oktyabrın 18-də müstəqillik əldə etdikdən sonra ikitərəfli əlaqələrin qurulması məqsədilə AR və İİR rəsmilərinin Tehran və Bakıya qarşılıqlı səfərləri başlandı. 1991-ci il dekabrın 25-də ovaxtkı xarici işlər naziri Ə.Ə.Vilayətinin rəsmi səfəri zamanı İran Azərbaycanın dövlət müstəqilliyini rəsmən tanıdı. Ortaq tarix və etnik-dini amil hər iki dövləti yaxınlaşdırmalı idi, lakin bu, iki ölkə arasındakı ideoloji fikir ayrılığına görə baş vermədi - Azərbaycan dünyəvi ölkəyə çevrildi, İran islam respublikası idi.

İlk mərhələdə rəsmi Bakı Tehranı Azərbaycanla müharibə vəziyyətində olan Ermənistanı dəstəkləməkdə ittiham etdiyi üçün tərəflər bir-birinə şübhə ilə yanaşırdılar. İkitərəfli münasibətlər, xüsusilə 1992-ci ilin yayından 1993-cü ilin yayına qədər Azərbaycanın Prezidenti Ə.Elçibəyin İranda yaşayan türkdilli xalqları, o cümlədən İranda yaşayan Azərbaycan türklərini açıq şəkildə müdafiə etdiyi zaman gərginləşdi. Təbii ki, Azərbaycan rəhbərliyinin belə mövqeyi İran hakimiyyətini çox narahat edirdi.

1993-cü ildə Azərbaycanda hakimiyyətə gələn Heydər Əliyev qonşu dövlətlərlə, o cümlədən İranla əlaqələrin inkişafına xüsusi diqqət yetirməyə başladı. Azərbaycan rəhbərinin 1994-cü ilin yayında İrana üç günlük rəsmi səfəri dövlətlərarası əməkdaşlığın inkişafı üçün əlverişli şərait yaratdı. Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycanın İranla münasibətlərinin tənzimlənməsində əsas rol oynadı.

Hər iki dövlətin xarici siyasətdə fərqli strategiyaları və regional məsələlərdə fərqli mövqeləri olması səbəbindən nəzərdən keçirilən dövrdə Bakı ilə Tehran arasında ikitərəfli münasibətlər bir tərəfdən qarşıdurma, digər tərəfdən əməkdaşlıq ilə yadda qalıb. Lakin Azərbaycan Respublikası və İran İslam Respublikası prezidentlərinin səyləri nəticəsində 1993-2003-cü illərdə ikitərəfli əməkdaşlıq konstruktiv xarakterini qoruyub saxlaya bilmişdir.

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV: XOCALI SOYQIRIMINA SİYASİ QİYMƏTİN VERİLMƏSİ

**Mehriban Əliyeva**
*AMEA A.A.Bakxanov adına Tarix İnstitutu*
*t.ü.f.d., dosent*
*mehriban_alieva @mail.ru*

Ümummilli lider Heydər Əliyev Xocalı soyqırımının tanınmasının əsas səbəbkarı, təşəbbüskarı olmuşdur. Hələ prezident səlahiyyətlərini həyata keçirərkən Ali Sovetin Sədri Heydər Əliyev erməni təcavüzünün qarşısının alınması məqsədilə təcili tədbirlər görülməsi üçün BMT Təhlükəsizlik Şurasının dərhal çağırılması xahişi ilə Təhlükəsizlik Şurasının sədrinə 26 iyul 1993-cü il tarixli yazılı müraciət etmişdir. 1994-cü il 24 fevralda Milli Məclisin qərarı ilə hər il fevralın 26-sı «Xocalı soyqırımı günü» kimi yad olunması və bu barədə beynəlxalq təşkilatlara məlumat verilməsi ilə Xocalı soyqırımına ilk dəfə siyasi qiymət verilmiş oldu. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə əsrin bu böyük faciəsi dövlət tərəfindən öz qiymətini aldı. 1995-ci il 24 fevralda Milli Məclisin dünya parlamentlərinə və beynəlxalq təşkilatlara Xocalı soyqırımı ilə bağlı müraciəti oldu. Prezident Heydər Əliyev Xocalı soyqırımının onuncu ildönümü ilə əlaqədar Azərbaycan xalqına 2002-ci il 25 fevral tarixli müraciətində qeyd edirdi ki: "Bu gün Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırımı aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur.

Tarixə nəzər salsaq, XIX-XX-ci əsrin əvvəllərində "Böyük Ermənistan" yaratmaq ideyası erməni millətçi partiyalarının əsas prioritetinə çevrildi. Bunu həyata keçirmək üçün erməni daşnakları Cənubi Qafqaz və Şərqi Anadolunun türk-müsəlman əhalisinə qarşı terror və soyqırım siyasəti həyata keçirməyə başladılar. "Daşnaksütyun" partiyası və digər erməni təşkilatları terroru təbliğ edib, terror fəaliyyətini həyata keçirmək üçün hərbiləşdirilmiş dəstələr yaradırdılar. Erməni millətçi qüvvələri dünya ictimaiyyətinin diqqətini qondarma "erməni məsələsi"nə cəlb etmək üçün terrordan geniş istifadə edirdilər. 1918-1920-ci illərdə daşnakların və bolşeviklərinin rəhbərlik etdiyi Bakı Soveti, daha sonra isə Azərbaycan ərazilərində yaradılmış Ermənistan Respublikası hökuməti azərbaycanlılara qarşı soyqırım törətmişdir. Erməni cinayətləri çoxlu sayda azərbaycanlı qaçqınların meydana çıxması, xalqımızın mənəvi və maddi mədəniyyət abidələrinin vəhşicəsinə dağıdılmasına gətirdi.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası tarixçilərə erməni təşkilatlarının Azərbaycan xalqına qarşı fəaliyyəti ilə bağlı məsələnin geniş şəkildə araşdırılmasına başlamağa imkan verdi. Azərbaycan alimləri əsas komponenti terror olan erməni partiyalarının fəaliyyətini ətraflı araşdırıb. Azərbaycan xalqının taleyində baş verən faciəli hadisələr erməni millətçi partiyalarının terror və soyqırım siyasətini həyata keçirməsinə sübut kimi çıxış edir.

## MÜSTƏQİL AZƏRBAYCANIN ŞƏRQ SİYASƏTİ ŞƏRQŞÜNASLIQ İNSTİTUTUNUN TƏDQİQATLARINDA

**Vüqar Məmmədov**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun İran filologiyası şöbəsinin aparıcı elmi işçisi, f.ü.f.d.*
*vm12345@mail.ru*

Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət quruculuğunda xarici siyasətin, o cümlədən Şərq ölkələri ilə münasibətlərin qurulması və inkişaf etdirilməsinin əhəmiyyəti böyükdür.

AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda aparılan tədqiqatlarda Azərbaycan rəhbərlərinin Şərq siyasəti həmişə diqqət mərkəzində olub. Son 20 ildə Şərqşünaslıq İnstitutunda bu siyasətin Çin qolu ilə bağlı görülən işlər keyfiyyəti və məhsuldarlığı ilə xüsusi seçilir. Bu işdə əsas pay sahibi olan təcrübəli çinşünas mütəxəssis c.ü.f.d. Rafiq Abbasov Azərbaycan və Çin dillərində “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində nitqi”, “Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri”, “İlham Əliyev – qədim xalqların dostluğunun müasir davamçısı”, “Azərbaycan-Çin: diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümü”, “Heydər Əliyev və Çin (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər)”, “Çinə tarixi səfər”, “Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü. Prezident salnaməsi” kitablarının tərtibçisi, “Çin Xalq Respublikasının Qafqaz siyasəti” və Azərbaycan-Çin əlaqələrinin inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu” mövzusunda tədqiqatların müəllifidir.

Dövlətimizin Şərq siyasəti t.ü.f.d. Sübhan Talıblının **“**İran İslam Respublikasının Qafqaz siyasətində Dağlıq Qarabağ problemi” kitabında, “Prezident İlham Əliyevin Şərq siyasəti” mövzusunda kollektiv işdə, i.ü.e.d. Dünyamalı Vəliyevin “Mərkəzi Asiya dövlətlərinin formalaşması və inkişafı qanunauyğunluqları: ziddiyyətlər və sosial nəticələri” və “Mərkəzi Asiya ölkələrinin İpək Yoluna qoşulmasında önəmli faktor kimi”, f.ü.f.d. Təranə Həşimovanın “Müstəqillik dövründə Azərbaycan-özbək mədəni əlaqələri”, həmçinin Aygün Şimiyeva ilə birlikdə “Türkdilli xalqların inteqrasiyası və müstəqil Azərbaycan Respublikasının dövlət siyasəti”, Dilbər Abdullayevanın “Azərbaycan – Pakistan münasibətləri (1992-2010-cu illər)” mövzusunda tədqiqat işlərində araşdırılıb.

Müstəqil Azərbaycanın Şərq siyasəti mövzusuna Şərqşünaslıq İnstitutunda keçirilən elmi konfrans və sessiyalarda da toxunulub.

Şərqşünas alimlər müstəqil Azərbaycanın, onun rəhbərləri Heydər Əliyev və İlham Əliyevin Şərq siyasəti barədə ayrı-ayrı konfranslarda da məruzələr edib, bununla əlaqədar bir sıra məqalələr yazıblar.

Şərqşünaslıq İnstitutunun əməkdaşlarının ölkəmizin Şərq siyasəti ilə bağlı kitablarını, tədqiqat işlərini, məqalələrini, məruzələrini nəzərdən keçirəndə mövzu ilə bağlı əhatəli araşdırmaların aparıldığını müşahidə edirik.

# MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN TƏƏSSÜBKEŞ HİMAYƏDARI VƏ YA BİZİM OLANA SAHİB ÇIXMAQ CƏSARƏTİ

**Əsmətxanım Məmmədova**
*Bakı Dövlət Universiteti,*
*f.ü.f.d., dosent*
*ORCID No:* ***0000-0002-9055-2313***
*kamillik@mail.ru*

Milli-mənəvi dəyərlər hər bir ulusun, millətin varlığı, özünütəsdiqinin əsas göstəricisidir. Ulu Öndər Heydər Əliyevin xalqı xalq, milləti millət kimi formalaşdıran, onun etnik spesifikliyini şərtləndirən bu dəyərlərin qorunmasını çoxşaxəli fəaliyyətinin prioritetinə çevirməsinin də əsasında məhz bu həqiqət, bu gerçəklik dayanırdı. Tarix, dil, mədəniyyət, dini inanclar və mental dəyərlərimizin təbliği məsələsinin təəssübkeş el atasının ən həssas nöqtəsi, qırmızı çizgisi olması da, musiqimizin, muğamımızın, klassik ədəbiyyatımızın, bir sözlə, intellektual potensialımızın dünya arenasında tanıdılması da məhz bu səbəbdən qaynaqlanırdı. Biz də, öz növbəmizdə, milli-mənəvi dəyərlərə münasibət fonunda Ulu Öndərin dahi Azərbaycan şairi Nizami Gəncəvinin şəxsiyyətinin, bədii irsinin tədqiqi və təbliği, ümumilikdə nizamişünaslığın inkişafı istiqamətindəki müstəsna rolunu tədqiqata cəlb etmişik.

Nizamişünaslıq və Heydər Əliyev mövzusunun araşdırılması, bu yöndə çıxışların, müsahibələrin, imzalanan sərəncamların incələnməsi, hər şeydən öncə, unikal bədii-estetik zövqə malik rəhbərin söz mülkünün sultanı, ictimai-fəlsəfi fikir tarixində yeni epoxanın əsasını qoyan novator şairimizə xüsusi ehtiram, sonsuz sevgi, əlahiddə simpatiyasının olması faktını ortaya qoydu. Digər tərəfdən, əminliklə deyə bilərik ki, dövlət səviyyəsində izhar olunan bu sevgi və qayğı həm də onun etnik mənşəyini mübahisə predmetinə çevirən bədxahlara verilən ən tutarlı cavab olmuşdur.

H. Əliyev hələ ilk hakimiyyəti dövründə “Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında” 1979-cu il 6 yanvar tarixli qərarı ilə nizamişünaslıq elminin yeni inkişaf konsepsiyasının əsasını qoyaraq, onun dünyada məhz Azərbaycan şairi kimi tanıdılması istiqamətində yeni mərhələyə start vermişdi. Nizami yaradıcılığının ən fərqli rakuslardan tədqiqi, poemaları və lirikasının Azərbaycan və rus dillərində filoloji, poetik tərcümələri, təkrar nəşri və ümumilikdə nizamişünaslığın ədəbi prosesin aparıcı sahəyə çevrilməsi bu qərardan irəli gələn addımların bir qismi idi.

1981-ci ilin avqustunda mütəfəkkir şairimizin anadan olmasının 840 illiyi ilə əlaqədar imzalanan qərarın məntiqi nəticəsi olaraq elə həmin ildə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda tanınmış şərqşünas alim R.Əliyevin rəhbərliyi altında “Xəmsə”nin Azərbaycan və rus dillərinə filoloji tərcümələrini həyata keçirən Nizamişünaslıq şöbəsinin yaradılması,

N.Araslı, R.Azadə, X.Yusifli, M. Cəfər, X.Hüseynov kimi (sadalanması imkan daxilində olmayan onlarla) alimlərin elmi təhlillərlə zəngin saysız-hesabsız fundamental tədqiqat işlərinin ərsəyə gəlməsi, dahi şairimizin adının əbədiləşdirilməsi istiqamətində atılan titanik miqyaslı işlərin reallaşması birbaşa H.Əliyevin adı ilə bağlı idi.

Sevindirici haldır ki, Azərbaycan nizamişünaslığının möhkəm təməl üzərində, yüksələn xətt üzrə inkişafı milli-mənəvi dəyərlərimizə sahib çıxmağı bacaran, sözü, əməli ilə cəsarət nümunəsi olan, möhtərəm İlham Əliyev cənablarının simasında bu gün də davam etdirilir. N.Gəncəvinin 880 illiyi ilə əlaqədar imzalanan sərəncam və çoxsaylı işlər, göz önündə olan əməli fəaliyyət dediklərimizin bariz göstəricisidir.

## HEYDAR ALIYEV AND AZERBAIJANI NIZAMI STUDIES

**Ulkar Bakhshiyeva**
*Phd, Head teacher of the department of*
*Literature teaching technology of*
*Faculty of Philology at ASPU*
*ulker.baxsiyeva@mail.ru*
*ORCID İD 0000-0002-5994-2356*

The great leader Heydar Aliyev had great services in the development of Azerbaijani literature and culture. He highly appreciated literary works and poetry, and always made important decisions in the direction of the development of literature. One of the poets that he appreciated a lot was Nizami Ganjavi. Heydar Aliyev's important decisions, which stimulated the research on Nizami, played an essential role in the development of Azerbaijani Nizami studies.

A new page in the history of science about the creativity of Nizami began with the Great Leader's decision in 1979 about "On bare measures to further improve the learning of the heredity of the great poet and thinker of Azerbaijan-Nizami Ganjavi, and the publication of his works" in 1979. This decision played an important role in the publication and research on the creativity of Nizami and in researching the actual problems of Nizami's study in terms of contemporary world science. According to the decision of H. Aliyev, the 840th anniversary of N. Ganjavi was celebrated in 1981.

Aliyev's love for the Nizami was so great, he also gave special importance to the declaration of every year as the year of the Nizami and paid attention to the place of the Nizami as a Turkish writer in the Turkish world and the greatness of his art. With the initiative of the great leader, the Nizami study department was created for the first time under the name of Nizami in the Literary Institute at ANSA in 1981. With the instruction of H. Aliyev the "Khamsa" was reprinted, and successive measures were taken at different times regarding Nizami. With the instruction of Heydar Aliyev the magnificent tomb of the poet was decorated again in Ganja where Nizami was born. The great leader became a person attached to the national and spiritual values of his people. Even in the most difficult times of the Soviet period in terms of ideology, he did not hesitate or fear anything for the sake of his national-spiritual goals and served his people.

# TÜRK DÜNYASI ÖLKƏLƏRİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEV İRSİNİN VƏ MÜDRİKLİK MİRASININ YAŞADILMASI (HEYDƏR ƏLİYEV - 100)

**Yeganə Əliyeva**
*AMEA Memarlıq və İncəsənət*
*İnstitutunun aparıcı elmi işçisi,*
*Kulturologiya üzrə fəlsəfə doktoru, dosent*
*eqana-aliyeva@yandex.ru*

2023-cü ildə bəşəriyyətin tarix yaratmağa qadir şəxsiyyəti, müstəqil Azərbaycan dövlətinin qurucusu, Türk dünyasının görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev yalnız Azərbaycan xalqının sevimli lideri olmamışdır, o həmçinin bütün Türk dünyasında tanınan və sevilən dövlət xadimi olmuşdur. Türkiyə-Azərbaycan dostluq əlaqələrini əks etdirən "Bir millət, iki dövlət" ifadəsi də məhz Heydər Əliyevə məxsusdur. Ümummilli lider Heydər Əliyev Türk dünyası ölkələrinin inteqrasiyasının tərəfdarı olmuşdur. Heydər Əliyev fenomeni Türk dünyasının təkcə siyasət adamlarının deyil, o cümlədən də elm, təhsil və mədəniyyət xadimlərinin daim diqqət mərkəzindədir.

2012-ci ilin dekabr ayında Ümummilli lider Heydər Əliyevin vəfatının 9-cu ildönümü münasibətilə təşkil olunan silsilə tədbirlər çərçivəsində Türkiyənin paytaxtı Ankarada Heydər Əliyev Parkının və Heydər Əliyev adına orta məktəbin açılışı xatirəsinin yaşadılması kimi qiymətləndirilə bilər. 2006-ci ildə Heydər Əliyevin abidələrinin İstanbulun Sarıyer, 2011-ci ildə Türkiyənin Tarsus, Qars şəhərində açılışı və Heydər Parklarının salınması da bu qəbildən olan tədbirlərdir.

Türk dünyasında Heydər Əliyev irsinin və müdriklik mirasının yaşadılmasına xidmət edən xoşməramlı addımlarından biri də Qazaxıstanda L.N.Qumilyov adına Avrasiya Milli Universitetində Heydər Əliyev muzey-kabinetinin fəaliyyətində təzahürünü tapır.

Heydər Əliyevin nadir şəxsiyyətinə ehtiramın digər nümunəsi 2022-ci ildə Özbəkistanın paytaxtı Daşkənd şəhərində Heydər Əliyev Meydanında böyük memorial kompleksin ucaldılmasıdır.

Heydər Əliyevin təhsilə və elmə verdiyi önəmi qırğız xalqı bir nəsihət kimi qəbul edərək gənc nəslin tərbiyəsini daim diqqət mərkəzində saxlayır. 12 oktyabr 2022-ci il tarixində Qırğızıstanın paytaxtı Bişkekdə açılan 20 saylı Məktəb-Gimnaziya təhsil-tərbiyə kompleksinə Heydər Əliyevin adı verilmişdir.

Türkmən xalqının Azərbaycanın Ümummilli lideri Heydər Əliyevə verdiyi böyük dəyərin təzahürü kimi 2010-cu ildə Türkmənistanın paytaxtı Aşqabadda "Görkəmli adamların həyatı" seriyasından olan "Heydər Əliyev" kitabının türkmən dilinə tərcümə edilərək nəfis tərtibatda dərc edilməsini göstərmək olar.

Tədqiqatdan alınan qənaətə görə, Ümummilli lider Heydər Əliyevin Türk dünyasının birliyi barədə fikir xəzinəsi Türkiyə və Mərkəzi Asiyanın türk dövlətləri tərəfindən böyük hörmət və ehtiram hissi ilə yaşadılır. Ulu öndərin ideoloji, mənəvi mirasının qorunması və təbliği müxtəlif elm, təhsil və mədəni layihələr çərçivəsində həyata keçirilir.

## AZƏRBAYCAN-İRAN SİYASİ-DİPLOMATİK MÜNASİBƏTLƏRİNİN QURULMASINDA HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ

**Hüseyn Fəxrəddin**
*Lənkəran Dövlət Universitetinin dosenti, t.ü.f.d.*
*fexreddin1955@mail.ru*
*ORCİD: 0000-0002-4137699090EE679*

Azərbaycan-İran siyasi-diplomatik münasibətlərinin inkişaf xəttini üç dövrə ayırmaq olar. Birinci dövrdə İran dövləti şimal sərhədləri boyunca yeni dövlətlərin yaranması prosesində seyrçi mövqedə durmayaraq bu hadisələrin gedişində özünün dövlətçilik maraqları üçün çalışırdı. İranın Qafqaza, xüsusilə də Azərbaycana marağı həmişə böyük olmuşdur. 1992-ci ilin may ayında Azərbaycanda hakimiyyət dəyişikliyi baş verdi. Beləliklə, 1991-ci ilin sonlarından başlamış və 1992-ci ilin may ayının ortalarına kimi davam edən Azərbaycan-İran siyasi münasibətlərinin ilk dövrü başa çatdı.

1992-ci ilin may ayının ortalarında hakimiyyətə gələn Azərbaycan Xalq Cəbhəsi dövlətin xarici siyasətində müəyyən dəyişikliklər etdi. Xüsusilə İran İslam Respublikasının Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar olan vasitəçilik missiyası həm rəsmi, həm də qeyri-rəsmi surətdə tənqid edildi. İran İslam Respublikasında da Azərbaycan Respublikasının müstəqilliyini qısqanclıqla qarşılayan qüvvələr ölkəmizin ərazisini tarixi İran torpaqları kimi qəbul edirdilər.

1993-cü ilin ortalarında Azərbaycan Xalq Cəbhəsi hakimiyyətdən getdi və Azərbaycan-İran münasibətlərinin ikinci dövrü başa çatdı.

Görkəmli siyasi və ictimai xadim Heydər Əliyev Ali Sovetin sədri seçildi, eyni zamanda prezidentin səlahiyyətlərini həyata keçirməyə başladı. Siyasi hakimiyyətin dəyişilməsi ilə əlaqədar olaraq, dövlətin bütün strukturlarında, o cümlədən xarici siyasət kursunda yeniləşmə prosesi baş verdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fəaliyyəti nəticəsində 1994-cü ilin fevral ayında Naxçıvan şəhərində İran İslam Respublikasının baş konsulluğu açıldı. Artıq İranın siyasi, iqtisadi və digər dövlətlərarası münasibətləri tənzimləyən səfirlik və konsulluğu Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərməyə başladı

Azərbaycan Prezidenti Heydər Əliyev İran rəsmilərinə həmişə bildirmişdir ki, ABŞ və İsrail İran torpaqları və xalqına hərbi təcavüz etməmişdir. İranın Azərbaycana dost ölkə olması, tarixi keçmişin müştərəkliyi, din, dil, məişət və s. yaxınlıqlar Azərbaycan ictimaiyyətinə əsas verir ki, İran-Ermənistan əlaqələrinin inkişafından narahat olsun.

1993-cü ilin ortalarından sonrakı müddəti Azərbaycan-İran siyasi münasibətlərində üçüncü dövr kimi səciyyələndirmək olar. Bu mərhələdə Azərbaycan Respublikası tərəfindən

İran dövlətinə qarşı praqmatik, tarazlaşdırılmış mehriban qonşuluq və qarşılıqlı faydalı əməkdaşlıq kimi xoşməramlı siyasət yürüdüldü və indi də davam etdirilməkdədir.

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən müəyyənləşdirilib həyata keçirilən xarici siyasət xətti İran İslam Respublikası ilə ikitərəfli və çoxtərəfli əlaqələrin genişlənməsində böyük rol oynamış, həmin siyasət hal-hazırda baxmayaraq ki, Azərbaycanın müzəffər qələbəsindən sonra İran İslam Respublikası tərəfindən böhranlı vəziyyətə gətirilib çatdırılsa da, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

# HEYDƏR ƏLİYEVİN SİYASİ KURSUNDA TƏHSİL MƏSƏLƏSİ

**Əli İbrahimov**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,*
*Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq*
*fəlsəfəsi şöbəsinin aparıcı elmi işçisi, fəl.ü.f.d., dosent*

2004-cü ildən başlayaraq Ulu Öndər Heydər Əliyev maddi həyatda olmasa da, onun ideyaları, siyasi-mənəvi irsi etibarlı davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ləyaqətlə yerinə yetirilir. Prezident İlham Əliyev demişdir: "Bizim ideologiyamız, azərbaycançılıq fəlsəfəsi bütün cəmiyyəti birləşdirir". Bu ideyanın 44 günlük Qarabağ müharibəsində nələrə qadir olduğu sübut edildi. Aydındır ki, güclü dövlət vahid siyasi liderin olmasını tələb edir. Vaxtilə Makiavelli, sonralar digər mütəfəkkirlər və eləcə də Hegel güclü hakimiyyət üçün "güclü əl"in olmasını zəruri sayırdılar.

Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə gəldiyi və ondan sonrakı illərdə gördüyü işləri yada salarkən indi də bizdə iftixar hissi baş qaldırır. Azərbaycanda xalq təsərrüfatının xüsusi yüksəlişi, xalqın güzəranının yaxşılaşması, elm, mədəniyyət, incəsənət işçilərinə, o dövrdə sovet ordusuna xidmət edən gənclərə göstərilən qayğı Azərbaycan millətindən olan zabitlər hazırlamaq məqsədilə Naxçıvanski adına Hərbi Liseyin açılması, orta məktəb məzunlarının Azərbaycandan kənarda yüzlərlə ali məktəbdə təhsil almağa göndərilməsi və. s işlər böyük tarixi şəxsiyyətə tükənməz məhəbbətin yaranmasına səbəb olmuşdur.

XX əsr dünyasında, həqiqətən, SSRİ və ABŞ hökmranlıq etmişdir. Hal-hazırda XX əsrin son onilliyi XXI əsrdə isə dünyanın super dövləti ABŞ hesab olunur, dünya inkişafının aparıcı meylini məhz o müəyyən edir. Dahi Napoleonun belə uzaqgörənliyi ona əsaslanır ki, o müasir olduğu dünyanın siyasi həyatını düzgün, dərindən dərk edib. Lakin hər cür uzaqgörənlik ehtimal xarakteri daşısa da, bizə gələcəyin öz doğma, milli dövlətinin tərəqqisi, bütövlüyü və erməni ideologiyasının hansı məhrumiyyətlərə gəlib düçar olacağı barədə Ulu Öndər Heydər Əliyevin uzaqgörənlik fəlsəfəsindən çox şeylər bəlli olur. Hazırkı XXI əsrdə biz ölkəmizin Ali baş komandanı, AR-nın Prezidenti İlham Əliyevin düzgün, səmərəli siyasəti ilə Ulu öndərin uzaqgörənlik siyasətində özünə yer alan rəngarəng tədbirlər, müvafiq beynəlxalq forumlar, konfranslar, idman yarışlarının təşkilində böyük rola malik olan qərarları, doktrinaları, müddəaları artıq gerçəkləşdi. Bunlar reallaşdıqca Ulu Öndər xalqın millətin gözündə ən nüfuzlu, ən görkəmli, ən böyük şəxsiyyət zirvəsinə yüksəldi. Aristotelin belə bir kəskin xarakterli kəlamını qeyd etmək yerinə düşər: "Dövləti cənnətə çevirən nədirsə, elə cəhənnəmə çevirən də odur, yəni siyasətdir". Siyasətçilər dərin əxlaqi mahiyyətlə səciyyələnən belə müdrik müddəaları öz fəaliyyətində daim rəhbər tutmuşlar.

Artıq Ulu öndərin etibarlı varisi Prezident İlham Əliyev əvvəlki illərin bütün nailiyyətlərini qoruyaraq formalaşmış möhkəm təməllər üzərində qurulan ölkəmizi milli dövlətçilik tarixinin ən qüdrətli mərhələsinə yetirmişdir. 44 günlük Vətən müharibəsi ilə Azərbaycanın öz torpaqlarını düşməndən təmizləməsi, ərazi bütövlüyünü bərpa etməsi, işğalçı ölkəni kapitulyasiya aktına imza atmaq məcburiyyətində qoyması, Ali Baş Komandan İlham Əliyevin adını milli dövlətçilik salnaməmizə Müzəffər sərkərdə kimi əbədi yazması müstəqillik tariximizin ən möhtəşəm nailiyyətidir.

# AZƏRBAYCAN VƏ SƏUDİYYƏ ƏRƏBİSTANI ƏLAQƏLƏRİNİN QURULMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Gülər Qafqazlı**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun*
*aparıcı elmi işçisi, t.ü.f.d.*

Azərbaycan Şərqin ayrılmaz bir parçası olmuş və eyni zamanda uzun illərdən bəri "Şərqin qapısı" hesab edilmişdir. Belə ki, islam dininin meydana gəlməsi ilə orta əsrlər tarixində yeni bir mərhələnin başlanması, yeni proseslərin tüğyan etdiyi, yeni bir sivilizasiyanın meydana gəldiyi bir dövr başlamışdır. Həmin dövrdə bir çox dövlətlər öz müstəqilliklərini itirərək vahid bir dövlətin – Ərəb xilafətinin tərkibinə daxil olmuşlar. Azərbaycan ərazisi də Ərəb xilafətinin tərkibinə daxil olan yeni regionlardan biri olmuşdur. Bu müddət ərzində Azərbaycan və Ərəb xilafətinin mərkəzi şəhərlərindən biri sayılan, dinin əmələ gəldiyi müqəddəs Məkkə və Mədinə şəhərləri ilə əlaqələr qurmuş və getdikcə inkişaf etdirmişdir. Həmin əlaqələrin nəticəsində Azərbaycandan indiki Səudiyyə Ərəbistanının ərazisinə yüzlərlə, minlərlə insan elm öyrənməyə getmiş, bəziləri elm ocaqlarında təhsil aldıqdan sonra həmin şəhərdə yaşamağa davam etmiş, bəziləri kitabxanalara üz tutmuş, ticarət əlaqələri yaratmış, müqəddəs yerlərə ziyarət və s. məqsədlər ilə getmişdir.

Dünyanın üç qitəsini əhatə edən Ərəb xilafətinin dağılmasından sonra öz əhəmiyyətini qoruyan və illərlə bir çoxlarının can atdığı Səudiyyə Ərəbistanı günümüzədək öz nüfuzunu itirməmişdir. Belə ki, Səudiyyə Ərəbistanı aparıcı dünya dinlərinin – yəhudilik, xristianlıq və islamın yarandığı coğrafi məkan, ilk icma birliklərinin əmələ gəldiyi yer, fərqli iqlim xüsusiyyətlərinə və zəngin təbii sərvətlərə malik bir ərazi, bütün dünya birliyi üçün siyasi, geostrateji və iqtisadi əhəmiyyət kəsb edən bir regiondur.

Müstəqil Azərbaycan Respublikasının qarşısında, ilk növbədə, Yaxın və Orta Şərqlə tarixi bağlılığını, etnik, dini, mədəni və iqtisadi əlaqələrin yenidən bərpası olduqca əhəmiyyətli idi. Gələcək Azərbaycan dövlətçiliyi və onun Şərq siyasəti üçün çox mühüm olan bu missiya Azərbaycan Respublikasının sabiq prezidenti Heydər Əliyevin çiyninə düşmüşdür.

Səudiyyə Ərəbistanı Azərbaycan Respublikasının müstəqilliyini 30 dekabr 1991-ci ildə tanısa da, Azərbaycan Respublikası ilə diplomatik əlaqələr 24 fevral 1992-ci ildə yaradılmışdır. Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Şərq ölkələri arasında Türkiyə və İran İslam Respublikasından sonra ərəb ölkələri ilə əlaqələrin qurulmasına böyük diqqət yetirmişdir. Məhz bu baxımdan ərəb ölkələri arasında sabiq prezidentin ilk səfər etdiyi ölkə Səudiyyə Ərəbistanı olmuşdur.

**ŞUŞA İLİNDƏN MÜSTƏQİL AZƏRBAYCANIN MEMARININ İLİNƏ!**

**Əlimuxtar Muxtarov**
*AMEA Gəncə Bölməsi*
*Nizami Gəncəvi Mərkəzinin direktoru, f.ü.f.d.*
*nizamicenter1141@gmail.com*

Nəinki 2023-cü il, Azərbaycanın 1960-cı illərinin sonundan başlanan və XXI əsrə adlayan tarixinin 35 illik bir dövrü Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Möhtərəm Prezidentimiz tərəfindən ölkəmizin və millətimizin amal və mənafeyini, iqtisadi və mənəvi inkişafını, cəmiyyətin tərəqqi və intibah mərhələlərini müəyyənləşdirən illərin adlandırmasına fikir versək, bunun, həqiqətən də, strateji məqsədləri özündə əks etdirdiyini görə bilərik. “Gənclər”, “İnformasiya texnologiyaları”, ”Sənaye”, “Multikulturalizm”, “İslam həmrəyliyi”, “Cümhuriyyət”, “Nəsimi” illərindən keçdik, “Könüllülər ili”ndə hamılıqla Vətən üçün canımızı, gücümüzü birləşdirib milli şərəf məsələmizi həll etdik, Ali Baş Komandanımızın rəhbərliyi ilə doğma torpaqlarımızı qaytardıq, sonrakı ili dahi mütəfəkkirimizin adı ilə bağlayaraq, bir daha dünyaya Nizami fəlsəfəsinin hökmünü, xalqımızın bəşəri ideyalar daşıyıcısı olduğunu çatdırdıq və “Şuşa İli”nə mənəvi yüksəliş və quruculuq amalları ilə qovuşduq! Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 29 sentyabr 2022-ci ildə imzaladığı sərəncamla Azərbaycan Respublikasında 2023-cü ili “Heydər Əliyev İli” elan etməsi də məhz bu illərin, xüsusilə də 35 illik zamanın təntənəsi, zirvəsi, kulminasiya nöqtəsi oldu. Azərbaycanı dünyaya doğan günəşə çevirməyi qarşısına məqsəd qoyan Ümummilli lider Heydər Əliyev bütün həyatı boyu da bu əqidəsindən, fəaliyyətindən dönmədi, sarsılmadı və arzularını gerçəyə çevirdi. Əlbəttə ki, o yaxşı bilirdi ki, Yunus Əmrənin ifadəsi ilə desək “Bu yol uzaktır, mənzili çoktur, Geçidi yoktur, dərin sular var”, amma yenə də ömrünü həsr etdiyi doğma Azərbaycanının odövrki çiləli, əzablı və məşəqqətli vəziyyəti Ulu Öndəri sarsıtmadı, yıxa bilmədi. Ona görə yıxa bilmədi ki, qəlbi Azərbaycan boyda idi. Ona görə sarsıda bilmədi ki, O elə ən çətin günlərin adamı idi. Heydər Əliyev Azərbaycana rəhbərliyə gəldiyi hər iki dövrdə ölkəmiz ən çətin günlərini yaşayıb. Və yalnız O gəldikdən sonra Azərbaycan yaşadığı ən taleyüklü çətin problemlərdən qurtulmuş gələcəyə inamla, ilhamla irəliləmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yeni Azərbaycan Partiyasının 30 illik yubileyində Ulu Öndər haqqında danışarkən söylədiyi: “Ulu Öndərin həyatı, fəaliyyəti bir fədakarlıq nümunəsi idi. O hətta özü üçün ən çətin dövrlərdə, artıq son illərdə fiziki sağlamlığı əvvəlki kimi olmadığı dövrdə də hər zaman hər birimizə nümunə göstərirdi. Hər birimiz, o cümlədən mən onun sağlığında da, yoxluğunda da onun kriteriyalarına uyğun hərəkət

etməyə çalışırıq. Bu gün bizi qabağa aparan məhz budur - onun xatirəsinə hədsiz hörmət və onun mirasına olan münasibət. Onun mirası da bu gün müstəqil Azərbaycandır" fikirləri Müstəqil Azərbaycanın Ulu Öndərin şah əsəri olduğunu bir daha təsdiqləyir. Ümummilli Lider Heydər Əliyevin fədakarlığı ölçüyəgəlməz miqyasda olmuşdur. Azərbaycan üçün, Azərbaycan xalqı üçün nümayiş etdirdiyi fədakarlıq nümunəsi şəxsi həyatı kontekstində övladlarının müstəqil Azərbaycanın yaşaması uğrunda qurban verməyə hazır olması ilə ölçülür ki, bu da ancaq Heydər Əliyev şəxsiyyətinə, dühasına məxsus ola bilərdi.

# HEYDƏR ƏLİYEV FONDUNUN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASI VƏ SİVİLİZASİYALARARASI DİALOQUN İNKİŞAFINDA ROLU

**Aynur Əliyeva**
*Kooperasiya Universiteti*
*tarix üzrə fəlsəfə doktoru*
*aynur.eliyeva.ramiz@mail.ru*

1972-ci ildə UNESCO-nun qəbul etdiyi "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" Konvensiyanın əsas ideyası ondan ibarətdir ki, mədəni və təbii irsin bir sıra abidələri bütün dünya üçün xüsusi əhəmiyyət kəsb etdiyindən onlar bəşəriyyətin ümumi irsi elan olunmalıdır və onların mühafizəsi bütün beynəlxalq cəmiyyətin vəzifəsi hesab edilir. 170-dən çox dövlətin imzaladığı Konvensiyanın ümumdünya irs siyahısına 700-dən çox abidə daxil edilmişdir.

Azərbaycan Respublikası 1994-cü ildə "Ümumdünya mədəni və təbii irsinin mübarizəsi haqqında" Konvensiyaya qoşulmuşdur. UNESCO mütəxəssislərinin köməyi ilə "Arxeoloji, tarixi və monumental obyektlərin saxlanmasının vəziyyəti haqqında" icmal hazırlanmışdı.

Siyahıya daxil edilmiş abidələrin sırasında Azərbaycan xalqına məxsus olan abidələr də vardır. Şirvanşahlar sarayı, Qız qalası, Qobustan qayaüstü sənət mədəni landsaftı UNESCO-nun Ümumdünya İrs Siyahısına salınmışdır.

Azərbaycan ərazisində yerləşən və xalqımızın tarixini yaşadan abidələrin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsində dövlət qurumları ilə birlikdə M.Əliyevanın rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondunun və Heydər Əliyev Fondunun da əməyi olmuşdur. Qeyd edilən ictimai birliklər dünyanın nüfuzlu mədəniyyət təşkilatları ilə əməkdaşlıq çərçivəsində respublikamızdakı tarixi abidələrin qorunmasında fəal iştirak edir. Xalqın tarixini özündə əks etdirən maddi mədəniyyət abidələrinin qorunması və gələcək nəsillərə çatdırılması həm tarixi keçmişə hörmət, həm də gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyə edilməsinin ən mühüm elementlərindən biridir. Maddi mədəniyyət abidələrinə hörmətlə yanaşmaq hər bir insanın, xalqın özünə hörmət etməsi, dünya birliyində mənsub olduğu xalqın və dövlətin nüfuz qazanmasına şərait yaratmaq, kömək etmək deməkdir. Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideologiyası həm də maddi-mənəvi dəyərlərə hörmət, inkişaf etdirmək kimi cəhətlərini də özündə ehtiva edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tarixi abidələrimizin qorunması sahəsində mühüm işlərin həyata keçirildiyini qeyd etmişdir: "Azərbaycanda mədəni irsimizin qorunması üçün nə qədər lazımdırsa, o qədər vəsait ayrılacaqdır. Artıq biz bunu görürük. Azərbaycanda, demək olar ki, bütün tarixi abidələr bərpa olunur, yeni mədəniyyət ocaqları yaradılır, muzeylər, bərpa olunur və ən müasir, gözəl səviyyədə yenidən tikilir".

Dövlət müstəqilliyinin bərpa edilməsindən keçən dövr ərzində dövlət qurumları ilə yanaşı, ictimai birliklər də vaxtilə baxımsız qalan, tamamilə məhv olmaq təhlükəsi ilə üzləşən tarixi abidələrin bərpası və qorunub saxlanılması istiqamətində xeyli iş görmüşlər.

# İQTİSADİYYATIN NEFT SEKTORUNUNDA TÜRKİYƏ - AZƏRBAYCAN MÜNASİBƏTLƏRİNİN YARANMASI VƏ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Namiq Məmmədov**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu,*
*Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin müdiri,*
*aparıcı elmi işçi, t.ü.f.d.*
*mammadov.namig@yahoo.com*

Müstəqillik əldə olunduğu dövrdə Azərbaycanda mövcud olan vəziyyət postsovet məkanının, demək olar ki, başqa heç bir subyektində həmin dərəcədə ağır və mürəkkəb deyildi. SSRİ-nin dağılması ilə eyni vaxtda başlayan Ermənistan- Azərbaycan Dağlıq Qarabağ problemi, iqtisadi böhran və s. xalqın sosial vəziyyətini ağırlaşdırmışdı. Kadr siyasətindəki səhvlər, idarəçilikdə olan ciddi qüsurlar vəziyyəti daha da mürəkkəbləşdirirdi. Separatçılıq meyilləri daha da artırdı. Bütün bu məsələlər Ermənistanın işğalçılıq fəaliyyətini genişləndirməsinə gətirib çıxarırdı. Artıq 1993-cü ilin sonlarına qədər keçən müddətdə Azərbaycanın bütün Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayon düşmən tərəfindən işğal olunmuş, bir milyondan artıq soydaşımız doğma yurdlarından qaçqın düşmüşdü.

Ölkənin vətəndaş müharibəsi ərəfəsində olduğu belə bir vəziyyətdə xalqın təkidli tələbi ilə Ümummillli lider Heydər Əliyev Naxçıvandan Bakıya gəldi və 1993-cü ilin oktyabrında Respublika Prezidenti seçildi.

Ulu öndər Heydər Əliyev müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatlara, xüsusilə neft strategiyasına böyük önəm verirdi. Heydər Əliyevin hakimiyyətə qayıtmasından sonra bu sahədə ciddi tədbirlərin görülməsinə başlanıldı. Ölkənin yeni neft strategiyasının əsası qoyuldu. Azərbaycan postsovet məkanında Qərbin transmilli neft şirkətləri ilə böyük miqyasda saziş imzalayan ilk dövlət kimi Xəzərdə beynəlxalq əməkdaşlığın əsasını qoydu. Bununla Azərbaycanı dünya iqtisadiyyatına bağlayan ən önəmli addımlardan biri atıldı. 1994-cü ilin sentyabrında Bakıda Xəzərin neft yataqlarının birgə işlənməsinə dair neft kontraktı - “Əsrin müqaviləsi” imzalandı. Ümümilikdə, 1994-2001-ci illərdə ARDNŞ ilə 14 ölkənin 32 neft şirkəti arasında 21 müqavilə imzalandı. Həmin müqavilələrlə Azərbaycan iqtisadiyyatına 60 mlrd. dollardan artıq investisiya cəlb olundu. Bu müqavilələrdə qardaş Türkiyənin TPAO şirkəti də təmsil olundu.

Neftin dünya bazarlarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasına dair sazişin imzalanması ilə neftin ixrac marşrutlarının şaxələndirilməsinə nail olundu. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsi Heydər Əliyevin neft strategiyasının ən böyük uğurlarından biridir və bu xəttin də əsas hissəsinin Türkiyə ərazisindən keçməsi məhz onun təşəbbüsü ilə baş tutmuşdur. Boru xətti 2006-cı ildən istifadəyə verilmişdir.

Məhz Heydər Əliyevin qətiyyətli və uzaqgörən siyasəti nəticəsində reallaşan neft strategiyası ölkənin iqtisadi inkişafının qarantına çevrilməklə bu sahədə yeni bir mərhələnin əsasını qoydu. Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə yanaşı, Azərbaycan qazının dünya bazarına ixracının təmin olunması üçün Cənubi Qafqaz Boru kəmərinin inşasına başlanıldı ki, bu faktor da respublikanın öz enerji resurslarından səmərəli istifadəsini, ölkənin ümumi inkişafına xidmət edən və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin reallaşdırılmasını təmin etmək baxımından olduqca vacibdir. Beləliklə, Heydər Əliyevin Azərbaycan dövlətinin və xalqının uğurlu gələcəyini təmin edən uzaqgörən neft strategiyası, yaradılan neft-qaz sənayesi iqtisadi həyatın bütün digər sahələrinin, o cümlədən Türkiyə - Azərbaycan iqtisadi münasibətlərinin harmonik inkişafı baxımından vacib faktor oldu.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN SİYASİ İRSİNDƏ DÖVLƏT ANLAYIŞININ HÜQUQİ, MİLLİ-MƏNƏVİ VƏ ETİK XÜSUSİYYƏTLƏRİ

**Əntiqə Paşayeva**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq fəlsəfəsi şöbəsinin aparıcı elmi işçisi, fəl.ü.f.d., dosent*
*pashayeva.ph@mail.ru*

***"Dövlətçiliyimiz Azərbaycan xalqının milli əsərvətidir".***
***Heydər Əliyev***

Heydər Əliyevin siyasi irsində dövlət anlayışının hüquqi, milli-mənəvi və etik xüsusiyyətlərini tədqiq edərkən ilk olaraq dövlət anlayışına diqqət yetirməliyik. Çünki dövlət təkcə ictimai-siyasi bir qrum deyil, həm də milli-mənəvi dəyərləri, etik normaları özündə birləşdirən və qoruyan ümumibəşəri konsepsiyadır. *Dövlət anlayışı* dedikdə burada müəyyən torpaqda məskunlaşmış və müstəqilliyə malik olan insanlar toplusu nəzərdə tutulur ki, bunların hər biri dövlətçiliyin yaranmasında və formalaşmasında xüsusi fəaliyyət göstərirlər. Əgər mövzunu fəlsəfi aspektdə araşdırsaq, məlum olur ki, dövlət tarixi inkişaf yolu keçmiş ictimai-siyasi hadisədir; dövlətin funksiyası dəyişdikcə ona olan baxışlar da dəyişir; dövlət zaman və şəraitdən asılı olaraq daim dəyişir və fərqli formada yenilənir; dövlət, mərkəzləşdirilmiş ictimai-siyasi hakimiyyətə malik olan siyasi bir sistemdir. Həmçinin dövlətin yaranmasında təkcə ictimai kütlənin və qanunların olması kifayət etmir, çünki dövlət ictimai kütlədən ibarət sadə bir qurum deyil, bəlkə, bütün dövrlərdə yeni bir dəyərdir.

Dövlət anlayışını hüquq çərçivəsində təhlil estsək, ilk olaraq konstitusiyada təsbit olunmuş bəzi maddələrə baxmalıyıq. Məlum olduğu kimi, dövlət hər hansı bir fəaliyyətində qanunlara söykənir və bir qanunun kökündə milli-mənəvi dəyərlərlə yanaşı, həm də etik normalar mövcuddur. Burada xalqın suverenliyi (maddə 2), xalqı təmsil etmək hüququ (maddə 4), xalqın vahidliyi (maddə 5) və digər maddələr dövlətin əsaslarını, ictimai-siyasi məsələləri, milli-mənəvi dəyərləri və etik normaları əks etdirir. Dövlət anlayışında hüquqi müddəalarla yanaşı, həm də xalqımıza mənsub olan adət-ənənələr özünü göstərir.

Dövlət anlayışının hüquqi və etik xüsusiyyətlərindən bəhs edərkən burada digər mühüm məsələrdən biri də ölkədə yaşayan azsaylı xalqlardır. Onlar vahid coğrafi bir ərazidə yaşayan, milli adət-ənənələrini qoruyan, özünəməxsus kimliyə malik olan müxtəlif xalqlardır ki, dövlətin möhkəmlənməsində əzm nümayiş etdirirlər. Ulu öndər bu mühüm məsələyə xüsusi diqqət etmişdir: ***"Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öv töhfəsini verir".***

Nəticə olaraq demək olar ki, dövlət təkcə siyasi bir təşkilat deyil, bəlkə, hüquq, etika, milli-mənəvi dəyərlər və adət-ənənələr əsasında formalaşan ümumbəşəri ideyadır. Xalqımıza mənsub olan milli-mənəvi dəyərlərin, adət-ənənələrin çox qədim kökləri vardır və bu dəyərlər zaman keçdikcə daha da genişlənərək digər xalqlarda da təsir qoymuşdur.

# ZƏLİMXAN YAQUBUN "ƏBƏDİYYƏT DASTANI" POEMASINDA HEYDƏR ƏLİYEV ƏZƏMƏTİ

**Şəhla Məcidova**
*Şirvan şəhər 16 №-li tam orta məktəb*
*Azərbaycan dili və ədəbiyyat müəllimi, f.ü.f.d.*
*shahla.majidova@mail.ru*

Müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin bir daha şahidi oluruq. İntibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter almışdır. Ölkəmiz dünyada layiq olduğu mərtəbəyə Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir.

Vətəni, xalqı qarşısında misilsiz xidmətlərinə görədir ki, bu gün Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ölkəmizin hər yerində və onun hüdudlarından kənarda hər bir azərbaycanlının yüksək ehtiramı və dərin minnətdarlıq hissi ilə geniş qeyd olunur.

Heydər Əliyevin keçdiyi böyük, mənalı və şərəfli həyat yolu zaman və məkan anlayışına sığmır. Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişi Azərbaycanda həyat ritmini büsbütün dəyişdi, ölkədə görünməmiş canlanma və yüksəliş, tikinti-quruculuq işləri başlandı. Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində iqtisadiyyat, sənaye və kənd təsərrüfatında, mədəniyyət və təhsil sahəsində böyük uğurlar əldə edildi, çoxsaylı sənaye müəssisələri, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri inşa edildi, yeni yaşayış massivləri salındı, yollar tikildi, ucqar rayonlara qaz xətləri çəkildi.

Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ağır günlərdə xalqının iradəsinə tabe olan Heydər Əliyev ölkə rəhbərliyinə qayıdaraq müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli-azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı öz üzərinə götürdü. Bu, sözün əsl mənasında, «ömrümün qalan hissəsini də xalqıma bağışlayıram» deyib, meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi. Heydər Əliyev öz siyasi bacarığını, çoxillik idarəçilik səriştəsini əsirgəmədən xalqının firavanlığı və dövlətinin müstəqilliyi yolunda yorulmadan xidmətdə olduğunu bir daha sübut etdi.

Şübhəsiz ki, Heydər Əliyev dühasını, onun xalqımız qarşısında xidmətlərini sonadək öyrənmək qeyri-mümkündür. Ulu öndərimizin böyüklüyü, onun xalqımızın rifahı naminə həyata keçirdiyi mühüm tədbirlərin mahiyyətini tam dərk etmək üçün böyük zaman tələb

olunur. Zaman keçdikcə isə bu dahi insanın adı Azərbaycan xalqının simvoluna, əməlləri isə hünər rəmzinə çevrilir.

Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi Ulu Öndəri, dünyanın hörmətlə yanaşdığı və qəbul etdiyi Ümummilli lideri var. Tarixçilərimiz, şairlərimiz və yazıçılarımız onun haqqında sonsuz sayda əsərlər yazmış, bəstəkarlarımız mahnılar bəstələmişdir. Xalq şairi Zəlimxan Yaqubun "Əbədiyyət dastanı" poemasını Heydər Əliyev dühasının poetik ifadəsi adlandırsaq, yanılmarıq. Poemada Ümummilli liderin həyat və yaradıcılığı yüksək sənətkarlıqla təqdim edilmiş, Ulu Öndərin bədii portreti yaradılmışdır.

# TOLERANCE STRATEGY OF HEYDAR ALIYEV

**Elnur Hasanov**
*Scientific secretary of the Ganja Branch of Azerbaijan National Academy of Sciences*

In the modern world, which is characterized by complex processes, independent Azerbaijan stands out as a stable and secure state and is one of the main centers of multiculturalism. Today, multiculturalism is the state policy in Azerbaijan. The modern society of Azerbaijan is a society of open dialogue with representatives of other nations and religions, because multiculturalism in Azerbaijan is both a state policy and a way of life. In the light of the above, we emphasize that multiculturalism in Azerbaijan has deep historical roots and is closely connected with its mentality. In the state building of modern Azerbaijan, the role of multicultural models is significant, since multiculturalism in the Azerbaijani national culture was formed as a commitment to social etiquette, mutual respect, and tolerance towards subcultures living in the territory of Azerbaijan.

Azerbaijani model of multiculturalism is based on the principles of humanism. This is the policy of national solidarity. In the activities of the successor of the wise political course of National leader Heydar Aliyev, President of the Republic of Azerbaijan Ilham Aliyev, multiculturalism is the main paradigm of social and cultural development. By the orders of the President of Azerbaijan dated May 15, 2014, the Baku International Center for Multiculturalism was established, and dated January 11, 2016, 2016 was declared the Year of Multiculturalism in Azerbaijan.

The Supreme Commander of the Liberation Army of Azerbaijan, the President of our Republic, Ilham Aliyev, positions multiculturalism as a way of life in the Azerbaijani society. Thanks to the wise policy of our state, in 2020, our native lands in Karabakh were liberated from enemy occupation and a stable foundation for peace was laid in the South Caucasus.

Summarizing the system components of tolerant traditions and multiculturalism, some important elements can be noted:

1. State policy as the basis of multicultural processes in Azerbaijan;
2. Multiculturalism as a synthesis of national and universal;
3. A culture of tolerance is a product of a democratic society;
4. Multiculturally significant openness to the world community;
5. Multiculturalism determines the willingness to engage in dialogue within the framework of public policy;
6. Multiculturalism defines new processes of Azerbaijan's integration into the modern world;
7. Parity of civil rights;
8. Ensuring the security of a democratic state.

# HEYDƏR ƏLİYEV VƏ MÜASİR DÖVRDƏ AZƏRBAYCANIN ŞƏRQ ÖLKƏLƏRİ İLƏ DİPLOMATİK MÜNASİBƏTLƏRİ

**Yaqub Səmədov**
*ADPU-nun Ağcabədi filialı,*
*t.ü.f.d., müəllim*
*yaqub.semedov63@mail.ru*

Azərbaycan Respublikasının xarici siyasətinin konseptual əsasları 1995-ci ildə qəbul edilən Azərbaycan Konstitusiyasında öz əksini tapmışdır. 10-cu maddədə ölkəmizin digər dövlətlərlə münasibətlərinin beynəlxalq hüquq normalarında nəzərdə tutulmuş prinsiplər əsasında qurulması xüsusi olaraq qeyd olunur. BMT Nizamnaməsində və ATƏM-in Helsinki Yekun Aktında əks olunan əsas prinsiplər də ölkəmizin xarici siyasətinin əsasını təşkil edir. Bütün bunları nəzərə alan Ulu Öndər Heydər Əliyev dövlətimizin Şərq ölkələri münasibətlərinin başlıca prinsiplərini aşağıdakı şəkildə müəyyənləşdirdi:

- beynəlxalq hüquq normaları ilə tənzimlənən dövlətlərarası münasibətlərə hörmət etmək;
- bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmaq;
- bütün mübahisəli məsələləri sülh və danışıqlar yolu ilə həll etmək;
- qarşılıqlı surətdə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq qurmaq;
- dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətləri aradan qaldırmaq.

Heydər Əliyev son illərdə Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz və milli maraqlara zidd olduğunu vurğulayaraq bu siyasəti "özümüzün özümüzə vurduğumuz zərbə" adlandırırdı. Heydər Əliyev Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alaraq ölkənin mənafelərinin qorunması istiqamətində əməli addımlar atdı.

Heydər Əliyevin ölçülüb-biçilmiş yeni xarici siyasət kursunda Azərbaycanla qonşu olan Şərq ölkələri ilə, xüsusilə də müsəlman ölkələri ilə münasibətlərə xüsusi diqqət yetirilirdi. Yaxın qonşumuz İranla siyasi-ideoloji qarşıdurma, Türkiyə barəsində isə real şərait nəzərə alınmadan aparılan emosional siyasət dövlətlərarası münasibətlərə ciddi xələl gətirirdi, Azərbaycanın beynəlxalq mövqeyinə ciddi ziyan vururdu. Məhz buna görə də Heydər Əliyev çox təcrübəli siyasətçi kimi bu ölkələrlə münasibətlərdə tezliklə dönüş yaratmaq, qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə, beynəlxalq hüquq normalarına əsaslanan sivilizasiyalı münasibətlər qurmaq üçün böyük əmək sərf etməli oldu. Bu cür isti xarici siyasət xətti Şərqin digər qonşu ölkələri ilə, İslam dünyası ilə də quruldu. Dövlət başçısı Heydər Əliyevin İrana (29 iyun - 2 iyul 1994-cü il), Türkiyəyə (8-11 fevral 1994-cü il, ilk səfəri), Səudiyyə Ərəbistanına (9-13 iyul 1994-cü il) və Pakistana (9-11 aprel 1996-cı il) səfərləri, apardığı danışıqlar bu baxımdan diqqəti cəlb etdi. Xüsusilə 1994-cü ilin fevralında Heydər Əliyev Türkiyəyə ilk səfəri zamanı bu səfərin əhəmiyyəti haqqında belə demişdir: "Türkiyə və Azərbaycan qardaş dövlətdir. Azərbaycan müstəqillik qazanan zaman bu müstəqilliyi ilk tanıyan dövlət Türkiyə olmuşdur".

Şərq dünyasında xüsusi çəkisi olan, Türkdilli ölkələrin dövlət başçılarının 1994-cü ildə İstanbulda, 1995-ci ildə Bişkekdə, 1996-cı ildə Daşkənddə, 1998-ci ildə Astanada, 2000-ci ildə Bakıda, 2001-ci ildə İstanbulda keçirilən Zirvə görüşləri, həmin görüşlərdə Azərbaycanın iştirakı və bir sıra yığıncaqlara ev sahibliyi etməsi də Heydər Əliyevin Şərq siyasətinin uğurlarından hesab olunmalıdır.

Yuxarıda deyilənləri yekunlaşdırıb belə nəticəyə gəlmək olar ki, Heydər Əliyevin dövründə Azərbaycanın Şərq olkələri ilə əməkdaşlığının yeni təməl üzərində qurulması çox böyük tarixi əhəmiyyət kəsb edir və bu dövrün elmi baxımdan daha dərindən tədqiqinə zəruri ehtiyac vardır.

# ГЕЙДАР АЛИЕВ – МНОГОГРАННЫЙ ПАТРИОТ СОВРЕМЕННОГО НЕЗАВИСИМОГО АЗЕРБАЙДЖАНА

**Тахмина Агакишиева**
*доцент, доктор философии по философии*
*институт Философии и Социологии*
*НАНА*

*Мой герой — это моя совесть,*
*Я не хотел быть похожим ни на кого*
***Гейдар Алиев***

29 сентября 2022 года Президент Азербайджанской Республики Ильхам Алиев подписал Распоряжение об объявлении 2023 года «Годом Гейдара Алиева».

Ученый - азербайджановед, профессор Одри Алстадт, посетивший в то время Азербайджан, писал: «Гейдар Алиев, как и все сильные политические личности, мог вести людей за собой, как деловой, интеллигентный руководитель, он привнес новое дыхание в ослабленную экономику, добился роста авторитета Азербайджана».

Гейдар Алиев за время своего президентства создал колоссальную организационную, титаническую творческую работу, а также уникальное научное, теоретическое и духовное наследие. В наследии Гейдара Алиева особое место занимают любовь к Отчизне, любовь к азербайджанскому народу, чувство азербайджанства. Он считал все это духовным принципом для человека. «Для каждого человека его национальная принадлежность является источником гордости. Я всегда гордился и сегодня горжусь тем, что я – азербайджанец». Это высказывание великого политика выражают его идеологию азербайджанства, государственности, независимости и демократии. На самом деле, каждый азербайджанец должен гордиться своей родиной, такой, как Азербайджан. И каждый азербайджанец должен превозносить свою богатую историю, гордиться древней и богатой культурой. Наследие азербайджанцев – главная цель теоретического наследия Гейдара Алиева. Эту концепцию, как государственную идеологию он так выдвигает в своем глубоко содержательном выступлении в 2001 году на I съезде азербайджанцев мира: “После обретения государственной независимости Азербайджана, азербайджанство стало основной идеей для азербайджанцев, проживающих в Азербайджане и во всем мире. Мы должны всегда объединяться вокруг этой идеи”.

Сегодня это неоспоримо, что Азербайджан ассоциируется с именем Гейдара Алиева. Азербайджанский народ восхищается тем, что благодаря большому опыту Гейдара Алиева Азербайджан стал независимым государством. Благодаря именно Общенациональному Лидеру наша современная республика известна во всем мире своими неповторимыми нематериальными, национально - духовными ценностями и т.д.

Следует отметить, что в мае 2023 года азербайджанский народ с большой гордостью отметит 100-летие феноменального политика мирового масштаба, основателя независимого азербайджанского государства, выдающегося политического и государственного деятеля Гейдара Алиева. Необходимо констатировать тот факт, что Гейдар Алиев - уникальный пример для подражания в воспитании будущего поколения в духе патриотизма. Наследие общенационального лидера действенно не только как пример воспитания патриотизма, но и в организации дела, нацеленности на решение и преодоление любых трудностей. Его патриотизм всегда был просвещенным, основанным на знаниях, уважении достижений современной науки и культуры, направленным на развитие общности, но лишенным ненависти к другим странам и народам.

# МИГРАЦИЯ НАСЕЛЕНИЯ: ПОНЯТИЕ И СУЩНОСТЬ

**Нигяр Эйвазова**
*доктор философии по истории,*
*ведущий научный сотрудник*
*Института Истории НАНА им. А.А.Бакиханова*

Говоря о миграции населения, общенациональный лидер Гейдар Алиев, с присущей ему мудростью раскрывал суть этого процесса: «Миграция – естественный процесс, его невозможно пресечь, да и пресекать не надо. Она по своей сути носит положительный характер. Миграционные процессы в мире имеют отношение ко всем странам и народам» (газета «Республика» от 16 марта 2012 года). Испокон веков миграции населения играли решающую роль в исторической судьбе целых континентов, регионов, стран и народов (БСЭ, изд.2,т.27,с.409). «Миграции играли важную роль в заселении континентов, стран мира, и в формировании состава их жителей» (СИЭ,т.IX,с.419). В современной науке до сих пор среди ученых нет единого мнения о том, что же включает в себя понятие миграция (на сегодняшний таких определений около 40) (Юдина Т.Н. Миграция: словарь основных понятий; Москва, Издательство РГСУ, 2007, с.472). «Миграция» или «миграционные движения» означают совокупность перемещений, имеющих целью перенести место пребывания какого-либо лица (Многоязычный демографический словарь. Русское издание, ООН. Нью-Йорк,1964). Миграция населения складывается из миграционных потоков, понятие «миграция» употребляют в собирательном смысле, и во множественном числе - «миграции», международные миграции» (Демографический энциклопедический словарь. Москва: Советская энциклопедия, 1986, с.608). Российский академик Л.Л.Рыбаковский определяет миграцию как мобильность (от лат. Mobilis) или в русском аналоге – подвижность, и как движение, перемещение, переселение и т. д. (Рыбаковский Л.Л. Миграция населения: очерки теории и методов исследования. Москва: Академия, 2001, с.200).

Миграция населения – это один из видов мобильности, а именно пространственная мобильность , под миграцией население понимается совокупность переселения людей, т.е. их перемещений по территории, которые неразрывно связаны со сменой мест жительства на относительно определенный срок» - отмечает в своей монографии В.И.Переведенцев (Переведенцев В.И. Методы изучения миграции населения. Москва: Наука, 1975, с.231).

Применительно к теме миграции больше всего импонирует определение, данное видным российским ученым В.М.Моисеенко. В частности, он пишет следующее: «миграция – одна из форм движения населения, при которой перемена места жительства на более или менее значительное расстояние и время сопровождается общественно зна-

чимыми экономическими, социальными, демографическими и другими последствиями» (позитивными и негативными, явными и скрытыми, текущими и долгосрочными и. т.д.) (Моисеенко В.М.Миграция как объект комплексного исследования // Народонаселение: современное состояние и перспективы научного знания. Москва; 1997, с.23-30).

Изложенное позволяет дать определение понятия миграции населения. Миграция -любое территориальное перемещение, совершающееся между различными населенными пунктами одной или нескольких административно территориальных единиц, независимо от продолжительности, регулярности и целевой направленности.

# HEYDƏR ƏLİYEV VƏ TÜRK DÜNYASI

**Faidə Omarova**
*AMEA akad. Z.M.Bünyadov*
*adına Şərqşünaslıq İnstitutu, dissertant*

Tarixə nəzər salsaq görərik ki, hər xalqın, hər dövlətin həyatında adlarını qırmızı hərflərlə yaddaşlara yazdırmış şəxsiyyətlər olub. Azərbaycan tarixində, dövlətçiliyində də belə şəxsiyyətlər az olmayıb. Ancaq xüsusi yeri, xüsusi hörməti olan şəxsiyyət, unudulmaz insan, bütün dünyanın nəzərlərini daim özünə yönəltməyi bacaran dahi şəxsiyyət Heydər Əliyev olmuşdur.

Heydər Əliyev tək bir sahə ilə kifayətlənən insan olmayıb. Hər sahədə, hər mövzuda biz onun adına rast gələ bilərik. Həm siyasətdə, həm mədəniyyətdə, həm ədəbiyyatda, həm dilçilikdə və s. bu kimi digər sahələrdə öz izini qoymuş dahi şəxsiyyət Heydər Əliyevin əsas məqsədi, əsas amalı öz xalqını, öz dilini və vətənini bütün dünyada tanıtmaq, onu qorumaq idi. Heydər Əliyevin adı gələndə tək Azərbaycan dövləti deyil, bütün Türk dünyası fəxr hissi keçirir. Çünki o, türk oğlu idi.

Qeyd etdiyimiz kimi, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti tək Azərbaycanla məhdudlaşmayıb, bütövlükdə Türk dünyasını əhatə edir. Böyük tarixi şəxsiyyətin Türk dünyası ilə bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi mülahizələr elmi-nəzəri mükəmməlliyi ilə yanaşı, praktik perspektivliliyi ilə də böyük tarixi əhəmiyyətə malikdir. Ulu öndər Heydər Əliyev türk xalqlarının əlaqələrinin möhkəmlənməsi yolunda atılan bütün addımları yüksək qiymətləndirmiş, fəaliyyəti boyu müvafiq istiqamətdə keçirilən tədbirlərin təşəbbüskarı, təşkilatçısı, iştirakçısı olmuşdur. O, "Manas" dastanının 1000, böyük qazax şair-filosofu Abayın 150, Özbəkistanın böyük dövlət xadimi, Türk dünyasının böyük şəxsiyyəti Əmir Teymurun 660, qazax şairi A.Kunanbayevin 125, özbək yazıçısı M.Şeyxzadənin 70 illik yubileylərinin birlikdə, yaxud Azərbaycanda qeyd etmələrini böyük tarixi hadisələr kimi çox yüksək qiymətləndirmişdir.

Elm adamlarının H.Əliyev haqqında olan fikirlərini oxuduğumuz zaman bir daha görürük ki, H.Əliyev tək bizim deyil, bütün Türk dünyasının fəxr edəcəyi bir şəxsiyyət olmuşdur. Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun Heydər Əliyev kimi Ulu Öndəri, dünyanın hörmətlə yanaşdığı, qəbul etdiyi və bəlkə də, qibtə etdiyi Ümummilli lideri var. Bu gün hər birimiz çox yaxşı başa düşürük ki, müstəqil Azərbaycan dövləti bütün həyatı, fəaliyyəti, dünyadakı yeri və nüfuzu tariximizə qızıl hərflərlə həkk olunmuş Heydər Əliyevin şah əsəridir.

# TÜRK MƏFKURƏSİNİN QORUYUCUSU HEYDƏR ƏLİYEV

**Xanım Abdullayeva**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu,*
*Türk filologiyası şöbəsinin elmi işçisi*
*mehivaqo@mail.ru*

Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar var. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür.

Ədəbiyyata məhəbbət Heydər Əliyev siyasətinin ən dəyərli tərkib hissələrindən biri idi. Hələ sovet dönəmində S.Rüstəm, R.Rza, M.İbrahimov, S.Rəhimov kimi yazıçılara o zaman SSRİ-də ən yüksək fəxri adların verilməsi Heydər Əliyevin böyük xidməti, onun Azərbaycanın görkəmli sənətkarlarına yüksək qayğısı idi. O bununla milli ədiblərimizin və incəsənət xadimlərinin geniş şöhrət qazanmasına nail olurdu. Bəşəri düşüncəyə malik bu dahi şəxsiyyət istiqlal dövründə də Azərbaycan yazıçılarının əməyini yüksək qiymətləndirmişdir. Heydər Əliyevin mədəniyyət siyasətində ədəbiyyata bütöv bədii sistem kimi nəzər salınır, həmişə klassiklərlə müasirlər arasında tarixi-mənəvi əlaqələrin, varislik münasibətlərinin qorunmasına diqqət yetirilirdi. Elə buna görə də o, klassik bədii irsimizin dünya şöhrəti qazanması naminə bu irsi yaradanların yubileylərinin təntənəli tarixi hadisə kimi qeyd olunmasına həssaslıqla yanaşır, böyük önəm verirdi. Onun təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 70–80-ci illərdə dahi Nizaminin 840, Nəsiminin 600, M.F.Axundzadənin 170, böyük romantik, filosof şairi H.Cavidin 100 illik yubileyləri keçirilmişdir. "Kitabi Dədə-Qorqud"un 1300 illiyi, M. Füzulinin 500 illiyi ilə bağlı milli istiqlal məfkurəsi işığında keçirilən möhtəşəm tədbirlər Heydər Əliyev epoxasının mədəniyyət üzrə zirvə məqamları, Azərbaycan Prezidentinin milli-mənəvi keçmişə məhəbbət və ehtiramının, xalqın gələcəyinə inamının tarixi ifadəsidir. Ümumtürk ədəbiyyatı və mədəniyyətinin parlaq şəxsiyyətlərinə xüsusi diqqətlə yanaşması Ulu Öndərin türkçülük məfkurəsinin əsl qoruyucusu olduğunun bariz nümunəsi idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Hüseyn Cavidin 140 illiyinin qeyd edilməsi haqqında imzaladığı sərəncamda qeyd etdiyi kimi, “Ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Cavidin nəşinin 40 il öncə uzaq Sibirdən vətəninə gətirilməsi və məzarı üzərində məqbərənin ucaldılması adı sovet totalitarizminin günahsız qurbanlarının rəmzinə çevrilmiş sənətkarın və 1930-cu illərdə repressiyalara uğramış Azərbaycan ziyalılarının xatirəsinə ehtiramın ifadəsidir”.

Hələ sovet hakimiyyəti illərində pantürkist damğası ilə həbs edilmiş H.Cavidin nəşinin vətənə gətirilməsi təşəbbüsü ilə çıxış etmək və onu reallaşdırmaq türkçülük ideologiyasına verilən ən böyük töhfələrdən biri idi.

Uzaqgörən liderin milli dəyərlərimizə, türkçülük məfkurəsinin təbliğinə göstərdiyi diqqət bu gün də, gələcəkdə də dövlətçiliyimizin əsaslarının qorunmasına işıq tutur.

# VAHİD, BÜTÖV AZƏRBAYCANIN ÜMUMMİLLİ LİDERİ

**Fidan Nəsirova** *AMEA Z.*
*M. Bünyadov adına Şərqşünaslıq*
*İnstitutunun İran filologiyası şöbəsinin elmi işçisi*
*ORCID №* ***0000-0001-8178-7287***
*nasirova1975@list.ru*

Güney Azərbaycan məsələsi qəlbi Vətən eşqi, xalq sevgisi ilə döyünən hər bir insanımızın yaralı yeri, nisgil, həsrət qaynağıdır. XIX yüzilliyin əvvəllərində "imperialist qüvvələr"in əli ilə Azərbaycan xalqı öz etnik köklərindən fərqli iki yad millətin təsiri altında yaşamağa məhkum edildi. Beləcə, Azərbaycanın timsalında potensial gəlir mənbəyi, geo-siyasi arenada güc, nüfuz əldə edən bədxah "qonşular" qədim tarix, zəngin mədəniyyət və milli-mənəvi dəyərlərə sahib böyük bir ulusun manqurtlaşdırılması prosesinə start verdilər. Lakin  hər iki dövlətin daxili siyasətinin əsasını təşkil edən bu strategiyanın tarixin bütün dönəmlərində fiaskoya uğradığı məlum həqiqətlərdəndir. Bu gün də (200 il zaman məsafəsi ilə!) güneyimizdə azadlıq mücadiləsi fonunda baş verən proseslər, ruhunda mübarizə əzmi, genetik kodunda azadlıq eşqi çağlayan xalqımızın mənəvi qələbəsinin təzahürü kimi dəyərləndirilməlidir. Bu mənəvi qələbənin təməlində vahid Azərbaycan konsepsiyasının hər zaman aktuallığının qorunmasında, milli təfəkkürümüzün episentrində yer almasında müstəsna xidmətləri olan Ümummilli Liderimiz (bu mənada o taylı, bu taylı, ümummilli sözü necə də yerində işlədilmişdir) Heydər Əliyevin əməyi, səyləri ölçüyəgəlməzdir. Hələ totalitar sovet rejiminin senzurası altında, hakimiyyətinin birinci mərhələsində, taleyin hökmü ilə Vətəndən Vətənə mühacirət etmiş pənahəndələrə xüsusi diqqət və qayğının göstərilməsi, onların işlə, mənzillə təmin olunması, məişət problemlərinin həllİ kimi məsələlərlə əlaqədar büdcədən vəsaitin ayrılması, alim, yazıçı və şairlərə cənub mövzularının təbliğ-təşviqi istiqamətində şəraitin yaradılması, əsərlərinin nəşri, mühacir ziyalıların təltifi, fəxri adların verilməsi, yubileylərinin yüksək səviyyədə təşkili (dilçi alim Muxtar Hüseynzadənin 80,  Balaş Azəroğlunun 50, 60 illiyi) kimi çoxşaxəli  fəaliyyət sonrakı müstəqillik illərində yeni siyasi çalar, məzmun və mahiyyət qazandı. Sevindirici haldır ki, Ümummilli Lider ifadəsinin daşıdığı mahiyyəti haqqı ilə verən H. Əliyevin bu sahədəki fəaliyyətini onun layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyev cənabları əzmlə davam etdirir. Bütöv, müstəqil Azərbaycana hesablanmış bu sözlər də dediklərimizin bariz nümunəsidir: "Əlbəttə, onların təhlükəsizliyi, hüquqları, salamatlığı bizim üçün çox böyük əhəmiyyət kəsb edir. Biz taleyin hökmü ilə dövlətimizdən ayrı düşmüş azərbaycanlılara... kömək etmək, onların inkişafı, onların Azərbaycan dilini, Azərbaycan ənənələrini, Azərbaycan mədəniyyətini qoruyub saxlamaları, azərbaycançılıq prinsiplərinə sadiq olmaları və öz tarixi vətənləri ilə əlaqələri heç vaxt kəsməmələri üçün əlimizdən gələni edəcəyik".

# GƏNCLƏRİN İNKİŞAFINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ROLU

**Çinarə Xəlilzadə**
*AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya*
*İnstitutunun Albanşünaslıq Elmi Mərkəzinin böyük laborantı*
*xelilzade.cinare@mail.ru*

Bu gün gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar.

Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələr dəyişdikcə, gənclər qarşısında duran problemlər və onların həlli yolları da dəyişməyə başladı. Bütün bunları bilən Ümummilli liderimiz Heydər Əliyev gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaratdı. Nazirlik yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirməyə başladı. Bu siyasətin davamı olaraq 1996-cı il yanvarın 26-da Ulu Öndər Heydər Əliyevin imzaladığı Sərəncama əsasən, fevralın 2-də Azərbaycan Respublikası gənclərinin ilk forumunun keçirilməsi qərara alındı. Bu forumun keçirilməsi ilə dövlət siyasətində gənclərə diqqət, qayğı daha da artırıldı. Forum müstəqil Azərbaycan Respublikasının gəncləri qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsində ölkə gənclərinin hər bir sahədə fəal iştirak etməyə hazır olduğunu nümayiş etdirdi və gənclərlə işin nəzərəçarpacaq dərəcədə canlanmasına səbəb oldu.

Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir. Azərbaycanın gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılmasına da xüsusi diqqət yetirilir.

Ümummilli lider Heydər Əliyev həmişə gənclərimizə böyük ümidlər bəsləyirdi və dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir. Dövlətin gənclər siyasəti bu gün Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən yeni inkişaf mərhələsinə qaldırılıb. Gənclərin hərtərəfli inkişafı, mükəmməl təhsil alması, müxtəlif sahələr üzrə potensiallarının aşkar edilməsi, bacarıqlarının stimullaşdırılması üçün münbit şərait yaradılıb.

Gənclər siyasəti ilə bağlı görülən işlər bir daha onu deməyə əsas verir ki, bu gün ölkəmizdə vətənpərvər, milli-mənəvi dəyərlərə, Heydər Əliyev ideyalarına sadiq gənclik formalaşdırılır, bunun üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Bu isə gələcək inkişafımızın möhkəm əllərdə olacağına böyük əminlik yaradır.

# AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN PRİORİTETLƏRİ

**Zümrüd İmanova**
*AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Albanşünaslıq Elmi Mərkəzinin böyük laborantı*
*imanovazumrud544@gmail.com*

Dünyanın bir çox ölkələrində ümumi daxili məhsulun formalaşmasında, yeni iş yerlərinin yaradılmasında və əhalinin məşğulluğunun təmin edilməsində, xarici ticarət balansının aktivləşdirilməsində əhəmiyyətli rol oynayan turizmin ölkəmizdə inkişafı da məhz Ulu Öndər Heydər Əliyev dühasının bariz nümunəsidir.

Heydər Əliyev 1969-cu ildə Azərbaycan SSRİ Kommunist Partiyasının MK-nın birinci katibi seçildikdən sonra digər sahələr kimi insanların istirahətinin və rifahının təmin edilməsinə də xüsusi diqqət yetirdi.

Onun tapşırığı ilə 1970-ci ildə Zaqatalada və 1972-ildə Şuşa şəhərlərində turizm bazalarında yenidənqurma işləri başa çatdırılmışdır. 1971-ci ildə Xankəndində, 1972-ci ildə Mingəçevirdə ekskursiya büroları açılır. 1975-ci ildə Qəbələdə "Qafqaz" və Nabranda "Dostluq" turizm bazaları, elə həmin il Bakıda "Qarabağ" turist mehmanxanası istifadəyə verilir. Sonrakı illərdə də bu işlər davam etdirilərək 1978-ci ildə Naxçıvanda, 1980-ci ildə Lənkəranda, 1982-ci ildə Əli Bayramlıda (indiki Şirvan), Qazaxda və Şamaxıda səyahətlər və

ekskursiya büroları fəaliyyətə başlayır.

1970-ci illərdən başlayaraq daxili turizmlə yanaşı, xarici turizmin inkişafına da diqqət artırılır. 1973-cü ildə Bakı şəhərində ən böyük mehmanxana kompleksi olan 1042 yerlik "Azərbaycan" mehmanxanası, 1978-ci ildə isə 200 yerlik "Moskva" mehmanxanası tikilib istifadəyə verildi.

Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra kifayət qədər investisiya tələb edən turizmin tənəzzüldən çıxarılması və inkişafı üçün kompleks tədbirlər həyata keçirmişdir. Ulu Öndərin möhkəm təməl üzərində əsasını qoyduğu sosial-iqtisadi siyasət strategiyası nəticəsində Azərbaycanın maliyyə imkanlarının ildən-ilə yaxşılaşması turizm sahəsində də uğurlu islahatların aparılmasına imkan yaratmışdır.

Turizmin dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi turizm fəaliyyətinin məqsəd, prinsip və vəzifələrinə tam cavab verən yeni yanaşma tələb edirdi. Heydər Əliyevin tapşırığı ilə "Turizm haqqında" Azərbaycan Respublikası Qanunu hazırlandı və 1999-cı ildə Milli Məclis tərəfindən qəbul edildi.

Heydər Əliyevin sərəncamı ilə "2002-2005-ci illər üçün turizmin inkişafının Dövlət Proqramı" təsdiq edilmiş, turizmin normativ-hüquqi bazasının təkmilləşdirilməsi, turizm sahəsində çalışan sahibkarlığın, ilk növbədə, kiçik və orta sahibkarlığın inkişafı, mövcud turizm obyektlərinin yenidən qurulması ilə yanaşı, yenilərinin yaradılması, turizmin maddi-texniki bazasının möhkəmləndirilməsi və digər tədbirlər müəyyənləşdirilmişdi.

Beləliklə, tam məsuliyyətlə demək olar ki, Azərbaycan turizmi bu gün əldə etdiyi nailiyyətlərə görə dahi şəxsiyyətə Heydər Əliyevə borcludur. Turizmimiz Ümummilli liderin uzaqgörənliklə müəyyən etdiyi yolla inkişaf zirvəsinə doğru inamlı addımlarla irəliləyir.

**AZƏRBAYCAN RESPUBLİKASININ İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATI (2011-Cİ İLƏ QƏDƏR İSLAM KONFRANSI TƏŞKİLATI) İLƏ MÜNASİBƏTLƏRİ (1993-2003-CÜ İLLƏR)**

**Aynur Qasımova**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq*
*İnstitutunun baş direktorluq üçün baş mütəxəssisi*

Müasir dünyada beynəlxalq münasibətlər sisteminin ənənəvi aktorları hesab olunan milli dövlətlərlə yanaşı, eyni zamanda beynəlxalq təşkilatların da rolu getdikcə genişlənir. Hazırda beynəlxalq təşkilatlar mürəkkəb bir sistem təşkil edərək dövlətlərarası münasibətlərdə, xüsusən dünyada gedən siyasi proseslərdə özünəməxsus rol oynayırlar. Onların yaranması tarixi gerçəkliyin tələblərindən irəli gəlir və beynəlxalq səviyyədə qlobal məsələlərin, dövlətlərarası münasibətlərin tənzimlənməsinə əsaslı şəkildə təsir göstərir.

Belə təşkilatlardan biri də 1969-cu ilin 25 sentyabr tarixində Mərakeş Krallığının Rabat şəhərində müsəlman ölkələrinin dövlət və hökumət başçılarının konfransında qəbul edilmiş qərara əsasən yaradılmış İslam Konfransı Təşkilatıdır (İKT).

18 oktyabr 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra keçmiş sovet respublikalarından ilk olaraq İƏT-ə üzv olmaq barədə müraciət etmiş və 1991-ci ilin dekabrın 8-də İƏT-in Dakarda keçirilmiş dövlət və hökumət başçılarının 5-ci konfransında təşkilata tamhüquqlu üzv qəbul edilmişdir. Qeyd etmək lazımdır ki, 28-30 iyun 2011-ci il tarixlərində Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərində keçirilmiş İKT Xarici İşlər Nazirləri Şurasının 38-ci sessiyasında İslam Konfransı Təşkilatının adı İslam Əməkdaşlıq Təşkilatı adı ilə əvəz olunmuşdur.

1994-cü ilin may ayından etibarən Ümummilli Lider Heydər Əliyevin müvafiq sərəncamına əsasən, Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfirinə İKT Baş Katibliyi yanında Daimi Nümayəndə səlahiyyətləri verildikdən sonra Ər-Riyaddakı Səfirliyimiz vasitəsilə mənzil-qərargahı Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində yerləşən İKT Baş Katibliyi və onun müxtəlif qurumları, o cümlədən İslam İnkişaf Bankı ilə səmərəli iş aparılmağa başlanmışdır.

Ümummilli Lider Heydər Əliyevin 1994-cü ilin iyul ayında Səudiyyə Ərəbistanı Krallığına səfəri Azərbaycan Respublikası ilə İslam Konfransı Təşkilatı arasında əməkdaşlığın gələcək inkişafı üçün zəmin yaratmaqla yanaşı, eyni zamanda onun müqəddəs Kəbədə Ümrə ziyarəti, keçirdiyi məhsuldar görüşlər bütün İslam dövlətlərinin ölkəmizə maraq və diqqətini artırmışdır.

Ümummilli Liderin İKT Baş katibi ilə 1994-cü ilin noyabr ayında Bakıda keçirdiyi görüşlər, həmin ilin dekabrında İKT dövlət və hökumət başçılarının Kasablankada keçirilmiş VII Zirvə konfransında iştirakı nəticəsində “Ermənistan və Azərbaycan arasında münaqişə haqqında” siyasi qətnamə həmin ildən etibarən ənənəvi olaraq qəbul edilmişdir.

İKT dövlət və hökumət başçılarının müvafiq olaraq 1997-ci ildə Tehranda, 2000-ci ildə Dohada, 2003-cü ildə Butracayada keçirilmiş VIII, IX və X zirvə görüşlərində qəbul edilmiş qətnamələr də “Ermənistanın Azərbaycana qarşı təcavüzü” adlanır. Azərbaycan Respublikasının haqlı mövqeyinin dünya birliyinə çatdırılmasında bu qətnamələrin qəbul olunması çox mühüm rol oynamışdır.

Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ilə münasibətlərinin inkişafı ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir və mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası İslam Əməkdaşlıq Təşkilatının müxtəlif qurumları – ICESCO, İslam İnkişaf Bankı, İslam Konfransı Parlament İttifaqı, İslam Konfransı Gənclər Forumu və s. ilə sıx əməkdaşlıq edir və hal-hazırda Azərbaycan Respublikası İslam Əməkdaşlıq Təşkilatının ən aktiv və nüfuzlu üzvlərindən biridir.

# HEYDƏR ƏLİYEVİN ARXEOLOGİYA ELMİNƏ VERDİYİ DƏYƏR

**Elmira Abbasova**
*AMEA Arxeologiya, Etnoqrafiya*
*və Antropologiya İnstitutunun*
*Albanşünaslıq Elmi Mərkəzinin aparıcı elmi işçisi*
*abbasova1957@mail.ru*

***Xalq gərək daima öz kökünü xatırlasın.***

Azərbaycan ərazisi qədim tarixi, çoxsaylı maddi mədəniyyət qalıqları və möhtəşəm memarlıq abidələri ilə zəngin olan sivilizasiya ocaqlarından biridir. Azərbaycanın ərazilərində müxtəlif dövrlü abidələrdə aparılan arxeoloji tədqiqatlar nəticəsində tapılmış maddi mədəniyyət nümunələri, ostoloji qalıqlar qədim insanların meydana gəlməsi, yaşam tərzi və formalaşması tarixini öyrənmək baxımından olduqca aktual məsələlərdən biridir.

İstər Sovet, istərsə də müstəqillik illərində Azərbaycan Respublikası ərazində aparılan arxeoloji tədqiqatların böyük bir hissəsi Heydər Əliyevin adı ilə bağlıdır. Bu da Heydər Əliyevin Azərbaycan tarixinə və elminə verdiyi əvəzsiz dəyərlərdən irəli gəlir. Çoxsaylı yerli arxeoloq kadrların arxeologiya sahəsində müstəqil işləmələrini nəzərə alaraq, 1974-cü ildə Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun tərkibində arxeologiya və etnoqrafiya sektoru təşkil edilməsi üçün sərəncam vermişdir.

Uzunmüddətli arxeoloji qazıntı tədqiqatlar Qafqaz Albaniyasının paytaxtı Qəbələ şəhər ərazisində aparılmışdır və bu gün də aparılmaqdadır. Arxeoloji məktəbdə arxeologiya elmində tanınmış çoxsaylı arxeoloq alimlərimiz yetişdilər. Həmin məktəbin yetirmələri olan alimlərimizdən Qara Əhmədov, Firudin Qədirov, İlyas Babayev, Qafar Cəbiyev və digərləri Qəbələnin müxtəlif dövrlü yaşayış yerlərində arxeoloji qazıntılar aparmışlar.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci ildə imzaladığı fərman əsasında “Mədəniyyət haqqında”, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” və digər qanunlar həyata keçirildi. 2001-ci il avqust ayının 2-də isə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən mühafizə olunan yerli və beynəlxalq əhəmiyyətli tarix və mədəniyyət abidələrinin siyahısı təsdiqini tapdı.

2000-ci ildə əsası Heydər Əliyev tərəfindən qoyulmuş Bakı – Tbilisi – Ceyhan neft kəmərinin tikintisi ilə əlaqədar olaraq kəmərin çəkilişi boyunca olan ərazilərdə aparılmış arxeoloji tədqiqatları zamanı arxeologiyanın müxtəlif dövrlərinə aid çoxsaylı yeni abidələr tapılaraq tədqiq edildi və xəritələşdirildi. Şirvanşahlar saray kompleksi, Möminəxatun türbəsi, Nizami Gəncəvinin məqbərəsi, İçəri şəhər abidələr kompleksi, Şabran şəhəri və digərləri belə abidələr sırasında olanlardır. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi (18 oktyabr 1991-ci il) bərpa olunduqdan sonra azərbaycanlı arxeoloqlar əcnəbi həmkarları ilə birlikdə Azərbaycanın müxtəlif ərazilərində arxeoloji tədqiqatlar apardılar.

# AZƏRBAYCAN VƏ İƏT ƏLAQƏLƏRİNİN FORMALAŞMASINDA MƏRHUM HEYDƏR ƏLİYEVİN ROLU

**Samid Bağırov**
*AMEA akad. Z.M.Bünyadov adına
Şərqşünaslıq İnstitutu, Ərəb ölkələri tarixi
və iqtisadiyyatı şöbəsinin elmi işçisi*

Azərbaycan istiqlaliyyətini əldə etdikdən sonra ordu quruculuğu və xalq müqavimət ruhiyyəsinin sosial bazası ilə yanaşı, diplomatik səylər də xüsusi önəm kəsb edib. Xüsusilə də Azərbaycan xalqının tərkib hissəsi olduğu müsəlman dünyası müstəvisində aparılan işlər, demək olar ki, öz bəhrəsini vermiş oldu. Bu istiqamətdə müasir Azərbaycanın qurucusu olan mərhum Heydər Əliyevin müsəlman dünyası ilə bağlı siyasəti ana xətt hesab edilib. İslam dünyasının ən böyük beynəlxalq təşkilatı olan İslam Əməkdaşlıq Təşkilatı ilə əlaqələrin formalaşdırılması daha çox Ulu öndərin zamanına təsadüf edib. Məhz bunun nəticəsi idi ki, Azərbaycan xalqı ikinci Qarabağ müharibəsi dövründə "İslam Əməkdaşlıq Təşkilatı"nın, təşkilatın Gənclər Forumunun, "Ərəb Dövlətləri Liqası", müsəlman ölkələrinin fəal olduğu "Qoşulmama Hərəkatı"nın dəstəyini, habelə müsəlman ölkələrinin böyük əksəriyyətinin siyasi dəstəyini görmüş oldu.

Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı öhdəsinə beynəlxalq məsuliyyət götürən ATƏT-in Minsk Qrupunun xristian üzvləri BMT-nin dörd qətnaməsinə baxmayaraq, ötən illərdə heç bir addım atmamışdı və bu məqam mərhum Heydər Əliyevin diqqətindən qaçmamış və o dəfələrlə Azərbaycana qarşı ikili standartlı siyasətin səbəbini ölkənin müsəlman olmasında görmüşdü.

Buna görə idi ki, müstəqilliyin ilk illərindən başlayaraq, xüsusilə də mərhum Heydər Əliyevin dövründə İƏT-lə münasibətlər daha da möhkəmləndirildi. Həmin zaman Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair müddəalar İƏT ali orqanı – üzv ölkələrinin dövlət və hökumət başçılarının zirvə görüşlərində qəbul olunmuş bir sıra sənədlərdə öz əksini tapmışdı. Onların içində 13-15 dekabr 1994-cü ildə Kasablanka şəhəri, Mərakeş Krallığında keçirilmiş İƏT-nın Yeddinci Zirvə Görüşünün sənədlərini və 9–11 dekabr 1997-ci ildə Tehran şəhərində keçirilmiş İƏT-nın Səkkizinci Zirvə Görüşünün sənədlərini, 2000-ci ilin 12–13 noyabr tarixində Qətərin Doha şəhərində keçirilmiş İƏK Doqquzuncu Zirvə Görüşündəki qəbul edilmiş qərar və qətnamələri misal gətirmək olar.

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN VƏ QAZAXISTAN RESPUBLİKALARI ARASINDAKI MÜNASİBƏTLƏRDƏ ROLU

**Dilbər Hüseynli**
*AMEA akad. Z.M.Bünyadov*
*adına Şərqşünaslıq İnstitutu,*
*Mərkəzi Asiya ölkələri şöbəsinin elmi işçisi*

Müstəqillik əldə edildikdən sonra postsovet məkanının türkdilli dövlətləri arasında münasibətlər inkişaf etməyə başladı. Dövlətçilik ənənələrinə sahib olmayan Mərkəzi Asiya dövlətləri etnik baxımdan yaxın olan Azərbaycanla münasibətlər qurmağa başladı. Heydər Əliyev hakimiyyətə gəldiyi gündən etibarən bu dövlətlərlə yaxın münasibətlər qurmağa çalışmışdır. Dövlət başçısı kimi çıxdığı ilk rəsmi səfərlərdən biri də məhz Qazaxıstan Respublikasına olmuşdur. Qazaxıstanda söylədiyi tarixi nitqlərindən birində "...Azərbaycan arasında tarixi ənənələr, dostluq və qardaşlıq əlaqələri əsrlər boyu mövcud olmuşdur. Biz əsrlər boyu bir yerdə yaşamışıq, bir adət-ənənələrdən istifadə etmişik və bir-birimizə həmişə kömək etmişik. Müstəqil olmadığımız 70 illik bir dövrdə də, sovetlər birliyinin tərkibində olduğumuz vaxtda da ölkələrimiz arasında, yəni Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında dostluq, qardaşlıq əlaqələri həmişə sıx olub, həmişə çox möhkəm olubdur və biz bir-birimizə həmişə dayaq olmuşuq" kimi fikirlər öz əksini tapmışdır. Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında diplomatik əlaqələr SSRİ dağıldıqdan bir müddət sonra, 1992-ci il avqustun 30-da quruldu. Bununla da, Azərbaycanla Qazaxıstan arasındakı münasibətlərdə yeni səhifə açıldı.

Qazax şairi, yazıçısı, ictimai xadimi Abay Kunanbayevin 150 illik yubileyi münasibətilə Qazaxıstanda keçirilmiş tədbir zamanı prezident Heydər Əliyev Abay Kunanbayevin yaradıcılığını yüksək qiymətləndirmiş və qazax xalqının da yazıçının irsinə olan dərin sevgisindən söz açmışdır. Heydər Əliyev Qazaxıstanın dövlət başçısının şərəfinə verilmiş ziyafətdə qonaqları salamlamış və çıxışında tarixi keçmişimizi, xalqlarımızın dərin tarixi köklərini, dilimizin, dinimizin, ənənələrimizin ümumiliyini nəzərə alaraq, həmçinin əsrimizin əvvəlindən etibarən Qazaxıstan ilə Azərbaycan arasında iqtisadi münasibətlərin inkişaf etdiyini əsas tutaraq Qazaxıstanla münasibətlərə böyük əhəmiyyət verdiyini bildirmişdir. İndi, Qazaxıstan və Azərbaycan müstəqil, suveren dövlətlər olduğu bir vaxtda münasibətlərimizin keyfiyyətcə yeni xarakter kəsb etməsindən və bu münasibətləri dərinləşdirmək, inkişaf etdirmək üçün böyük imkanlarımızın və ehtiyatlarımızın olduğundan söz açmışdır. Heydər Əliyev hər zaman Qazaxıstan və digər Mərkəzi Asiya dövlətləri ilə münasibətlərimizin perspektivlərinin geniş olduğunu və soykökü eyni olan bu dövlətlər arasında münasibətlərə böyük ümidlər bəslədiyini qeyd etmişdir. Türkdilli dövlətlərlə münasibətlərə çox önəm verən Heydər Əliyevin siyasi kursunu hal-hazırda bu dövlətlərlə sıx əlaqələr qurmuş prezident İlham Əliyev uğurla davam etdirir.

# HEYDƏR ƏLİYEV DÖVRÜNDƏ CƏNUBİ KOREYA-AZƏRBAYCAN ƏMƏKDAŞLIĞI

**Ceyhun Mürşüdzadə**
*AMEA akad. Z.M. Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu, kiçik elmi işçi*

Ulu Öndər Heydər Əliyev görkəmli dövlət xadimi və dünya səviyyəli siyasətçi idi. Azərbaycanın 1960-cı illərin sonlarından XXI əsrin əvvəllərinə qədər olan dövrü əhatə edən 35 illik tarixi bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyev respublikaya rəhbərlik etdiyi bütün illər ərzində ölkəmizin məsuliyyətini öz üzərinə götürmüş, həmfikirlərini ətrafında birləşdirmiş və onlarla birlikdə çətin və ciddi maneələri dəf edərək güclü müstəqil dövləti - müasir Azərbaycanı yaratmışdır.

Sovet İttifaqının dağılması ilə Azərbaycan xalqı öz müstəqilliyini bərpa etmək, dövlətçiliyi inkişaf etdirmək və möhkəmləndirmək üçün tarixi şans əldə etdi. 1993-cü ildə Ümummilli lider Heydər Əliyevin prezident seçilməsindən sonra xalqın rifahının və ölkənin davamlı inkişafının ilkin şərti olan Azərbaycanın müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi istiqamətində uğurlu strategiya həyata keçirilməyə başlandı. Müasir müstəqil Azərbaycanın memarı və yaradıcısı, Ümummilli lider Heydər Əliyev dövlət təsisatlarını təkmilləşdirdi, xarici əlaqələri genişləndirdi, hərtərəfli enerji strategiyasını həyata keçirdi və ölkənin uzunmüddətli inkişafının əsasını qoydu. Ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə yönəlmiş strategiyası hazırda onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycanın xarici siyasətində həmişə Şərqi Asiya ölkələrilə ənənəvi dostluq münasibətlərinin möhkəmləndirilməsi strategiyası xüsusi yer tutub. Məhz müdrik və uzaqgörən siyasətçi Heydər Əliyev Şərqi Asiya ölkələrinəxüsusi rəğbət bəsləyirdi və bu baxımdan da Şərqi Asiya ölkələri ilə münasibətlərin inkişafına xüsusi önəm verirdi.

Azərbaycan ticarət yollarının və sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişmə nöqtəsi kimi ənənəvi olaraq dünya siyasətində mühüm rol oynayan regionda yerləşir. Azərbaycanın geosiyasi əhəmiyyəti onun strateji yerləşməsi ilə bağlıdır. Sovet İttifaqının dağılmasından qısa müddət sonra Azərbaycan və Koreya münasibətləri rəsmi çərçivədə davam etməyə başladı.

Son illər Koreya Respublikası ilə postsovet məkanı ölkələri arasında iqtisadi əməkdaşlıq bir çox sahələrdə geniş vüsət alır. Azərbaycan da Koreya Respublikası ilə əlaqələrin inkişafında maraqlıdır, çünki bu, ölkənin şərqində sosial-iqtisadi dirçəlişi gücləndirəcək. Bölgədə iri neft və qaz hasilatı mərkəzlərinin formalaşması Azərbaycanın enerji təchizatının coğrafiyasını genişləndirəcək, sürətlə böyüyən Asiya bazarına daxil olmağa və dövlətin xarici siyasət və iqtisadi mövqelərinin möhkəmlənməsinə kömək edəcək. Bu kontekstdə Koreya Respublikası Azərbaycan üçün mühüm iqtisadi tərəfdaşlardan biridir.

# HEYDƏR ƏLİYEV DÖVRÜ - AZƏRBAYCAN VƏ HİNDİSTAN ƏMƏKDAŞLIĞININ ZİRVƏSİ

**Əzizə Gülümcanlı**
*AMEA akad. Z.M.Bünyadov*
*adına Şərqşünaslıq İnstitutu,*
*kiçik elmi işçisi*

Azərbaycanla Hindistan arasında əlaqələr daha qədim tarixə gedib dayanır. İki ölkə arasındakı uzaq məsafəyə baxmayaraq, keçmiş dövrlərdən bəri hind tacirləri, dindarları və səyyahları ölkəmizin müxtəlif bölgələrinə səyahət etməkdən, ticarət etməkdən çəkinməmişlər. Bildiyimiz kimi, hind mədəniyyəti dünyanın ilk sivilizasiyalarından biri kimi tanınır. Bu mədəniyyətlə ünsiyyətdə olmaq, onun incəliklərinə yaxınlaşmaq Azərbaycan üçün də həmişə maraqlı olmuşdur. Bir çox mənbələrdə XVIII əsrdə Hindistandan Suraxanıda yerləşən əbədi oda sitayiş üçün hind zəvvarlarının gəldiyi məsələlərinə də toxunulur və həmçinin qeyd olunur ki, həmin əsrdə varlı hind tacirləri Suraxanıda od məbədi və hindli zəvvarlar üçün hücrələr tikdirmişlər.

XX əsrdən etibarən Hindistan Azərbaycanla münasibətlərinin yeni mərhələsinə qədəm qoyur. 1920-ci ilin sentyabrında Bakıda keçirilən Şərq xalqlarının birinci qurultayında Hindistandan olan nümayəndə heyətinin iştirakı bu əlaqələrin varlığından xəbər verir. Bu illər ərzində iki dövlət arasında yalnız mədəni əlaqələrin qurulması prosesini izləmək olar. II Dünya müharibəsinin bitməsi və Hindistanın müstəqillik əldə etməsi ilə SSRİ - Hindistan əlaqələri artıq siyasi müstəviyə keçid prosesinə başlayır. Hindistandan gələn elm, siyasət adamlarının ölkəmizə səfərləri, o cümlədən bizim ölkəmizin də ictimai-siyasi xadimləri, elm adamlarının Hindistana səfərləri əlaqələrin inkişaf tempinə müsbət təsir göstərmişdir.

Azərbaycan Respublikasının müstəqilliyi bərpa olunanadək artıq ölkəmizlə Hindistan arasında qarşılıqlı yaxınlıq mövcud idi. Hindistan Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən biridir. (26 dekabr 1991-ci il)

İki ölkə arasında əlaqələrin sürətli inkişafı Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövrünə təsadüf edir. Hindistanla diplomatik əlaqələr 1992-ci il fevralın 28-dən qurulmuşdur. Azərbaycanın diplomatik missiyası Hindistanda 2004-cü ildən fəaliyyətinə başlamışdır. Ötən illər ərzində hər iki dövlət rəsmiləri qarşılıqlı surətdə Bakıda və Dehlidə rəsmi və işgüzar səfərlərdə olmuş, dövlətlərarası sənədlər imzalamışlar. Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövrünü Azərbaycan və Hindistan ələaqələrinin zirvəsi kimi qiymətləndirsək daha doğru olar. Çünki bu dövrdə iki ölkə arasında əlaqələrin yüksək səviyyədə inkişaf dinamikası gözə çarpırdı. Azərbaycanla Hindistan arasında müxtəlif sahələrdə əməkdaşlığa dair 10 saziş imzalanmışdır. Nəticə olaraq belə qənaətə gəlmək olar ki, ölkələrimiz arasında iqtisadi, siyasi, mədəni, eləcə də digər sahələrdə əməkdaşlığın inkişafı üçün kifayət qədər hüquqi baza mövcuddur.

# H.ƏLİYEVİN RƏHBƏRLİYİ DÖVRÜNDƏ AZƏRBAYCAN-YAPONİYA ƏLAQƏLƏRİ

**Afaq Nərimanova**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun Asiya-Sakit*
*okean regionu ölkələri şöbəsinin kiçik elmi işçisi*

Yaponiya ilə mədəni, iqtisadi, diplomatik əlaqələrin qurulması Azərbaycanın beynəlxalq əlaqələr tarixində mühüm əhəmiyyət kəsb edir. Azərbaycan müstəqilliyinə qovuşduqdan sonra gündoğar ölkə ilə diplomatik əlaqələr 7 sentyabr 1992-ci ildə quruldu. 28 dekabr 1991-ci ildə Yaponiya dövləti Azərbaycan Respublikasının müstəqilliyini tanıdı. 7 sentyabr 21 yanvar 2000-ci il tarixində Yaponiyanın Azərbaycan Respublikasındakı səfirliyi təsis edildi. 2005-ci il oktyabrın 12-də isə Azərbaycan Respublikasının Yaponiyadakı səfirliyi fəaliyyətə başladı.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin gündoğar ölkəyə səfərindən sonra iki ölkə arasında fəal siyasi dialoq formalaşdı. Bu səfər ikitərəfli əlaqələrin inkişafında, Azərbaycanla Yaponiya arasında siyasi dialoqun qurulmasında və inkişafında xüsusi rol oynadı. İki ölkə arasında müxtəlif sahələri əhatə edən əlaqələr əməkdaşlığın daha da dərinləşməsinə təkan verdi.

23 fevral 1998-ci ildə müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq dövlət başçısı kimi Tokioya yola düşən Ulu Öndər orada müvafiq dövlətlərarası sazişin imzalanmasına nail oldu. Azərbaycan Prezidenti və Yaponiyanın Baş naziri iki mühüm sənəd – Yaponiya ilə Azərbaycan arasında dostluq, tərəfdaşlıq, ticarət və iqtisadiyyat sahəsində əməkdaşlıq haqqında birgə bəyanat imzaladılar. Bu sənədlərdə iki ölkə arasında bütün sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsinin əsas prinsipləri və istiqamətləri öz əksini tapdı. Səfər çərçivəsində qarşılıqlı məsləhətləşmələr haqqında Yaponiyanın və Azərbaycanın xarici işlər nazirlikləri arasında saziş, "Şimal" elektrik stansiyasının tikintisi üçün 20,7 milyard yen məbləğində kredit ayrılması barədə Yaponiya Xarici İşlər Nazirliyi ilə Azərbaycan hökuməti arasında saziş, Azərbaycana təmənnasız olaraq 400 milyon yen məbləğində yardım verilməsi haqqında müqavilələr imzalandı. "Azərikimya" Dövlət Şirkətində etilen istehsalı zavodunun tikintisi üçün Azərbaycan hökumətinin təminatı altında kredit ayrılması haqqında Yaponiyanın "Eksimbank"ı ilə saziş imzalandı. Hələ respublikaya rəhbərlik etdiyi 1970-75-ci illərdə Heydər Əliyev özünün təşəbbüsü ilə Bakıda Kondisioner zavodunun, Sumqayıtda isə Kompessorlar zavodunun əksər avadanlığının Yaponiyadan alınmasına nail olmuşdu və o vaxtdan etibarən onun gündoğar ölkənin rəhbərliyi, nüfuzlu şirkət rəhbərləri ilə işgüzar, səmimi münasibətləri vardı.

Heydər Əliyev Tokioda olarkən respublikamızın digər sahələrinin inkişafı üçün də səmərəli danışıqlar apardı. İki ölkə arasında hərtərəfli əlaqələrin inkişafı bu gün də uğurla davam etdirilir.

# HEYDƏR ƏLİYEV İRSİNDƏ MULTİKULTURALİZM SİYASİ-KONSTİTUSİONAL PRİNSİP KİMİ

**Şövqiyyə İsmayılzadə**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*

Tarixin inkişaf dövrlərində bəzən etnik qruplar yaşadıqları coğrafiyada müəyyən xalqlarla birgə yaşamış müəyyən şərtlər daxilində mənəvi, sosial, siyasi, iqtisadi və hətta coğrafi asılılığa məhkum edilmişdir. Tarixi sferada artıq çoxmillətli cəmiyyətlər sosial həyatın ayrılmaz hissəsinə çevrilmiş və multikultural cəmiyyət, dünya vətəndaş müharibələrinə qarşı dini dözümsüzlük, irqçilik, ksenofobiya kontekstlərindən istifadə edilmiş regional və qlobal miqyasda aktual problemlər kimi nəticələrin yaratdığı problemləri həll etməyin ən uyğun yolları araşdırılmışdı.

Müasir Azərbaycan cəmiyyətinin sosial və mədəni müxtəlifliyinin artması ümumbəşər dəyər konteksində öz mədəniyyətinin heterogen əsaslarına, bununla yanaşı, digər mədəniyyətlərə münasibət, hər bir mədəniyyətin əsaslarının mütəaddidliyinin (çoxluq və müxtəlifliyinin) etirafını nəzərdə tutan multikulturalizm probleminin mədəni və fundamental fəlsəfi təhlilinin zəruriliyi ilə müəyyən edilir. Azərbaycanda multikulturalizm və tolerantlıq ənənəsində Sovet İttifaqının dağılmasını nəzərə alaraq, keçmiş sovet respublikaları, minlərlə azərbaycanlının həyatına son qoyan erməni təcavüzü, bir milyondan çox qaçqın, Azərbaycan ərazilərinin 20%-nin itirilməsi, Xocalı soyqırımı əsl sınaq olmuşdu. Bütün bu hadisələrin şövqündə tolerantlıq ənənəsində ola biləcək maneələrin qarşısını Ulu öndərin hakimiyyətə qayıdışı almışdı. Müxtəlif mədəniyyətləri özündə birləşdirən çoxkonfessiyalı cəmiyyəti idarə etmənin dünyanın siyasi səhnəsində ideal nümunəsi məhz Ulu öndər Heydər Əliyev olmuşdur. Multikultural bir cəmiyyət vahid məkanda mövcud olan müxtəlif mədəniyyətləri birləşdirdiyi üçün istənilən multikultural cəmiyyətin milli inkişafı bir sıra problem və çətinliklərlə üzləşir. Bütün təcrübələr göstərir ki, postsovet məkanında gedən ziddiyyətli və mürəkkəb geosiyasi proseslər suveren ölkələrdə gözlənilməz, bəzi hallarda isə tamamilə riskli situasiyaların yaranmasına səbəb olur. Azərbaycan reallığında multikulturalizm elmi-nəzəri əsaslarına dərindən yiyələnən, onun inkişaf perspektivlərini bilən Ümummilli lider Heydər Əliyev yaxşı başa düşürdü ki, Azərbaycan təkcə Azərbaycan mədəniyyətinin ənənələrini daşımır, həm də Azərbaycan cəmiyyətində multikulturalizm fenomeninin refleksiv dərk edilməsinə ehtiyac yaradır. Ulu öndərin dəqiq ideoloji hədəfinin nəticəsi olaraq, ölkədə multikulturalizm və tolerantlıq təkcə dövlət siyasəti deyil, eyni zamanda alternativi olmayan, müxtəlif dini etiqad nümayəndələrini özündə birləşdirən həyat tərzinə çevrilib. Müasir Azərbaycanda millətlərarası və konfessiyalararası münasibətlər sahəsində siyasətin həyata keçirilməsinin əsası kimi istifadə olunan multikulturalizm termini tamam başqa məna daşıyır. “Azərbaycana olan marağım bu ölkənin tarixini tədqiq etməyə məni sövq edib” sözlərinin

müəllifi olan rus tədqiqatçısı A.Q.Nesterovun qeyd etdiyi kimi, Azərbaycan multikulturalizm anlayışı yalnız “ənənəvi” multikulturalizmlə əlaqələndirilə bilər, onun çərçivəsində müəyyən bir ərazidə tarixən qurulmuş millətlərarası və konfessiyalararası münasibətlər təhlil edilir.

Respublikamız mədəni kimliyin qorunması baxımından tarixən birgə yaşayan xalqların, toplumların, fərqli millətlərin nümayəndələrinin qarşısındakı maneələri aradan qaldırmaq, onların cəmiyyətin resurslarına və imkanlarına bərabər çıxışını təmin etmək  yolunda uzun bir yol qət edib. 1994-cü ildə İstanbulda keçirilən "Sülh və səbir" adlı beynəlxalq dini konfransdakı çıxışında "Azərbaycanın vətəndaşları dini, irqi, siyasi, dil mənsubiyyətindən asılı olmayaraq, hamısı eyni hüquqa malikdir və onların hüquqları Azərbaycan dövləti tərəfindən qorunur və mühafizə olunur. Siz əmin ola bilərsiniz ki, biz bu məqsədlərimizə, bu prinsiplərimizə daim sadiq olacağıq və gələcəkdə də Azərbaycan vətəndaşlarının dini mənsubiyyəti, yaxud dil mənsubiyyəti, siyasi mənsubiyyətindən asılı olmayaraq, bir-biri ilə münaqişəyə girməsinə yol verməyəcəyik" deyən  Heydər Əliyev Azərbaycanın gələcək uğurlu və perspektivli inkişafı üçün dəqiq ideoloji hədəf seçmişdi. Əsl demokratizm prinsiplərinə əsaslanan yeni dövlət quruculuğunun həyata keçirilməsi kontekstində ciddi multimədəni prinsiplərə söykənən adekvat etnik-siyasi mühitin və yüksək təşəkküllü tolerant münasibətlər sisteminin yaradılmasını dövlətin və cəmiyyətin tarixi vəzifəsinə çevirən Heydər Əliyev 1994-cü il sentyabrın 29-da BMT Baş Məclisinin sessiyasındakı çıxışında demişdir: “Respublikamızda artıq çoxpartiyalı sistem mövcuddur, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri möhkəm bərqərar olmuşdur. Dərisinin rəngindən, din və dil mənsubiyyətindən asılı olmayaraq, çoxmillətli Azərbaycanın bütün vətəndaşları bərabər hüquqlardan istifadə edirlər. Qarşımızda duran ən mühüm vəzifə konstitusiyanın əsas prinsiplərini dərindən mənimsəmək, respublika həyatına tətbiq etmək və onun verdiyi təminatları reallaşdırmaqdan ibarətdir”. Təbii ki, bizə məlum məsələlərdəndir ki, dövlət gözlə görünən azlıqları çoxluq qrupa inteqrasiya etmək üçün müxtəlif addımlar atmalı, müəyyən edilmiş siyasət yürütməli və həmin siyasət insanların gündəlik həyat tərzinə təsir göstərməlidir. Məhz bu yolda Ulu öndərin rəhbərliyi ilə hazırlanan və 12 noyabr 1995-ci ildə referendum yolu ilə, demokratik tərzdə ümumxalq müzakirəsinə çıxarılmaqla qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında da multikulturalizm siyasətinin əsasını təşkil edən multikultural cəmiyyətdə tolerantlığın təmin edilməsi və konfliktlərin aradan qaldırılması aydın şəkildə təsbit edilmişdir. 1995-ci ildə qəbul edilmiş milli ideologiyanın rəsmi ifadəsi olan Konstitusiya bütün xalqı birləşdirən ideyadır. Heç şübhəsiz, xalqın milli dəyər oriyentasiyalarının əsas mahiyyətlərindən biri məhz dövlətçilikdir. Bu baxımdan Azərbaycan Respublikasının Konstitusiyasının  milli mənsubiyyət hüququnun qorunması və  inkişaf etdirilməsi maddə  44, ana dilindən istifadə hüququ maddə  45, hər kəsin fikir və söz azadlığı isə 47-ci maddə ilə tənzimlənir. Multikulturalizm ideyalarını təcəssüm etdirən Konstitusiyamızda ümumi 5 maddə ölkə ərazisində multikulturalizm məsələlərinə toxunur: 18-ci maddə - “Din və dövlət”; 21-ci maddə - “Dövlət dili”; 25-ci maddə - “Bərabər hüquqlar”; 45-ci maddə - “Ana dilindən istifadə hüququ”; 48-ci maddə - “Vicdan azadlığı hüquqları”. Bu məqalələr

mövcud etno-mədəni, linqvistik və dini-konfessional müxtəlifliyi əks etdirir. Bunlardan başqa, 26-cı maddə multikultural təhlükəsizliyin təmin edilməsini nəzərdə tutur, həmçinin 5-ci maddə yolverilməzliyindən, hər hansı konkret dinin və ya dini icmanın digər dinlərdən üstünlüyündən bəhs edir. Həmin maddələr Respublika ərazisində sosial tolerant prinsipinin doğru şəkildə tətbiqi baxımından hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququnu, hər kəsin istənilən dildə tərbiyə və təhsil almaq, müxtəlif yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq hüququnu, milli, irqi, dini sosial ədavətin, təşviqatın qadağan edilməsi kimi müəyyən edilmiş qanunla, dövlətimiz multikulturalizm dəyərlərinin inkişafının və qorunmasının hüquqi əsaslarını müəyyən etmişdir. Azərbaycanın dünyəvi dövlət olması konstitusiya prinsiplərindən ən vacib bəndlərindən biridir. Bu prinsip nəticəsində ölkə ərazisində müxtəlif dini etiqad normalarının uğurlu fəaliyyətinə, islam dini ilə eyni zamanda, xristian, buddizim və başqa dinlərin daşıyıcılarının normal həyat tərzinə şərait yaradılır. Ulu öndərin göstərişi ilə 1994-cü ildə Azərbaycanın paytaxtında yenidən lüteran icmasının fəaliyyətə başlaması, Bakı Krişnaid Şüuru Cəmiyyətinin fəaliyyət göstərməsi, 1999-cu ildə Bakıda Roma Katolik icmasının bərpa olunması Bakı ictimaiyyətinin digər dinlərə qarşı tolerantlığının və konfessiyalara düzgün rəsmi münasibətinin sübutudur. Azərbaycan məhz Ulu öndər Heydər Əliyevin dövründə BMT-nin qəbul etdiyi müxtəlif aktlara, habelə Uşaq Hüquqları Konvensiyasına qoşuldu. 1998-ci il 28 fevral və 18 iyun tarixlərində ardıcıl olaraq, "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı, "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncamı ilkin strateji sənəd kimi dəyərləndirilməlidir. 2001-ci il 13 avqust tarixində milli-mənəvi dəyərlərimizin qorunması ilə bağlı verdiyi bəyanatda səslənən fikirlər kifayət qədər aktual və ibrətamizdir: "Hər bir xalqın öz adət-ənənəsi, milli-mənəvi və dini dəyərləri vardır. Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Əgər insan mənsub olduğu millətin milli-mənəvi dəyərlərini anlaya bilmirsə, onları qəsdən təhrif edirsə, bu hal bizi narahat etməlidir". Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir. "Mən fəxr edirəm ki, azərbaycanlıyam" deyən Ümummilli liderin şəxsən özünün xaraktercə tolerant olması, sözsüz ki, onun həyat və fəaliyyətində həmişə büruzə vermişdir. Azərbaycan hər zaman dünyada multikulturalizmin və tolerantlığın ən uğurlu modellərindən birinin bərqərar olduğu diyar sayılıb. Burada tarixən heç vaxt milli və dini zəmində ayrı-seçkilik və qarşıdurma baş verməmiş, qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər hökm sürmüşdür. Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olmuş, bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq, Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilmişdir. Azərbaycanda etnik rəngarəngliyin qorunmasına yönəldilən və uğurla həyata keçirilən dövlət siyasəti multikulturalizm və tolerantlıq sahəsində əsrlərdən bəri toplanmış böyük tarixi ənənənin daha da möhkəmlənməsinə yol açmışdır. Onu da qeyd etmək lazımdır ki, məhz Azərbaycan dövlətinin yürütdüyü siyasətin nəticəsidir ki, etnik-qruplar və ya müxtəlif xalqlar nəinki öz adət-ənənələrini qoruyub saxlaya bilir, eyni zamanda öz adət-ənənələrini nəsildən nəslə ötürərək daha da inkişaf etdirə bilirlər.

# ULU ÖNDƏR VƏ ANA DİLİMİZ

**Aysel Məmmədova**
*Ağdaş şəhər Nizami adına 2 saylı*
*tam orta məktəbin*
*təlim-tərbiyə işləri üzrə direktor müavini*

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin genişmiqyaslı siyasi-ideoloji fəaliyyətində dil siyasəti çox mühüm yer tutur. Təsadüfi deyil ki, dilimizin inkişafında Ulu Öndərin misilsiz xidmətləri olmaqla dahi liderimiz öz ana dilinə yalnız adi ünsiyyət vasitəsi kimi deyil, qədim tarixi və zəngin mədəniyyəti olan bir xalqın milli sərvəti kimi yanaşırıdı.

Ana dilinə sonsuz məhəbbəti, eyni zamanda onun incəliklərinə dərindən bələd olması Heydər Əliyevin sadə, səmimi cümlələrlə zəngin nitqinin əsas özəyi idi.

Ulu Öndərin şəxsi təşəbbüsü və ciddi səyi nəticəsində 1987-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyasına Azərbaycan dilinin dövlət dili kimi fəaliyyəti haqqında ayrıca maddə daxil edilib. 1995-ci ildə isə qəbul edilmiş Konstitusiyamızın 21-ci maddəsində Azərbaycanda milli dövlətçiliyimizin rəmzlərindən biri olaraq məhz təsbit edilib.

Azərbaycan dilinin siyasi hüquqi statusunun möhkəmləndirilməsi istiqamətində atılan addımlardan biri də Ulu Öndərin 2001-ci il iyunun 18-də imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanı oldu. Ümummilli liderin "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli Fərmanı Azərbaycan dilinin inkişafına dövlət qayğısının bariz nümunəsidir.

Çıxışlarında şifahi nitqə üstünlük verib, yazılı məruzələrdən demək olar ki, imtina edən Heydər Əliyev öz nitqini, adətən, auditoriya ilə sual cavab üzərində quraraq sistemli və ardıcıl çıxışları ilə xalqda dərin inam yaradardı. Eyni zamanda dahi liderin çıxışlarında ədəbi dilin bütün funksional üslubları vəhdətdə götürülüb.

Həmçinin dilçilik sahəsində atılmış vacib addımlardan biri də 2002-ci il sentyabr ayının 30-da Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasının dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunudur.

"Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi şox sevir və bu dildə danışmağımla fəxr edirəm" – deyən dahi liderimiz Bakı Dövlət Universitetinin 50 illik yubiley tədbirində rus dilində deyil, məhz doğma ana dilli çıxışı ilə əsl cəsarət nümayiş etdirmişdir. Onun fikrincə, "öz ana dilini bilməyənlər şikəst adamlar" idilər. Məhz Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bütün dövlət orqanlarında sənədlərin, təhsilin həmçinin kütləvi informasiya vasitələrinin, eləcə də kitab çapında Azərbaycan dili və latın qrafikasından istifadə tələbi qoyuldu.

# AİLƏ DƏYƏRLƏRİ VƏ AİLƏ ƏNƏNƏLƏRİ - HEYDƏR ƏLİYEV

**Aynurə Məmmədova**
*AMEA Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu,*
*Şərqşünaslıq elminin tarixi və nəzəriyyəsi*
*şöbəsinin kiçik elmi işçisi*

İstənilən bir xalqın, millətin tarix səhnəsində varlığı, onun doğma dilinə, milli adət-ənənələrinə, özünəməxsus etnik mədəniyyətinə sıx bağlılığından asılıdır. Həmin ailə ənənələri sədaqət, qarşılıqlı məhəbbət, dürüstlük, valideynə, böyüyə hörmət, tolerantlıq kimi zəngin və çoxşaxəli xüsusiyyətlərə malikdir. Ümummilli lider Heydər Əliyev hesab edirdi ki, cəmiyyətdəki qarşılıqlı münasibətlərdə olduğu kimi, ailədə də hər bir insan özünəməxsus statusa, qayda-qanuna, əlaqələrə və prinsiplərə riayət etməlidir. Hər bir ailə üzvü öhdəsinə düşən funksiyaları yerinə yetirməli, ailənin rifahı üçün bacardığını etməli, ailə üzvlərinə hörmət və qayğı göstərməli, ailənin sevincini və kədərini birgə yaşamalı, bu sahədə mövcud olan ümumi ənənə və qaydalara sadiq olmalıdır. Ulu Öndər ailəni cəmiyyətin bünövrəsi, özəyi sayır, Azərbaycanda sağlam cəmiyyətin, güclü dövlətin qurulub möhkəmləndirilməsində onun son dərəcə vacib amil olduğunu dönə-dönə qeyd edir və daim göz bəbəyi kimi qorunmasını tövsiyə edirdi. O, insanların ən müqəddəs arzularından olan məhəbbətin, mərhəmətin, biliyin və zəhmətsevərliyin ailənin bünövrəsi üçün vacib cəhətlər olduğunu qeyd edirdi: "Hər bir kəsin arzusu ailə qurmaq və valideyn olmaqdır. Bundan böyük xöşbəxtlik yoxdur". Ümummilli Lider Heydər Əliyev hesab edirdi ki, insan yalnız oxuyub təhsil aldığı məktəbdə, çalışdığı kollektivdə deyil, həmçinin böyüyüb boya-başa çatdığı ailədə formalaşır. Heydər Əliyevin ailə həyatı çox ibrətamizdir, ilk növbədə, sadəlik və təvazökarlıq, sədaqət və etibar nümunəsidir. Heç bir çətinliyə, maddi və mənəvi sıxıntıya, siyasi təzyiqə baxmayaraq, ailəni qoruyub saxlamaq asan olmasa da, Ulu Öndər bunu çox böyük müdriklik və bacarıqla yerinə yetirə bilmiş, təkcə övladlarına və yaxınlarına deyil, bütün xalqına belə bir nümunə göstərmişdir. Ulu öndərin həyat yolundan bəhs edən sənədli filmlərdən, müxtəlif kitablardan onun ailəyə nə qədər bağlı bir insan olduğunu görməmək mümkün deyildir. Xüsusilə onun ömürgün yoldaşı Zərifə xanım Əliyeva haqqında xatirələrini və söhbətlərini dinlədikcə, bu zaman gözlərində gilələnən göz yaşlarını gördükcə böyük və müqəddəs bir məhəbbətin, son dərəcə nəcib insani münasibətin şahidi olursan. Heydər Əliyev üçün ailə cəmiyyətin əsas dayağı, eyni zamanda böyük ideallarla yaşayan insanların boy atdığı, tərbiyə aldığı və vətəninə xidmət üçün böyüdülüb boya-başa çatdırıldığı bir ocaq idi. Axı dövlətin kiçik modeli – forması sayılan milli ailə olmasa, cəmiyyət də inkişaf edə bilməz.

# ÖLKƏMİZİN MÜSTƏQİLLİYİNİN MÖHKƏMLƏNMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

**Xeyransa Əliyeva**
*AMEA akad. Z.M. Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun doktorantı*
*s.hayrunnisa@gmail.com*

Müstəqillik, öz taleyinə sahib olmaq, öz dövlətini yaratmaq və inkişaf etdirmək hər bir xalq üçün ən böyük nailiyyətdir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə baxmayaraq, heç bir qüvvə Azərbaycan xalqının müstəqillik, dövlətçilik arzularını söndürə bilməmiş, şərait, imkan yetişən kimi xalqımız müstəqillik ideallarını gerçəyə çevirmişdir. Keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın dövlət müstəqilliyinin bərqərar olması, xalqın çoxdan arzuladığı azadlığa qovuşması tariximizin şanlı səhifələrini təşkil etdiyi kimi, ölkəmizin erməni təcavüzünə məruz qalması, 20 faiz torpaqlarımızın işğal olunması, 1992-ci ildə xalq hərəkatı dalğası üzərində hakimiyyətə gələnlərin ölkəyə və xalqa yaşatdırdığı müsibətlər həqiqi faciələr olaraq tariximizə həkk olunub.

Bu günlərdə nə qədər qəribə səslənsə də, təxminən 30 il bundan əvvəl yenicə müstəqilliyini bərpa etmiş Azərbaycanı xilas etmək zərurəti yaranmışdı. Ötən əsrin 70-80-ci illərində sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə onun sosial, iqtisadi və mədəni inkişafına, əslində isə çoxlarının birmənalı şəkildə qeyd etdiyi kimi, intibahına nail olmuş Heydər Əliyev yeni tarixi şəraitdə xilaskarlıq missiyasını öz çiyinləri üzərinə götürdü. Qısa vaxtda yuxarıda sadalanan böhranlar, təlatümlər, təhlükələr aradan qaldırıldı. Azərbaycan yenidən canlandı, ölkədə iqtisadi və siyasi islahatlar keçirildi, ən əsası isə insanlar müstəqilliyin və azadlığın faydalarını görməyə başladılar, xalq isə, sözün həqiqi mənasında, öz taleyinin sahibi oldu. Azərbaycan xalqı xoşbəxtdir ki, bu gün öz müstəqil dövlətinə sahibdir və dövlət müstəqilliyimiz xalqımızın milli sərvətidir.

Tarixdə şəxsiyyətlərin rolu danılmazdır. Öz əməlləri ilə mənsub olduğu xalqın taleyini, tarixini dəyişdirmiş, milli kimliyini qürur və fəxarət mənbəyinə çevirmiş şəxsiyyətlər xalqının milli yaddaşında əbədiyaşarlıq hüququ qazanmışdır. Bu gün müstəqil kimliyi və öz dövləti ilə dünya səhnəsində yer alan xalqların taleyini də məhz belə tarixi şəxsiyyətlər müəyyənləşdirmişdir. Azərbaycan xalqı üçün belə möhtəşəm əməllərə imza atmış şəxsiyyət və böyük lider isə, şübhəsiz ki, Ulu Öndər Heydər Əliyev olmuşdur. Təsadüfi deyil ki, bu gün Heydər Əliyevin adı müstəqil və suveren Azərbaycanın simvolu kimi səslənir. Çünki Heydər Əliyevin həyat amalı, zaman və məkan anlayışına sığmayan siyasi fəaliyyətinin əsas məqsədi azad və müstəqil Azərbaycan dövlətini qurmaq olmuş və o, müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində xalqımızın azadlıq və müstəqillik ideallarını gerçəkləşdirməyə nail olmuşdur.

# NİZAMİ GƏNCƏVİNİN TÜRK DAVAMÇISI

**Lalə Paşayeva**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*Nizamişünaslıq şöbəsi,*
*kiçik elmi işçi*
*ORCID ID: https://orcid.org/0000-0001-6706-180x*
*lalepashayeva1989@gmail.com*

Bəzi insanlar bu dünyaya xüsusi vəzifələr üçün gəlirlər və həmin mərhələləri keçərək dahilik zirvəsinə yüksəlirlər. Tanrı hər qövmə, xalqa bəlli sayda dahi nəsib edir. Azərbaycanın da talehinə belə şəxsiyyətlərdən pay düşmüşdür. Həmin şəxslər bir çox çətinliklərdən keçərək uğurla bu dünyadakı missiyalarını həyata keçirirlər.

Əsrlərdən gələn hər dövrə məxsus dahi şəxsiyyətlərimiz olduğu kimi 20-ci əsrin ikinci yarısından sonrakı dövrdəki Azərbaycanın dirçəlişinin banisi, yenidən birləşməsinin səbəbkarı kimi Ulu öndər Heydər Əliyevin adını mütləq qeyd etmək lazımdır. Heydər Əliyev elə bir dahi şəxsiyyətdir ki, onun kəlamları, strategiyası hər zaman xalqın, millətin dilindədir və açdığı cığır ilə bu gün də irəliyərək öz mövqeyimizi saxlayırıq. Heydər Əliyev zirvəsi ədəbiyyata, incəsənətə, elm xadimlərinə də hər zaman xüsusi qayğı və diqqət ilə yanaşmışdır.

Ulu öndər Heydər Əliyevin dahi Azərbaycan şairi Nizami Gəncəvi ilə bağlı düşüncələri, ideyaları hər zaman təqdirəlayiqdir. Ümummilli lider Heydər Əliyevin 2000-ci il may ayının 24-də Nizami Gəncəvinin məqbərəsi önündəki nitqi rəğbətlə xatırlanılır. “Bütün Azərbaycan xalqı Nizami Gəncəvi ilə fəxr edir. Ancaq gəncəlilər xüsusi iftixar hissi keçirirlər. Birincisi, ona görə ki, Nizami gəncəlidir. Gəncənin adını dünyada məşhur edibdir, bu torpaqda yaşayıbdır, bu torpaqda yazıbdır. Onun yazdığı əsərlər bütün dünyada məşhurdur”.

Nizami Gəncəvi əsərlərində şərəfli adı ilə birlikdə öz doğma xalqının adət-ənənələrini və tarixini yaşadan nadir sənət dühasıdır.

Böyük Azərbaycan şairi Nizami Gəncəvinin dünyada məşhur “Xəmsə”si günümüzədək fərqli millətlətlərin, xalqların şairləri tərəfindən bəyənilərək nəzirələr tərtib edildiyi hər zaman diqqət mərkəzindədir. Ustad şairin məsnəvilərinə türk ədəbiyyatında da xeyli sayda nəzirələri mövcuddur.

Yaradıcılığı XVII əsrə təsadüf edən, Nəvizadə Ətayi də Nizami Gəncəvinin davamçılarındandır. Əsərləri arasında “Həft peykər”ə nəzirə olaraq 1627-ci ildə altı ay müddətinə tamamladığı “Həft xan” adlı məsnəvisini yazmışdır. Bu poema yalnız hekayə ehtiva etməsi baxımından görünüşcə Nizami Gəncəvinin əsərinə bənzəyir. Nizami Gəncəvinin “Həft peykər” əsəri qəhrəmanlığı təcəssüm etdirdiyi halda, Nəvizadə Ətayinin “Həft xan” məsnəvisi isə eşq üzərində qurulmuşdur. Ancaq Ətayinin “Həft xan” məsnəvisində əsərin ən əhəmiyyətli qismini yeddi hekayə təşkil edir. Hekayələrin mövzuları tamamilə ayrıdır.

“Həft xan” məsnəvisi tamamilə eşq mövzusu üzərində qurulmuş və əsərin sonunda şairin də söylədiyi kimi məhəbbətin hicranları, həyəcanları orada təsvir edilmişdir. Hekayələr əsas etibarı ilə maraqlı hadisələr olmaqdan ziyadə eşq aləmində eşidilən müxtəlif hisslər təsvirinə vəsilə olsun deyə tərtib edilmişdir. Daima mövzu romantik şəxsiyyətlər, səhnələr və qəflətən olmayacaq şeylər daxil olarsa da, bütün bunlar ancaq sevginin nəql edilməsi üçün qoyulmuşdur. Şair yeri gəldikcə, eşq duyğusunu böyük qüdrət və incə bir zərafətlə parlaq şəkildə ifadə etdirir.

Ətayi öz xəyalı üzərində işləyərək bir sənət əsəri vücuda gətirmişdir. Eşqin dərin həyacan təşvişlərinə təsadüf edilir. “Həft xan” əsərində hekayələrin mövzu və şəxsiyyətləri həyati olmaqla bərabər, başdan-başa romantik xarekterlərini mühafizə edirlər. Lakin bu romantik hekayələrdə eşqin bütün səfahatı və ələlxüsus iztirabları böyük bir qüdrətlə təsvir edilmişdir.

Çox həssas və incə ruhlu olan Ətayinin hekayələrində aşiqlər vüsaldan sonra məşuqları ilə məsud bir dünya həyatı keçirirlər və ölürlər. Sevgililər çətinliklərdən və hicranlardan sonra daima birləşirlər firəvan bir ömür sürüb dünyadan köçürlər. Bəziləri torpağa basdırılır, bəziləri ilana, qarışqaya yem olur və bəziləri isə cənnətə köçürlər və əbədi orada yaşayırlar. Bütün hekaylər bu şəkillərdən biri ilə bitər.

Azərbaycan-türk birliyi, qardaşlığı əsrlərə dayanır. Ulu öndər Heydər Əliyevin də “... Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir” nitqi bunun bariz nümunəsidir.

Dahilər hər zaman yarandığı xalq ilə əbədiyaşar olurlar, çünki xalq, millət doğurduğu dahini hər zaman yaşadır.

# НЕИЗВЕСТНЫЕ СТРАНИЦЫ ПОЛИТИЧЕСКОЙ ИСТОРИИ СОВРЕМЕННОЙ СИРИИ: РОЛЬ ГЕЙДАРА АЛИЕВА В УРЕГУЛИРОВАНИИ ВНУТРЕННЕГО КОНФЛИКТА В РУКОВОДСТВЕ САР В 1984 ГОДУ

**Орхан Наджафов**
*Институт востоковедения имени академика Зии Буниятова*
*Отдел истории и экономики арабских стран*
*Младший научный сотрудник*

В начале 1984 года Политбюро ЦК КПСС обсуждал доклад КГБ СССР, подготовленный для Юрия Андропова, о ситуации в Сирии. По информации советской разведки между Хафезом Асадом (отцом нынешнего сирийского президента) и его братом Рифатом, возглавлявшим сирийскую секретную службу, возникло ожесточенное столкновение, которое могло привести к гражданскому конфликту в стране. В Кремле, также как и сегодня, не могли допустить смену режима или руководителя Сирии, являвшимся сторонником тесных отношений с Советским Союзом. Политбюро принимает решение послать Гейдара Алиева, курировавшего связи высшего руководства СССР со странами исламского мира, в Дамаск со специальной посреднической миссией. К сожалению, саму поездку были вынуждены отложить на месяц в связи с кончиной Андропова, однако миссия в итоге удалась. Как впоследствии рассказывал Гейдар Алиев, Хафез Асад в то время был не в лучшей форме по причине болезни, однако их встреча продолжалась рекордные восемь часов. Алиеву удалось убедить сирийского лидера пойти на ряд компромиссов и не доводить ситуацию до вооруженного противостояния. В результате, братьям Асад удалось договориться: Рифат отправился в Европу. Проблема внутрисемейной борьбы за власть была решена на достаточно продолжительный период.

Роль восточной дипломатии Алиева в период его членства в составе Политбюро по-прежнему недооценена. Ряд западных изданий в тот период указывали, что Алиев единственный мусульманин в высшем органе советского управления, кто был полностью осведомлен о процессах, протекавших в поясе от Пакистана до Египта. Говорили также о возможном сценарии изменения вектора внешней политики Андропова, в котором Алиев должен был сыграть значимую роль. Так как Гейдар Алиев бывал с дипломатическими миссиями в Египте, Ливии, Пакистане, Иордании, Ираке, в способности обсуждать деликатные вопросы на уровне глав этих государств Алиева не мог затмить никто, включая признанного специалиста по Ближнему Востоку Евгения Примакова, к слову, действовавшего на высоком уровне дипломатии в более поздний исторический период.

Данная статья основана на материалах местных и зарубежных СМИ, монографических исследованиях об общенациональном лидере Г.Алиеве, а также на мемуарной литературе по политической истории Сирии, среди которых особняком стоит книга бывшего министра иностранных дел Сирии Фарука Аш-Шараа под названием «Забытая история».

# ГЕЙДАР АЛИЕВ И ДОЛГИЙ ПУТЬ К ВОЗРОЖДЕНИЮ НОВОГО АЗЕРБАЙДЖАНА

**Елнара Бунятова**
*Институт востоковедения имени академика Зии Буниятова*
*Отдел теории востоковедения*

Последнее десятилетие 20 века является судьбоносным в современной истории Азербайджанского народа. В рассматриваемом историческом периоде под руководством общенационального лидера Гейдара Алиева азербайджанский народ сумел создать собственное независимое государство.Становление и развитие современного независимого Азербайджанского государства представляется торжеством политической линии Гейдара Алиева, нацеленной на всемерное укрепление национальной государственности. На основе разработанной им теории национального возрождения, ставшей бесценным достоянием и для последующих поколений, воплотилась в жизнь историческая мечта азербайджанского народа о независимом государстве. Следует отметить что, становление государственной независимости страны в рассматриваемом историческом периоде протекало в чрезвычайно неблагоприятных условиях. Именно в этот важный период в истории азербайджанского народа, в сложной внутренней и внешнеполитической обстановке, особенно ярко проявились феноменальные личностные качества общенационального лидера Гейдара Алиева. Исторической заслугой общенационального лидера в становлении независимого Азербайджанского государства в значительной степени было связано с разработанной и реализованной им внешнеполитической линией, нацеленной на достижение устойчивого международного положения страны. Хотелось бы вернутся в далекое прошлое, и вспомнить тяжелый многоступенчатый путь деятельности лидера страны.

После прихода Гейдара Алиева к руководству Азербайджана 14 июля 1969 года прошла треть века. До руководства республики он прошел путь в органах государственной безопасности от рядового работника до руководителя этой структуры. Широкий спектр его деятельности в органах безопасности, естественно, помог ему на новом посту первого секретаря Коммунистической партии Азербайджана.

В те непростые времена Гейдар Алиеву было рекомендовано работать в рамках правил того времени, но общенациональный лидер обладал таким характером, что не мог оставаться в рамках этих «правил», он просто не вмещался ни в какие стандарты. Этому были доказательства его первых шагов в деятельности, что было необычно для СССР. Он нацелено стремился улучшить положение своей страны, поэтапно решая все накопившиеся в Азербайджане проблемы. В первые же месяцы стало очевидным, что

к власти пришел чрезвычайно талантливый, умелый реформатор, обладающий выдающимися организаторскими способностями, и никому не удастся предотвратить реформы Алиева, а создание в Азербайджане новых отраслей промышленности свидетельствует о том, что Гейдар Алиев предвидел сегодняшний день независимого Азербайджана и начал строить его еще в 70 –е годы.

# ЕДИНСТВО НАЦИОНАЛИЗМА, ЗАПАДА И ВОСТОКА В ПОЛИТИКЕ ГЕЙДАРА АЛИЕВА

**Мурведова Наргиз**
*Институт востоковедения имени академика Зии Буниятова Отдел востока и запада*
*Младший научный сотрудник*

В XX веке, когда распался Советский Союз, начал формироваться новый миропорядок, а на международной арене начали складываться новые отношения, Азербайджан вступил в важный и судьбоносный период своей истории. От государств возникших после распада СССР, Азербайджан отличали характер возникших проблем, с которыми он столкнулся. Основная тяжесть и ответственность легла на плечи Гейдара Алиева.

В момент прихода Гейдара Алиева к власти страна была разорена, общество было деморализовано и расколото, находясь ещё и на грани гражданской войны и в состоянии войны с Арменией. Президент был уверен, что только политика сплочения всего народа может вывезти республику из кризиса. Гейдар Алиев стал инициатором разработки идеологии азербайджанства, охватывающую многослойную этническую культуру страны, включая тюркские, кавказские реалии, национально-демократические традиции, исламские истоки.

Имея за спиной огромный опыт в политике, Г.Алиев убедился в приоритете национального фактора перед всеми идеями, лозунгами и принципами. Для политика-реалиста, каким был Алиев, было ясно одно: спасение нации возможно только через спасение и усиление национального государства.

Одним из основополагающих направлений в политике Гейдара Алиева было совмещение прозападного направления, национализма, не забывая при этом принадлежности страны к Востоку. Гейдар Алиев в своих выступлениях неоднократно напоминал: «Азербайджан находится на стыке Европы и Азии и главная задача перед Республикой и Алиевым, в частности, это построить добрые взаимоотношения и с Азией, и с Западом». Именно поэтому, Президент начал выстраивать взаимоотношения молодого государства Азербайджан с другими странами сразу в нескольких направлениях, а именно, с Турецкой Республикой, Саудовской Аравией, Ираном, Марокко, Египетом, Пакистаном, в каждую из которых были совершены официальные визиты. Президент в кратчайшие сроки наладил отношения с Россией, с Соединёнными Штатами Америки, с ведущими странами Европы, со странами Дальнего Востока (Китайской Народной Республикой, Японией).

Богатый опыт Гейдара Алиева, его правильный подход к протекающим в регионе и во всём мире политическим процессам, привели к нормализации и развитию связей даже со странами, с которыми у Азербайджана не было до этих пор никакого сотрудничества.

# AZƏRBAYCAN-İSRAİL MÜNASİBƏTLƏRİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

**Xuraman Abbasova**
*AMEA Z.M. Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu,*
*Şərq-Qərb şöbəsinin kiçik elmi işçisi*
*haciyeva.xuraman@gmail.com*

Fərqli dini inanclara və milli keyfiyyətlərə, çox da yaxın olmayan coğrafi yerləşməyə malik iki dövlət olan Azərbaycan və İsrail arasındakı dostluq, əməkdaşlıq əlaqələri dünya ictimaiyyəti tərəfindən hər zaman birmənalı olaraq qarşılanmamışdır. Lakin hər iki tərəfin bu kimi reaksiyalara rəğmən əsas olaraq götürdüyü prinsiplər milli maraqlar, qarşılıqlı faydaya söykənən əməkdaşlıqdır. Məhz bu prinsiplər müasir dövrdə xarici siyasətin əsas kontekstini təşkil edir. Şübhəsiz, bu əsnada ölkələr arasında mövcud tarixi-mədəni əlaqələri gözardı etmək olmaz, lakin müasir dövrdə yaranmış tarixi şərait Azərbaycanın hərbi-siyasi, İsrailin isə enerji və regional siyasi-təhlükəsizlik sahəsində etibarlı tərəfdaşa ehtiyacını zərurətə çevirmişdir. Məhz bu baxımdan 90-cı illərdən etibarən Azərbaycan-İsrail münasibətlərinin araşdırılması xüsusi əhəmiyyət kəsb edir və məsələnin əsas məğzini müəyyən edir.

Azərbaycanda dağ yəhudilərinin uzun illərdən bəri yaşaması, XIX əsrin II yarısında neftin çıxarılma prosesində müşahidə olunan inkişafa əsasən yəhudi biznes nümayəndələrinin Bakıya axını sonrakı dönəmlərdə iki ölkə arasında münasibətlərin inkişafına gətirib çıxardı. Burada qeydi vacib olan əsas məsələlərədən biri də yəhudi dini məktəblərin – yeşivaların açılması idi. Azərbaycanda ilk yeşiva 1994-cü ildə açılmışdır. Onu da qeyd edək ki, XX əsrin 70-80-ci illərində Azərbaycanda yaşayan dağ yəhudilərinin bir qisminin həm də İsrailə köçü başlamışdır, lakin ölkələrinə qayıtdıqdan sonra belə həmin köç edənlər Azərbaycan-İsrail əlaqələrinin inkişafı və davamlılığı üçün addımlar atmışlar. Buna "Azərbaycandan köçmüş Yəhudi Vətəndaşları Cəmiyyəti" (AYVC) nümunə ola bilər. Qeyd edək ki, Azərbaycan tərəfi də həmin təbəqənin itirilməməsi və əlaqələrin davamlılığında iştiraklarının təmini üçün rəsmi şəkildə müəyyən addımlar atmışdır.

Heydər Əliyevə qədər Rusiya və İranla olan münasibətlər çərçivəsində İsraillə münasibətlər müəyyən qədər arxa planda qalmışdı. Əbülfəz Əliyevin hakimiyyəti müddətində iki ölkə arasında münasibətlərin yaxşılaşması istiqamətində bir çox müsbət irəliləmə müşahidə olunur və hətta 1993-cü ildə İsraildə səfirliyin açılması istiqamətində Əbülfəz Əliyev danışıqlar aparmışdır. Lakin ölkələr arasında münasibətlər özünün ən yüksək mərhələsinə Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə çatmışdır. Ölkələrarası rəsmi səfərlər 1993-cü ilin dekabr ayında – yəni Ulu Öndərin rəsmi prezident seçilməsindən bir neçə ay sonra baş tutmuşdur.

Heydər Əliyevin İsrailə dair apardığı dostluq münasibətləri dünya ictimaiyyətinin qəzəbinə səbəb olmadan ölkəmizin xeyrinə irəliləmişdir. Dünya liderləri ilə keçirilən görüşlərdə hər fürsətdə Qarabağ məsələsi ilə bağlı dəstək istəyini bildirən Heydər Əliyev, əksərən, buna nail olmuşdur. Buna nümunə olaraq Ulu Öndərə Amerikada Azərbaycanın maraqlarının müdafiə sözü verən sabiq prezident Bill Klintonun 2001-ci ilin oktyabr ayında Azərbaycanın lehinə qərar verməsi, Heydər Əliyevin BTC layihəsində yəhudi lobbisinin dəstəyini istəməsi və bu kimi çoxsaylı ciddi cəhdlər və onların müsbət nəticələri göstərilə bilər.

Hər iki dövlətin mürəkkəb müharibə vəziyyətinə düşməsi ikitərəfli əlaqələr zəncirində əsas halqalardan biridir. Məhz bu məqam da iki ölkə arasında qarşılıqlı hərbi əməkdaşlığı zəruri etmiş və nəticədə hər iki Qarabağ müharibəsində İsrail Azərbaycana silah-sursat təminatında kömək etmişdir. Qeyd edək ki, Heydər Əliyevin Azərbaycan-İsrail münasibətlərinə dair yürütdüyü bu siyasət ondan sonra da davam etdirilmiş və bu gün də son sürətlə həyata keçirilməkdədir.

# HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTİ İLLƏRİNDƏ AZƏRBAYCANDA TERRORİZM VƏ TERRORİZMƏ QARŞI MÜBARİZƏ

**Hüseyn Günəşli**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu, elmi işçi*
*huseyngunashli@gmail.com*

XX əsrdə dünya dövlətlərinin bir çoxu böyük xərclər tələb edən müharibələrin yerinə daha az xərc tələb edən psixoloji müharibələrə üstünlük vermişdir. Terrorizmin də psixoloji müharibənin bir növü olaraq qəbul edilməsi və bundan bəzi dövlətlərin öz maraqları üçün istifadə etməsi nəticəsində terrorizm müasir dövrdə qlobal təhdidə çevrilmişdir. Müasir dövrdə texnologiyanın bütün imkanlarından istifadə edən, sərhədləri aşaraq fəaliyyət sahəsini bütün dünyaya yayan, insan həyatı, iqtisadi vəziyyət, siyasi hakimiyyət və beynəlxalq münasibətlərə birbaşa təsir göstərən beynəlxalq terrorizm yönəltdiyi təhdid və buna qarşılıq olaraq verilən cavablar baxımından milli, regional və beynəlxalq səviyyədə mühüm təsirləri olan bir problemdir.

Bu problemin həllində terrorizmdən əziyyət çəkən ölkələrin terrorla mübarizədə inkişaf etdirdiyi metodlar və bir-biriləri ilə qarşılıqlı əməkdaşlıqları maraq doğurur.

Bu tədqiqat işində terrorizmdən əziyyət çəkən ölkələrdən biri kimi Azərbaycanın da terrorla mübarizəsinə, xüsusən də müstəqillik əldə etdikdən sonra qarşılaşdığı seperatçı terrorizmə və Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanda dəyişən terrorla mübarizə strategiyasına nəzər salınacaq.

## AZƏRBAYCAN-PAKİSTAN: XX ƏSRİN SONU - XXI ƏSRİN BAŞLANĞICINDA SİYASİ, İQTİSADİ VƏ MƏDƏNİ İNTEQRASİYA

**Günay Novruzova**
*AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu,*
*Asiya-Sakit okean regionu ölkələri şöbəsinin*
*kiçik elmi işçisi*

1991-ci ildə Azərbaycan Respublikası müstəqilliyini elan edəndən sonra müstəqilliyimizi tanıyan ilk dövlətlərdən biri də məhz Pakistan olmuşdur. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il iyunun 9-da qurulmuşdur.

1996-cı il 9 aprel tarixində Azərbaycan Prezidenti Heydər Əliyev Pakistanda rəsmi səfərdə olub. İki ölkə arasında münasibətlərin inkişafına xüsusi təkan verən bu görüşdə 9 sənəd imzalanıb. Azərbaycan və Pakistan prezidentləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Kəşmir problemlərində bir-birilərini dəstəklədiklərini bəyan ediblər. Pakistan İslam Respublikasının Prezidenti Faruk Əhməd Xan Leqari Azərbaycan Prezidentinin şərəfinə rəsmi ziyafət verib. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev rəsmi ziyafətdə söylədiyi geniş nitqində bildirib ki, Pakistan dövləti Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü daim pisləyib. Ermənistanı bir təcavüzkar kimi ittiham edib. BMT-nin Təhlükəsizlik Şurasında bu məsələ müzakirə edilərkən Pakistanın nümayəndəsi Azərbaycana çox ədalətli münasibət göstərib və yardım edib.

Səfər çərçivəsində Prezident Heydər Əliyev Pakistanın Baş naziri Bənəzir Buhutto ilə də görüşüb. Prezident Heydər Əliyev və Pakistanın Baş naziri Bənəzir Buhutto iki ölkə arasında sənədləri imzaladıqdan sonra birgə mətbuat konfransı keçiriblər. Prezident Heydər Əliyev mətbuat konfransında – "Kəşmir problemi ilə əlaqədar Azərbaycan həmişə Pakistanın mövqeyini dəstəkləyib və bu gün də dəstəkləyir

Pakistan dövlət və hökumət başçıları dəfələrlə nüfuzlu beynəlxalq tədbirlərdə Azərbaycana açıq şəkildə dəstəklərini bildiriblər. Bundan başqa, Pakistan məhz Azərbaycana hərbi təcavüzü əsas gətirərək Ermənistanla diplomatik münasibətlər qurmayıb, bu ölkədə səfirliyi yoxdur. Pakistan bu siyasəti məhz islam həmrəyliyi, müsəlman qardaşlığı prinsiplərinə əsasən edir.

Azərbaycan da bütün məsələlərdə Pakistanın mövqeyini dəstəkləyir. Hər iki dövlət bir çox beynəlxalq platformalarda eyni maraqlardan çıxış edərək öz fəaliyyətlərini koordinasiya edir, bir-birini müəyyən məsələlərdə qeyd-şərtsiz dəstəkləyirlər. İki dost dövlət müdafiə, enerji, infrastruktur layihələrinin icrası, informasiya texnologiyaları, səhiyyə və əczaçılıq, tekstil və farmakoloji preparatlar, xüsusilə bütün mümkün domenlərdə birgə müəssisələrin qurulması və digər sahələrdə əməkdaşlıq edirlər. Eyni zamanda Heydər Əliyev Fondunun bu ölkədə həyata keçirdiyi bir sıra humanitar və xeyriyyə xarakterli layihələr də ölkələrimiz arasında əlaqələrin inkişafına mühüm töhfə kimi dəyərləndirilir. Belə ki, Fond “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində Pakistanda bir neçə məktəbin yenidən qurulmasına dəstək nümayiş etdirib.

# MÜNDƏRİCAT

**Gövhər Baxşəliyeva**
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ŞƏRQ SİYASƏTİ ......................................3

***الاستاذ الدكتور معتز محي عبد الحميد***
**حيدر علييف والدبلوماسية الاذربيجانية مع العالمين العربي والاسلامي.......................................................** 5

**Rəna Mirzəzadə**
HEYDƏR ƏLİYEV DƏRSLƏRİ MEHRİBAN ƏLİYEVANIN ŞƏRQ ÖLKƏLƏRİ İLƏ MƏDƏNİ VƏ HUMANİTAR DİPLOMATİYASINDA ....................................................9

**Elman Quliyev**
HEYDƏR ƏLİYEV VƏ TÜRK ƏDƏBİYYATI PROBLEMLƏRİ ....................................11

**Adil Mirabdullayev**
ULU ÖNDƏRİN ADI, İDEYALARI ƏSRLƏR BOYU YAŞAYACAQDIR. .....................12

*ف. علييف، الدكتورة الأكاديمي*
*س. عزيزوفا*
**حيدر علييف وتطوير القطاع غير النفطي في كنجا......................................................................** 14

**Məmmədəli Babaşlı**
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MÜSƏLMAN ŞƏRQİ SİYASƏTİNİN PRİORİTETLƏRİ ....................................................................................................15

**Taissiya Marmontova**
NURSULTAN NAZARBAYEV AND HEYDAR ALIYEV: PHENOMENA OF POLITICAL LEADERSHIP IN NEW INDEPENDENT STATES......................................17

**Рафиг Аббасов**
ПОЛИТИЧЕСКОЕ НАСЛЕДИЕ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА АЗЕРБАЙДЖАНА ГЕЙДАРА АЛИЕВА НА КИТАЙСКОМ ЯЗЫКЕ...........................18

**Кадыркулова Ж.К.**
ГЕЙДАР АЛИЕВ - ВЫДАЮЩИЙСЯ СЫН ТЮРКСКОГО НАРОДА..........................20

**Владимир Журавлёв**
РОЛЬ ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ БЕЛОРУССКО-АЗЕРБАЙДЖАНСКОГО СОТРУДНИЧЕСТВА В СФЕРЕ НАУКИ И ОБРАЗОВАНИЯ..................................................................................................22

**Елена Кудрицкая**
ВКЛАД ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИЕ БЕЛОРУССКО - АЗЕРБАЙДЖАНСКОГО СОТРУДНИЧЕСТВА В СФЕРЕ ВЫСШЕГО ТЕХНИЧЕСКОГО ОБРАЗОВАНИЯ........................................................................24

**Səbinə Səmədova**
HEYDƏR ƏLİYEV TƏRƏFİNDƏN TƏMƏLİ QOYULMUŞ MÜASİR AZƏRBAYCANIN XARİCİ SİYASƏT KURSUNDA PAKİSTANLA ƏLAQƏLƏR.......26

**Fəzail Vəliyev**
MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN ETNOQRAFİYASI ELMİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU ...................................................................28

**Saliдə Şərifova**
İBRAHİM YUSİFOĞLUNUN "O, GÜNƏŞ ÖMRÜDÜ, SÖNMƏYƏCƏKDİR" POEMASINDA HEYDƏR ƏLİYEVİN BƏDİİ OBRAZI HAQQINDA ............................ 30

**Zenfira Şıxəlibəyli**
ÇİN-AZƏRBAYCAN ƏLAQƏLƏRİNİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN MÜSTƏSNA ROLU ............................ 31

**Hüsniyyə Çobanova**
TÜRKDİLLİ XALQLARIN BİRLİYİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU ............................ 32

**Lalə Əhmədova**
HEYDƏR ƏLİYEVİN DÖVLƏT QURUCULUĞU STRATEGİYASINDA DİL MƏSƏLƏSİ ............................ 33

**Lalə Bayramova**
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ ƏRƏB DÜNYASI ............................ 34

**İlhamə Ağazadə**
UŞAQ ƏDƏBİYYATINDA AZƏRBAYCANÇILIQ MƏFKURƏSİ ............................ 35

**Günay Verdiyeva**
ULU ÖNDƏR VƏ CAVAD HEYƏT ............................ 37

**Əfşan Şəfiyeva**
HEYDƏR ƏLİYEV İRSİNƏ TARİXİ BAXIŞ ............................ 38

**Elnur Mustafayev**
MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCANIN ƏRƏB ÖLKƏLƏRİ İLƏ DİPLOMATİK MÜNASİBƏTLƏRİ (1993-2003-cü illər arasında) ............................ 39

**Şahlar Şərifov**
AZƏRBAYCANIN ORTA ƏSR TARİXİ MƏSƏLƏLƏRİ HEYDƏR ƏLİYEV İRSİNDƏ ............................ 40

**Lalə Mikayılzadə**
HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFI ............................ 41

**Bəşarət Bəşirova**
H.ƏLİYEVİN MÜSTƏQİL AZƏRBAYCAN GƏNCLƏRİNƏ QAYĞISI VƏ MÜDRİK TÖVSİYƏSİ ............................ 42

**Aybəniz Həsənova**
VAR MİLLƏTİMİN İMZASI İMZALAR İÇİNDƏ ............................ 43

**Ələddin Məlikov**
HEYDƏR ƏLİYEV FENOMENİ VƏ "AZƏRBAYCANÇILIQ FƏLSƏFƏSİ"NİN ELEMENTLƏRİ ............................ 44

**Xanımzər Kərimova**
AZƏRBAYCAN - MİSİR ƏMƏKDAŞLIĞININ BANİSİ ............................ 46

**Günel Məlikli**
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN XALQI ÜÇÜN İRƏLİ SÜRDÜYÜ STRATEGİYA GƏNC NƏSLİN GÖZÜ ÖNÜNDƏ REALLIĞA ÇEVRİLİB ............................ 47

**Zeynəddin Şabanov**
ULU ÖNDƏRİN HƏMKARLAR İTTİFAQLARINA DÖVLƏT QAYĞISI ........................48

**Ceyhun Ağayev**
HEYDƏR ƏLİYEVİN ŞƏRQ-QƏRB MÜNASİBƏTLƏRİ PRİZMASINDAN DİNLƏRARASI DİALOQUN İNKİŞAFININ GERÇƏKLƏŞDİRİLMƏSİNDƏ TARİXİ ROLU ........................49

**Xumar Ələkbərova**
QƏRB-ŞƏRQ SİVİLİZASİYALARININ QOVŞAĞINDA YER ALAN AZƏRBAYCAN ELMİNİN HİMAYƏDARI HEYDƏR ƏLİYEV ........................51

**Sübhan Talıblı**
HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ YAXIN VƏ ORTA ŞƏRQ SİYASƏTİ (1993-2003-cü illər) ........................52

**Əlimusa İbrahimov**
HEYDƏR ƏLİYEVİN PREZİDENTLİYİ DÖVRÜNDƏ AZƏRBAYCAN-İRAN MÜNASİBƏTLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ ........................53

**Mehriban Əliyeva**
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV: XOCALI SOYQIRIMINA SİYASİ QİYMƏTİN VERİLMƏSİ ........................55

**Vüqar Məmmədov**
MÜSTƏQİL AZƏRBAYCANIN ŞƏRQ SİYASƏTİ ŞƏRQŞÜNASLIQ İNSTİTUTUNUN TƏDQİQATLARINDA ........................56

**Əsmətxanım Məmmədova**
MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN TƏƏSSÜBKEŞ HİMAYƏDARI VƏ YA BİZİM OLANA SAHİB ÇIXMAQ CƏSARƏTİ ........................57

**Ulkar Bakhshiyeva**
HEYDAR ALIYEV AND AZERBAIJANI NIZAMI STUDIES ........................59

**Yeganə Əliyeva**
TÜRK DÜNYASI ÖLKƏLƏRİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEV İRSİNİN VƏ MÜDRİKLİK MİRASININ YAŞADILMASI (HEYDƏR ƏLİYEV - 100) ........................60

**Hüseyn Fəxrəddin**
AZƏRBAYCAN-İRAN SİYASİ-DİPLOMATİK MÜNASİBƏTLƏRİNİN QURULMASINDA HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ ........................62

**Əli İbrahimov**
HEYDƏR ƏLİYEVİN SİYASİ KURSUNDA TƏHSİL MƏSƏLƏSİ ........................64

**Gülər Qafqazlı**
AZƏRBAYCAN VƏ SƏUDİYYƏ ƏRƏBİSTANI ƏLAQƏLƏRİNİN QURULMASINDA HEYDƏR ƏLİYEVİN ROLU ........................66

**Əlimuxtar Muxtarov**
ŞUŞA İLİNDƏN MÜSTƏQİL AZƏRBAYCANIN MEMARININ İLİNƏ! ........................67

**Aynur Əliyeva**
HEYDƏR ƏLİYEV FONDUNUN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASI VƏ SİVİLİZASİYALARARASI DİALOQUN İNKİŞAFINDA ROLU ........................69

**Namiq Məmmədov**
İQTİSADİYYATIN NEFT SEKTORUNUNDA TÜRKİYƏ - AZƏRBAYCAN MÜNASİBƏTLƏRİNİN YARANMASI VƏ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU ........ 70

**Əntiqə Paşayeva**
ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN SİYASİ İRSİNDƏ DÖVLƏT ANLAYIŞININ HÜQUQİ, MİLLİ-MƏNƏVİ VƏ ETİK XÜSUSİYYƏTLƏRİ ........ 72

**Şəhla Məcidova**
ZƏLİMXAN YAQUBUN "ƏBƏDİYYƏT DASTANI" POEMASINDA HEYDƏR ƏLİYEV ƏZƏMƏTİ ........ 73

**Elnur Hasanov**
TOLERANCE STRATEGY OF HEYDAR ALIYEV ........ 75

**Yaqub Səmədov**
HEYDƏR ƏLİYEV VƏ MÜASİR DÖVRDƏ AZƏRBAYCANIN ŞƏRQ ÖLKƏLƏRİ İLƏ DİPLOMATİK MÜNASİBƏTLƏRİ ........ 76

**Тахмина Агакишиева**
ГЕЙДАР АЛИЕВ – МНОГОГРАННЫЙ ПАТРИОТ СОВРЕМЕННОГО НЕЗАВИСИМОГО АЗЕРБАЙДЖАНА ........ 78

**Нигяр Эйвазова**
МИГРАЦИЯ НАСЕЛЕНИЯ: ПОНЯТИЕ И СУЩНОСТЬ ........ 80

**Faidə Omarova**
HEYDƏR ƏLİYEV VƏ TÜRK DÜNYASI ........ 82

**Xanım Abdullayeva**
TÜRK MƏFKURƏSİNİN QORUYUCUSU HEYDƏR ƏLİYEV ........ 83

**Fidan Nəsirova**
VAHİD, BÜTÖV AZƏRBAYCANIN ÜMUMMİLLİ LİDERİ ........ 84

**Çinarə Xəlilzadə**
GƏNCLƏRİN İNKİŞAFINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ROLU ........ 85

**Zümrüd İmanova**
AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN PRİORİTETLƏRİ ........ 86

**Aynur Qasımova**
AZƏRBAYCAN RESPUBLİKASININ İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATI (2011-Cİ İLƏ QƏDƏR İSLAM KONFRANSI TƏŞKİLATI) İLƏ MÜNASİBƏTLƏRİ (1993-2003-CÜ İLLƏR) ........ 88

**Elmira Abbasova**
HEYDƏR ƏLİYEVİN ARXEOLOGİYA ELMİNƏ VERDİYİ DƏYƏR ........ 90

**Samid Bağırov**
AZƏRBAYCAN VƏ İƏT ƏLAQƏLƏRİNİN FORMALAŞMASINDA MƏRHUM HEYDƏR ƏLİYEVİN ROLU ........ 91

**Dilbər Hüseynli**
HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN VƏ QAZAXISTAN RESPUBLİKALARI ARASINDAKI MÜNASİBƏTLƏRDƏ ROLU ........ 92

**Ceyhun Mürşüdzadə**
HEYDƏR ƏLİYEV DÖVRÜNDƏ CƏNUBİ KOREYA-AZƏRBAYCAN ƏMƏKDAŞLIĞI ........ 93

**Əzizə Gülümcanlı**
HEYDƏR ƏLİYEV DÖVRÜ - AZƏRBAYCAN VƏ HİNDİSTAN ƏMƏKDAŞLIĞININ ZİRVƏSİ ........ 94

**Afaq Nərimanova**
H.ƏLİYEVİN RƏHBƏRLİYİ DÖVRÜNDƏ AZƏRBAYCAN-YAPONİYA ƏLAQƏLƏRİ ........ 95

**Şövqiyyə İsmayılzadə**
HEYDƏR ƏLİYEV İRSİNDƏ MULTİKULTURALİZM SİYASİ-KONSTİTUSİONAL PRİNSİP KİMİ ........ 96

**Aysel Məmmədova**
ULU ÖNDƏR VƏ ANA DİLİMİZ ........ 99

**Aynurə Məmmədova**
AİLƏ DƏYƏRLƏRİ VƏ AİLƏ ƏNƏNƏLƏRİ - HEYDƏR ƏLİYEV ........ 100

**Xeyransa Əliyeva**
ÖLKƏMİZİN MÜSTƏQİLLİYİNİN MÖHKƏMLƏNMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU ........ 101

**Lalə Paşayeva**
NİZAMİ GƏNCƏVİNİN TÜRK DAVAMÇISI ........ 102

**Орхан Наджафов**
НЕИЗВЕСТНЫЕ СТРАНИЦЫ ПОЛИТИЧЕСКОЙ ИСТОРИИ СОВРЕМЕННОЙ СИРИИ: РОЛЬ ГЕЙДАРА АЛИЕВА В УРЕГУЛИРОВАНИИ ВНУТРЕННЕГО КОНФЛИКТА В РУКОВОДСТВЕ САР В 1984 ГОДУ ........ 104

**Елнара Бунятова**
ГЕЙДАР АЛИЕВ И ДОЛГИЙ ПУТЬ К ВОЗРОЖДЕНИЮ НОВОГО АЗЕРБАЙДЖАНА ........ 105

**Мурведова Наргиз**
ЕДИНСТВО НАЦИОНАЛИЗМА, ЗАПАДА И ВОСТОКА В ПОЛИТИКЕ ГЕЙДАРА АЛИЕВА ........ 107

**Xuraman Abbasova**
AZƏRBAYCAN-İSRAİL MÜNASİBƏTLƏRİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU ........ 108

**Hüseyn Günəşli**
HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTİ İLLƏRİNDƏ AZƏRBAYCANDA TERRORİZM VƏ TERRORİZMƏ QARŞI MÜBARİZƏ ........ 110

**Günay Novruzova**
AZƏRBAYCAN-PAKİSTAN: XX ƏSRİN SONU - XXI ƏSRİN BAŞLANĞICINDA SİYASİ, İQTİSADİ VƏ MƏDƏNİ İNTEQRASİYA ........ 111